www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 dekabr 2014-cü il Cümə axşamı № 308 (6017) Qiymətı 40 qəpik

**Xəbər**

## MTN-dən daha bir əməliyyat; 4 nəfər həbs olundu

yazısı səh.15-də

**Gündəm**

### Türkiyə aprelin 24-nə güclü "bomba" hazırlayır



Qardaş ölkənin nüfuzlu tarixçiləri 100 illiyi yaxınlaşan erməni uydurmasını yeni və sanballı dəlil-sübutlarla faş etməyə başlayıb; **türkiyəli ekspert:** "Bu işdə bizə Rusiya arxivləri çox kömək oldu..."

yazısı səh.13-də

### Prezident "Qarabağ" klubu ilə görüşdü və 1 milyon manat mükafat verdi

yazısı səh.2-də

### Mitinq Müsavatdaxili vəziyyətə necə təsir edib?

Başqan müavini aksiyanın əsl məqsədini açıqladı

yazısı səh.5-də

### Müsavatın Məclis sədri kim olacaq?

yazısı səh.6-da

*Vəfa Quluzadə:*

### "Putinin heç bir çıxış yolu yoxdur"

yazısı səh.8-də

### Sabiq deputat Bakıda ağır qəzaya düşdü

yazısı səh.2-də

### Yeni ildə yenə "partapart" gözlənilir

Pirotexniki malların ölkəyə gətirilməsi qadağan olunsa da, gizli şəkildə satılır

yazısı səh.15-də

### Hacı İbrahim Nehrəmli Amerikada mühüm görüşlər keçirib

yazısı səh.4-də

### Nəqliyyat nazirinin adı hallanan işdə şok korrupsiya faktları

Göyçaylı sahibkar Ziya Məmmədovun qohumu olan icra başçısına, bələdiyyə sədrinə və digər qurumlara ödədiyi xeracın məbləğini açıqladı

yazısı səh.10-da

### "Atlant"dakı silahlı məmur oğlunun kimliyi bilindi

yazısı səh.4-də

## YAP rəsmisi niyə təhsil tənqidçisi oldu?

# SİYAVUŞ NOVRUZOV TƏHSİL NAZİRİ OLMAQ İSTƏYİR

YAP rəhbərliyindən hökumətə növbəti transfer gözlənilir; deputat Siyavuş Novruzov nazir olmaq iddiasında; gələn il Mikayıl Cabbarovun vəzifəsi ilə vidalaşacağı deyilir




yazısı səh.4-də

## Rusiya "aclar inqilabı"na sürüklənir - Bakıya təsiri olacaqmı...

Azərbaycan qorxulu rus qışı ilə üz-üzə; soydaşlarımız təkcə iqtisadi böhranın deyil, bütün bəlalarını "qaralar"da görən radikal rus toplumunun qurbanına çevrilə bilər; Rusiyadan vətənə dönənlərin sayı günbəgün artır; işsizlər ordusunun sayının kəskin artması gözlənilir; neftin qiyməti daha da ucuzlaşarsa...

yazısı səh.9-da



*Elçin Şıxlı:*

### "Qəzetin fəaliyyətini davam etdirsəydim, daha bir neçə müxbir tutulacaqdı"

yazısı səh.7-də



### Senat Sekutanı səfir postuna təsdiqlədi

yazısı səh.3-də



### Rauf Arifoğlu "Azadlıq"a qarşı iddiasından istifadə edilməsinə yol verməyəcək

yazısı səh.5-də



*Müsavat Partiyasının başqanı Arif Hacılı Fəzli Mehdiyevi 55 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:*
*"Hörmətli Fəzli bəy!*
*Sizi 55 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və işlərinizdə uğurlar arzulayıram.*
*1988-ci ildən başlayan Milli Azadlıq hərəkatına qoşulmaqla Siz ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə fəal iştirak etmisiniz.*
*Siz 1993-cü ildən Müsavat Partiyasının üzvü kimi ölkəmizdə gedən azadlıq və demokratiya, vətəndaş cəmiyyəti uğrunda mübarizənin həmişə ön sıralarında olmusunuz.*
*Eyni zamanda uzun müddət Suraxanı rayon təşkilatının NTK sədri, Şura üzvü kimi təşkilatın fəaliyyətinin yaxşılaşdırılmasına öz töhfənizi vermisiniz.*
*Prinsipial və fədakar mübarizənizə görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz və həbs olunsanız da heç zaman öz əqidənizdən dönməmisiniz və bunun nəticəsi olaraq partiyanın VIII Qurultayında partiyanın Mərkəzi Nəzarət-Təftiş Komissiyasına üzv seçilmisiniz. İnanıram ki, bundan sonra da partiyaya xidmətinizi və sədaqətinizi təsdiqləmək imkanını əldən verməzsiniz.*
*Siz mehriban, qayğıkeş bir ailə başçısı, atasınız. İnanıram ki, hər zaman övladınız və Sizi tanıyan insanlar Sizinlə qürur hissi keçirəcəklər.*
*Hörmətli Fəzli bəy!*
*Sizi bir daha 55 illik yubileyiniz münasibətilə təbrik edir, apardığınız bu şərəfli mübarizədə uğurlar arzulayıram".*

# Yadigar Sadıqovun şikayəti təmin olunmadı

**Dünən Bakı Apelyasiya Məhkəməsində Müsavat Partiyası başqanının müavini Yadigar Sadıqovun Qaradağ Rayon Məhkəməsinin qərarından apelyasiya şikayətinə baxılıb. Məhkəmədə Müsavat Partiyasının başqanı Arif Hacılı, başqan müavinləri Gülağa Aslanlı, Osman Kazımov, Elman Fəttah, Səxavət Soltanlı, Divan üzvləri Vəfa Cümşüdlü, Razim Əmiraslanlı və digər müsavatçı fəallar iştirak ediblər.**

Y.Sadıqov öz çıxışında "əməyə meylli deyil" əsası ilə ərizəsinin rədd oliunduğu Qaradağ Rayon Məhkəməsinin qərarını absurd adlandıraraq, "Azadlıqda ikən siyasi fəaliyyətimə görə iki dəfə məni pedaqoji fəaliyyətdən uzaqlaşdıranlar, uzun illər mənə işləməyə imkan verməyənlər həbs edildikdən sonra məni əməyə meylli olmamaqda ittiham edirlər" deyərək, onunla bağlı bütün məhkəmə qərarlarının siyasi sifariş olduğunu bir daha sübut edib.

Y.Sadıqovun əsaslandırılan arqumentli çıxışına rəğmən Apelyasiya Məhkəməsi heç bir qanuni əsas göstərmədən şikayətin rədd edilməsi haqqında qərar çıxarıb.

Müsavat Partiyası Apelyasiya Məhkəməsinin Y.Sadıqovun şikayətinin təmin edilməməsi haqqında çıxardığı qərarı ənənəvi sifarişli məhkəmə qərarlarının növbətisi hesab edərək, Azərbaycan hakimiyyətindən Y.Sadıqova qarşı sərgilədiyi qərəzli münasibətdən əl çəkməyi, onu darhal azadlığa buraxmağı tələb edir.

# İqbal Ağazadə ABŞ diplomatı ilə görüşündən danışdı

**Dekabrın 16-da Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Derek Hoqanla görüşüb. Görüşdə qarşıdan gələn bələdiyyə seçkiləri və ölkədəki ictimai-siyasi vəziyyət müzakirə olunub. Musavat.com-a açıqlamasında İ. Ağazadə görüşün detalları ilə bağlı məlumat verib: "Ölkədəki ümumi ictimai-siyasi vəziyyətlə bağlı danışdıq. 23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı da müzakirələr apardıq. Ənənəvi görüşlərdən biri idi. 2015-ci ildə keçiriləcək parlament seçkiləri ilə bağlı söhbətimiz olmadı. Əsas bələdiyyə seçkiləri haqda danışdıq. Qısa bir görüş oldu. Daha çox protokol görüşü idi. Onlar sadəcə, bizi dinləməyə üstünlük verirlər. Bu, onların mövqeyini ifadə edir".**

Qeyd edək ki, bundan əvvəl Derek Hoqan Müsavat başqanı Arif Hacılı ilə görüşmüşdü. Azərbaycandakı ictimai-siyasi vəziyyət, Azərbaycanla ABŞ arasındakı əlaqələr, siyasi məhbuslar problemi, ölkə daxilində demokratik institutların müdafiəsi və inkişafının zəruriliyi məsələləri müzakirə olunmuşdu. Amerikalı diplomat Arif Hacılını Müsavat başqanı seçilməsi münasibətilə təbrik etmişdi.

❑ **Cavanşir ABBASLI**


"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


## Başsağlığı

**Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər Həzi Quliyevə qardaşı Eldar Quliyevin vəfatından kədərlənridiynini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Prezident "Qarabağ" klubu ilə görüşdü

## İlham Əliyev komandanın hakim ədalətsizliyi ilə üzləşdiyini dedi və kluba 1 milyon manat mükafat verdi



**Ağdamın "Qarabağ" futbol klubunun Avroliqada uğuru çıxışı, Bakıda "İnter"lə oyunda üzləşdiyi ədalətsizlik dekabrın 17-də prezident İlham Əliyevlə görüşdə müzakirə olunub.**

Prezident komanda ilə görüşdə deyib ki, "Qarabağ" ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edir. İlham Əliyev dekabrın 11-də İtaliyanın "İnter" komandası ilə keçirilən oyunda "Qarabağ" komandasının vurduğu qolun Çexiyalı hakim tərəfindən hesaba alınmamasını hakim briqadasının qeyri-peşəkarlığı, yaxud da qərəzli mövqeyi nəticəsində baş verdiyini bildirib. "Siz böyük qələbələrə layiq idiniz və bu qələbələr bütün dünyanın gözü qarşısında sizin əlinizdən alındı" deyən, dövlət başçısı ədalətsizliklə barışmağın çətin olduğunu, ölkəmizin də bir sıra məsələlərdə bu faktla qarşılaşdığını vurğulayıb. Dövlət başçısı həmin oyunda hakimlərin ədalətsizliyinə qarşı emosiyalarını cilovlayaraq yüksək mədəniyyət nümayiş etdirən komandanın artıq tarixə düşdüyünü deyib. 2020-ci ildə isə Bakının futbol üzrə Avropa çempionatının oyunlarının keçiriləcəyi şəhərlər sırasında olduğunu xatırladan prezident komandaya müvəffəqiyyətlər arzulayıb.

Komandanın baş məşqçisi Qurban Qurbanov onların fəaliyyətinə verdiyi dəstəyə görə prezidentə minnətdarlığını bildirib. Klubun vitse-prezidenti Tahir Gözəl son oyunları ilə azarkeşlərin rəğbətini qazanan komandanın hakim ədalətsizliyinə baxmayaraq, ruhdan düşmədiyini deyib. Son hadisə ilə bağlı Avropa futbol ictimaiyyətində də böyük narahatlıq hisslərinin yaşandığını deyən Tahir Gözəl "Qarabağ" futbol klubuna, ümumilikdə ölkəmizdə idmanın inkişafına göstərdiyi diqqətə görə minnətdarlıq edib.

Tahir Gözəl dövlət başçısına üzərində İlham Əliyev yazılan forma və klubun xatirə hədiyyələrini təqdim edib. Qeyd edək ki, prezidentə hədiyyə olunan 10 nömrəli forma Muarrem Muarremə məxsusdur.

**Klubun direktoru Emrah Çelikel "Qafqazinfo"ya deyib ki, görüşdə klubun bazası ilə maraqlanan prezident Tofiq İsmayılov adına Suraxanı qəsəbə stadionunun tam olaraq kluba ayrılması haqqında təlimat verib:** "Bilirsiniz ki, Tofiq İsmayılov adına stadionun əsas hissəsində "Qarabağ"ın baza stadionu tikilib. Stadionun boş qalan hissəsində isə uşaqlar üçün futbol akademiyası tikmək istəyirdik. Bu, ölkədə uşaq futbolunun inkişafına təsir edəcək. Orada məşqlər həyata keçiriləcək. Biz bu istəyimizi ölkə başçısı ilə görüşdə səsləndirdik. O da stadionun boş qalan hissəsində uşaq akademiyası tikilməsinə razılıq verdi".

Prezidenti Avroliqada uğurlu iştirakına, ölkəni layiqincə təmsil etdiyinə və futbolun inkişafında xidmətlərinə görə "Qarabağ"a Prezidentin Ehtiyat Fondundan 1 (bir) milyon manat ayrılması barədə sərəncam da verib.

❑ **Xəbər xidməti**

# Mirqafar Seyidov əmisi oğlunu işdən qovdu

**Bakı Şəhər Baş Polis İdarəsinin rəisi vəzifəsinə yeni təyin olunan Mirqafar Seyidovun təqdimatı ilə aparılan kadr islahatları, daha doğrusu, yüksək vəzifəli şəxslərin işdən azad edilməsi prosesi davam edir. Aznews.az xəbər verir ki, dünən Nizami Rayon Polis İdarəsinin Cinayət Axtarış Şöbəsini rəisi Səid Seyidov tutduğu vəzifəyə yararsız hesab edilərək, işdən azad edilib.**

Maraqlıdır ki, S.Seyidov bu vəzifəyə cəmi bir ay əvvəl- Mirqafar Seyidov BŞBPİ-yə rəis gələndən sonra təyin edilib. Onun vəzifədən belə qəfil çıxarılmağı gözlənilməz olub.

Qeyd edək ki, Seyidov Səid Adil oğlu əvvəllər Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Baş İdarədə çalışıb. O, vaxtilə prezident tərəfindən "İgidliyə görə" medalı ilə təltif olunub.

"Yeni Müsavat"a daxil olan məlumata görə, S.Seyidov M.Seyidovun əmisi oğludur. Bakı polisinin rəisi onu çox ciddi bir olaya görə işdən uzaqlaşdırıb.

Xatırladaq ki, üç gün öncə BŞBPİ-nin 5-i rəis olmaqla, 9 əməkdaşı işdən çıxarılıb. Onlara qarşı ağır ittihamlar irəli sürülüb.


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**


# Mətbuat Şurası Şirməmməd Hüseynovun 90 yaşını qeyd etdi



**Dekabrın 17-də Mətbuat Şurası (MŞ) Bakı Dövlət Universitetinin pedaqoqu və mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun yubileyini keçirib. Musavat.com-un xəbərinə görə, Beynəlxalq Mətbuat Mərkəzində keçirilən tədbirdə tanınmış ictimai xadimlər, ziyalılar, KİV rəhbərləri iştirak ediblər.**

MŞ sədri Əflatun Amaşov bildirib ki, tədbirin məqsədi əqidəli müəllimləri Şirməmməd Hüseynovun 90 yaşını qeyd etməkdir. O, Ş.Hüseynovun həyatı, həmçinin əsərləri barədə danışıb və bildirib ki, böyük ömür yolu keçən Şirməmməd Hüseynovun Azərbaycan Demokratik Cumhuriyyətinin, Məhəmməd Əmin Rəsulzadə irsinin öyrənilməsində böyük xidmətləri var: "Bu tarixin təbliğində Şirməmməd müəllimin misilsiz xidməti var. Həmçinin mətbuat tariximizin qaranlıq səhifələrinə işıq salanların sırasında onun adı ön cərgədə çəkilir".



Tədbirdə Ş.Hüseynovla bağlı MŞ tərəfindən hazırlanan film də nümayiş etdirilib. "Ustad" filmində o, obyektivliyin simvolu adlandırılıb. Filmin ideya müəllifi deputat Cavanşir Feyziyev, baş məsləhətçi Əflatun Amaşov, rejissor və redaktor Kəmalə Mirzəyeva, layihə rəhbərləri isə Ə.Amaşov və Bəxtiyar Qaracadır. Filmdə bir çox tanınmış insanların Ş.Hüseynovla bağlı fikirləri də yer alıb. Filmdən sonra tədbirə toplaşanlar onun haqqında danışıblar.

**"Azərbaycan " qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov Ş.Hüseynovu hamının müəllimi adlandırıb:** "Şirməmməd müəllim hamımızın müəllimidir, hətta dərs demədiyi insanların da. Şirməmməd müəllim auditoriyada həyat dərsləri də verirdi. Biz ömrümüz boyu onun verdiyi dərslərdən istifadə etmişik. Şirməmməd müəllim bu gün də dərs verir- vətənə, millətə xidmət dərsi, keçmişə qayğı dərsi".

**Şirməmməd Hüseynov isə çıxışında millətin tarixinə, keçmişə qayıdışı məsələlərinə toxunub:** "Bu millət indi yavaş-yavaş özünə qayıdır. Bu millət namuslu adamlardan ötrü darıxıb, onu sevənlərdən ötrü darıxıb". O, türk toplumlarının torpaqlarını itirmə təhlükəsindən və bununla bağlı narahatlıqdan da söz açıb. Sonda isə arzusunu dilə gətirib: "Altmış yeddi il imperiya tərkibində, iyirmi üç müstəqil dövlətdə yaşamışam. Söz vermişəm ki, bu cümhuriyyətin yüz illiyini qeyd edənə qədər dünyadan gedən deyiləm". Digər çıxış edənlər də Ş.Hüseynovu yubiley münasibətilə təbrik edib, xoş sözlərini çatdırıblar və ona işlərində uğurlar arzulayıblar.

❑ **RÖYA**
**Fotolar müəllifindir**

# İlham Əliyev Pakistan prezidentinə başsağlığı verdi

**Prezident İlham Əliyev Pakistanın prezidenti Məmnun Hüseynə başsağlığı məktubu göndərib.**
**Ölkə başçısının məktubunda deyilir:**
**"Hörmətli cənab Prezident!**

Peşəvar şəhərində hərbi məktəbə silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Bu qanlı hadisə terrorizmin dəhşətli bəla olduğunu, onun bütün təzahürlərinə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasının zəruriliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm".




# Sabiq deputat ağır qəzaya düşdü

**Dünən Bakının Azadlıq meydanında baş verən avtomobil qəzasında keçmiş millət vəkili Əliməmməd Nuriyev ağır xəsarət alıb. AzPolitika.info-nun verdiyi məlumata görə, BMV markalı avtomobillə Əliməmməd Nuriyevin idarə etdiyi "Mitsubişi Pajero" markalı avtomobilin toqquşması nəticəsində ikinci avtomobil aşıb. Yaxınlıqdakı vətəndaşlar keçmiş deputatı tərsinə çevrilmiş avtomobildən çıxarıblar.**

Ə.Nuriyev başından xəsarət alıb. Onun avtomobili isə tamamilə yararsız vəziyyətə düşüb.




# Bakıda nömrəsiz gəzən "Lamborghini"nin sahibi tapıldı

**Bakıda qanunları heçə sayan "Lamborghini"nin sahibinin kimliyi bilinib. Avtomobil "Baku Steel Company"nın prezidenti Rasim Məmmədovundur. Nomrəsi də 10-AA-784-dür. LuxLife.Az xəbər verir ki, bu barədə "Azərbaycanın Kriminal Həyatı" facebook səhifəsində məlumat yayılıb.**

Rasimin könlünə düşəndə nömrəni taxır, istəməyəndə isə nömrəsiz gəzir. Ona gözün üstə qaşın var deyən də yoxdur.

Fotolardan məlum olur ki, bu avtomobil Bakı küçələrində həm dövlət nömrə nişanı ilə, həm də nömrəsiz hərəkət edir. Avtomobili isə tez-tez Bakı Dövlət Sirkinin yaxınlığında görürlər.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Qənirə Ataşovadan irəli Putinə baxmaq

Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib

**Sovet dövrünün əməyi tərənnüm edən mahnılarından biri də "Lənkəranın çay dərən qızları" mahnısı idi. Səhv etmirəmsə, Anatollu Qəniyev oxuyurdu. Nədənsə hər dəfə ANS-də xəbərlərə qulaq asanda bu mahnı yadıma düşür və o, qulağımda "aenesin çox çaşan qızları" kimi səslənir. Bu kanalda çalışan "xəbərçi" qızlar xəbərləri bizə çatdırarkən, hökmən bir neçə dəfə çaşmalıdırlar. Xüsusən də "Xəbərçi"nin saat 21-dəki buraxılışını aparan Qənirə Ataşova. Balam, adam nə qədər çaşar? İki-üç cümləlik mətni oxumaq bu qədərmi çətin işdir? Bildiyim qədər yaradıcı televiziya işçilərindən fərqli olaraq xəbərləri oxuyan qızlardan ikicə şey tələb olunmalıdır:**

a) aydın və səlis danışmaq

b) mətni oxuyanda çaşmamaq

ANŞ-in qızları isə bunu bacarmırlar. Yadımdadır ki, Şəki qazamatında olanda kamera yoldaşlarımla ANS-in qızlarının çaşıb-çaşmayacağına mərc qoyurduq. Təkcə Rita Ömərova veriliş boyu çaşmadan bütün xəbərləri oxuyub təqdim edə bilirdi.

Bir şeyə də fikir vermişəm ki, deyəsən, ANS-in xəbərçiləri təqdim etdikləri xəbərlərə öz mövqelərini də əlavə edirlər. Məsələn, götürək Qənirə Ataşovanın özünü. Bu xanım bir qayda olaraq, xəbərləri çox qəzəbli və gərgin şəkildə təqdim edir. Onun xəbərlərində Qərbə *(xüsusən də ABŞ-a)*, demokratiya və Qərb dəyərlərinə şübhə, etimadsızlıq, həmçinin istehza aydınca vurğulanır. Bunun əvəzində bəzən çox yersiz İslam və türk *(xüsusən də Türkiyə)* təəssübkeşliyi göz deşir. Hiss olunur ki, xanımın xəbərlərin hazırlanmasında xüsusi rolu var və mətnə şəxsi hisslərindən doğan əlavələri də daxil edir. Elə Rusiyanın Ukraynanın ərazilərinə soxulmağa başladığı ilk gündən məhz bu xanımın təqdim etdiyi xəbərlərdə "Qərb Ukraynanı meydanda tək qoyub", "ABŞ Ukraynanın müdafiəsi üçün söz deməkdən başqa heç bir iş görmür", "Qərb tovlayıb yoldan çıxartdığı Ukraynanı yarı yolda buraxdı" və s. şəklində əlavələri çox qabarıq görünürdü. Halbuki elə həmin anlardan hamıya, hətta siyasətdən başı çıxmayan adamlara da aydın idi ki, Qərb dərhal Rusiyaya qarşı müharibə elan etməyəcək, ancaq sözünün *(oxu:prinsiplərinin)* ağası olaraq, həmişə olduğu kimi soyuqqanlı, ölçülüb-biçilmiş və təsirli tədbirləri ilə addım-addım hədəfə doğru irəliləyəcək, necə ki bunu indi hamı aydın şəkildə görür.

O ki söz Rusiya-Ukrayna münasibətlərindən düşdü, onda Qənirə bacımızın yaxasından əl çəkib Vladimir Putinin yaxasından yapışaq. İndi bütün mütərəqqi dünya, hətta Rusiyanın özünün də mütərəqqi insanları 21-ci əsrin Hitleri adlandırılmış Putinə nifrət edir. O cümlədən mən də. Necədir sizin üçün, indi durub deyim ki, bir az keçəcək, belə düşünən insanların qəlbindəki Putinə qarşı antipatiya simpatiya ilə əvəzlənəcək. Bu, çox realdır. Yox, yox, heç qətiyyən onu demək istəmirəm ki, Putin qoşunlarını Qarabağdan, Abxaziyadan, Cənubi Osetiyadan, Pridnestroviyadan və Ukraynadan geri çəkərək, hamıdan üzr istəyəcək. Mən özüm siyasətdə o qədər naşı, sadəlövh deyiləm ki, belə əfsanələrə inanım. Məsələ başqa cür olacaq. Yadınızdadırmı, içi mən qarışıq Alma-Ataya, Vilnüsə, Tiflisə və Bakıya qoşun yeritdiyi üçün Qorbaçova necə nifrət edirdik. Əlimizə düşsəydi onu tikə-tikə edərdik. Amma üstündən bir az keçdi, Qorbaçovun rəhbərlik etdiyi SSRİ və sosialist ölkələri düşərgəsi darmadağın oldu. Sonradan papağımızı qabağımıza qoyub bir az dərindən fikirləşəndə gördük ki, Qorbaçov bizim düşmənimiz yox, dostumuz imiş. Belə ki, onun ora-bura qoşun yeritməsi nəticəsində SSRİ-nin çöküşü üçün əla şərait yarandı və yerlərdəki milli-azadlıq hərəkatları öz məqsədlərinə çatdılar. Halbuki bir az əvvəl SSRİ-nin tərkibindən çıxıb müstəqil dövlət qurmaq ideyası hamımıza əlçatmaz bir şey kimi görünürdü. Əlbəttə ki, bütün müqayisələr qüsurludur və Qorbaçovla Putinin məqsəd və hərəkətləri arasında xeyli fərqlər var. Əsas olanı nəticədir. Aydın görünür ki, Putinin avantürası nəticəsində SSRİ-nin *(1-ci Şər İmperiyası)* qalıqları üstündə təşəkkül tapmış 2-ci Şər İmperiyası olan Rusiya çökəcək. Bu isə onun nəzarətdə saxladığı postsovet ölkələrinin həqiqi demokratiyaya qovuşması və mütərəqqi Qərbə inteqrasiyası üçün əla imkan olacaq. Bax, onda bizim hamımızda Putinə qarşı bir simpatiya yaranacaq, nə yaxşı ki, bu avantüraya başladı və Rusiyanın çöküşünü təmin etdi. Yoxsa Kreml avtoritarizmi və onun müdafiə etdiyi rejimlər hələ çox baş ağrıdacaqdı. Dünyada gedən proseslərə baxanda görürəm ki, sanki SSRİ-nin tarixində 1987-88-ci illər mərhələsidir. Həmin vaxtdan boylananda SSRİ-nin çöküşünü aydınca görmək olurdu. Yetərdi ki, pəncələrinin ucuna dikəlib, əlini gözünün üstünə qoyub diqqətlə irəli baxasan. Yapçılar isə irəli yaxşı baxmaq əvəzinə, "İrəli"yə yaxşı baxırlar. Qurdalamayın, qoy baxsınlar.

**Xəbər verdiyimiz kimi, Milli Məclis "KİV haqqında" Qanuna bir ildə eyni media qurumunun 2 dəfə məhkəmə cəzası aldığı halda fəaliyyətinə xitam verilməsi üçün məhkəməyə müraciət məsuliyyəti yaranması barədə dəyişikliyi rəsmiləşdirib.**

# Redaktorlar və media ekspertləri "KİV haqqında" Qanuna dəyişikliklərdən danışdı

**Rauf Arifoğlu:** "Bizim üçün kifayət qədər ciddi problem və çətinliklər yaradacaq"

**Mehman Əliyev:** "Bu günə qədər də qanunlar sərtləşdirilib, amma tətbiq olunmayıb"

Ədliyyə Nazirliyi il ərzində məhkəmənin qərarı ilə iki dəfə məsuliyyətə cəlb edilən KİV-in istehsalına və yayımına xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldıra bilər. İndiyədək belə bir iddianın qaldırılması üçün tələb olunan məsuliyyətə cəlb edilmə hallarının sayı üçə bərabər idi.

Media ekspertləri və redaktorların bu dəyişikliklə bağlı fərqli fikirləri var.

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu dəyişikliyə müsbət yanaşmır:** "Mətbuatla bağlı parlamentdə müzakirə olunan əlavə və dəyişikliklər məhdudlaşdırmadır, antidemokratik mahiyyət kəsb edir. Bizim üçün kifayət qədər ciddi problem və çətinliklər yaradacaq. Ona görə də "KİV haqqında" Qanuna əlavə və dəyişiklikləri müsbət baxımdan qəbul edə bilmərəm".

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə bu qanunla bağlı fərqli düşünür. Onun sözlərinə görə, Azərbaycanda sistem başqa cür tətbiq olunur:** "Prinsipcə sistem belədir ki, artıq media ilə bağlı məsələlər yuxarı səviyyəli icra orqanları tərəfindən həll edilir. Məhkəmə müstəqil deyil, çünki yuxarıların iradəsindədir. Hər hansı qərar verirlərsə, məsələn, kimisə tutmaq, hansısa media orqanının fəaliyyətini dayandırmaq, bunu edirlər".



**Müsahibimiz bildirdi ki, son illər bununla paralel qanunlar da sərtləşdirilir. Amma bu qanunlar çərçivəsində jurnalistlərin həbsini, qəzetlərin bağlanmasını görməmişik:** "O məsələlər tamam başqa motivlərlə icra edilir. Yeni qanunlar sərtləşdirilib, amma tətbiq olunmayıb. Jurnalistləri media fəaliyyəti ilə bağlı yox, tamam başqa motivlərlə həbs edirlər. Amma bu qanun medianı çərçivəyə salmaq və xəbərdarlıq etməkdir. Heç kim sığortalana bilməz ki, bu, ona qarşı tətbiq olunmayacaq. Bilmirəm ki, bundan sonra jurnalistlərə qarşı bu qanundan istifadə edəcəklər, ya yox. Amma məqsəd jurnalist və redaksiyaları qorxutmaqdır".

**"Ayna-Zekalo" qəzetlərinin baş redaktoru Elçin Şıxlı** "Turan" İA-ya açıqlamasında bu dəyişikliyi "qeyri-ciddi və əhəmiyyətsiz" adlandırıb. O, buna qədər qanunda bu məsələ ilə bağlı 3 dəfə cəza aldıqda belə məsuliyyətin yaranması haqda müddəa olduğunu xatırladıb və indiyə kimi həmin maddənin gerçəkdə tətbiq olunmadığını vurğulayıb.

**Hüquqşünas Ələsgər Məmmədli bu dəyişikliyi mətbuat azadlığını məhdudlaşdırmaq kimi dəyərləndirib. Bu dəyişikliyin Avropa Konvensiyasının ifadə azadlığı müddəaları ilə ziddiyyət təşkil etdiyini nəzərə çatdırıb:**

"Bu dəyişiklik əslində mətbuat və ifadə azadlığına qanunvericilik vasitəsilə basqın etməkdir".

❑ **Sevinc TELMANQIZI**

# Pakistana görə Azərbaycanda matəm elan olunacaqmı?

**Nazirlər Kabinetinin rəsmisindən gözlənilməz cavab:** "Sizə matəm lazımdır?"

**Milli Məclisin mətbuat katibi:** "Hamımız o hadisəni qətiyyətlə pisləyirik"

**"Pakistan Türkiyə qədər Azərbaycanın da strateji müttəfiqidir, bizə görə Ermənistanla diplomatik münasibət qurmayıb, bu ölkəni işğalçı sayır". Bu açıqlama ilə politoloq Elxan Şahinoğlu çıxış edib. O, Azərbaycanın Türkiyə nümunəsindən istifadə etməli olduğunu bildirib:**

"Pakistanda ağır facie baş verdi, Talibanın məktəbə hücumu nəticəsində 150 şagird və müəllim qətlə yetirildi. Pakistanda 3 günlük matəm elan edilib. Müttəfiqi Türkiyə də qardaşlarının ağır günündə Pakistanın yanındadır və 1 günlük matəm elan edib. Bəs Azərbaycan? Pakistan Türkiyə qədər Azərbaycanın da strateji müttəfiqidir, bizə görə Ermənistanla diplomatik münasibət qurmayıb, bu ölkəni işğalçı sayır. Türkiyə nümunəsindən istifadə etmək lazımdır".

Xatırladaq ki, Pakistanda yaşanan məktəb faciəsinə görə Türkiyə birgünlük matəm elan edib. Pakistan isə bu il mayın 13-də Türkiyənin Manisa əyalətinin Soma rayonundakı kömür mədənində baş vermiş və 301 nəfərin ölümü ilə nəticələnən facie ilə bağlı rəsmən iki günlük matəm keçirmişdi.

Azərbaycanlı politoloqun bu məsələni haqlı olaraq qaldırdığını nəzərə alıb rəsmi qurumlardan ölkəmizdə Pakistan xalqına dəstək olaraq hansı addımın atılacağını öyrənmək istədik.

**Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu bildirdi ki, parlamentdə hər kəs dost ölkədə törədilən terror hadisəsini pisləyir:** "Hamımız o hadisəni qətiyyətlə pisləyirik. Bu, xeyli sayda dinc insanın ölümünə səbəb olan bir hadisədir, təbii ki, lənətlənməlidir. Azərbaycan Pakistanla dost ölkədir və onun bütün dərdlərini bölüşür. Amma ölkədə matəm elan olunması barədə qərarın qəbulu məsələsi bizim səlahiyyətimizdə deyil".

**Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli isə sualımızın cavabında gözləmədiyimiz reaksiya verdi:** "Sizə matəm lazımdır?"

**Biz sadəcə Azərbaycanın dövlət müstəqilliyini ikinci dövlət olaraq tanıyan Pakistanın dərdinə hansı şəkildə reaksiya veriləcəyi barədə suala cavab istədiyimizi xatırlatdıqda isə xidmət rəhbəri dedi ki, matəmin elan olunub-olunmayacağı barədə onda heç bir məlumat yoxdur:** "Başsağlığı təbii ki, verilib, lazımi köməklik göstəriləcək".

**Xarici İşlər Nazirliyi isə Pakistanda törədilmiş terror aktı ilə əlaqədar bəyanat qəbul edib. Bəyanatda Azərbaycan Respublikasının dekabrın 16-da Pakistanın Peşavar vilayətində məktəbdə törədilmiş və əsasən uşaqlar olmaqla, çoxlu sayda insanın ölümünə və yaralanmasına səbəb olan terror hücumlarını qəti şəkildə pislədiyi bildirilir:** "Azərbaycan Respublikası həlak olanların ailələrinə və qardaş Pakistan xalqına dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmasını arzu edir. Terrorizmdən əziyyət çəkən dövlət kimi, Azərbaycan terrorizmin bütün forma və təzahürlərini pisləyir və bir daha vurğulayır ki, heç bir terror əməlinə bəraət qazandırıla bilinməz. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətlə əməkdaşlıq əsnasında terrorizmə qarşı mübarizədə Pakistan hökumətinin səylərini dəstəkləməkdə əzimlidir".

Qeyd edək ki, dekabrın 16-da "Təhriki-Taliban Pakistan" yaraqlıları Pişəvər şəhərindəki məktəbə hücum ediblər.

Son məlumatlara görə, 140 nəfər hücumun qurbanı olub, onlardan ən azı 100-ü uşaqdır. 120-dən çox şəxs yaralanıb. Hücum zamanı məktəbdə 500-dək şagird və müəllim olub.

❑ **Cavid TURAN**

# Senat Sekutanı səfir postuna təsdiqlədi

**ABŞ Senatı Robert Frensis Sekutanın (Robert Francis Cekuta) Azərbaycana səfir təyinatını təsdiqləyib.**

APA-nın məlumatına görə, Senatın dekabrın 16-da keçirilmiş iclasında R.F.Sekutanın Azərbaycana səfir göndərilməsi barədə prezident Barak Obamanın təqdimatı öz təsdiqini tapıb.

ABŞ-ın Ermənistanda səfiri postuna namizədliyi irəli sürülmüş Riçard M.Millsin də namizədliyi Senat tərəfindən təsdiqlənib.

ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik twitter hesabından Senatın ABŞ-ın Azərbaycan və Ermənistanda səfiri postuna namizədləri təsdiqlədiyini yazıb, bu münasibətlə təbriklərini çatdırıb. Müzakirələr senator Harri Reidin sədrliyi ilə keçirilib.

R.Mills 1990-cı illərdə ABŞ Dövlət Departamentində Ermənistan və Azərbaycan məsələləri üzrə şöbəyə rəhbərlik edib.

Xatırladaq ki, bu il iyulun 8-də prezident Barak Obama ABŞ-ın Azərbaycandakı səfiri vəzifəsinə dövlət katibinin enerji məsələləri üzrə köməkçisinin müavini Robert Sekutanın namizədliyini irəli sürüb (APA).

YENİ MÜSAVAT
N 308 (6017) 18 dekabr 2014





# Hacı İbrahim Nehrəmli Amerikada mühüm görüşlər keçirib

## "Khazar İslands"ın ABŞ-da təqdimatı uğurlu keçib

**Nüfuzlu iş adamı Hacı İbrahim Nehrəmlinin rəhbərliyi ilə "Avesta Konsern"in nümayəndə heyəti dekabr ayının 8-dən 13-dək ABŞ Memarlıq İnstitutu, Florida ştatının Qubernatorluğu və "Green Point International"ın təşkilatçılığı ilə keçirilən Mayami İnşaat və Memarlıq Həftəsində iştirak etmək üçün Birləşmiş Ştatlarda olub.**





Mayami İnşaat və Memarlıq Həftəsi təşkilatçılarının dəvəti ilə tədbirə qatılan "Avesta Konsern"in nümayəndə heyətinə tədbir iştirakçıları tərəfindən böyük diqqət göstərilib. Mayami İnşaat və Memarlıq Həftəsi çərçivəsində keçirilən böyük layihələrinin təqdimatına həsr olunmuş tədbirdə "Avesta Konsern"in "Khazar İslands" layihəsi də təqdim olunub və təqdim olunan layihələr içərisində tədbir iştirakçılarının ən çox marağını çəkən layihə olub. Bunun nəticəsi olaraq bir neçə şirkət "Avesta Konsern"lə əməkdaşlıq niyyətlərini bildiriblər. Tədbir çərçivəsində bir neçə şirkətlə gələcək əməkdaşlıqla bağlı niyyət protokolu da imzalanıb. Mayami İnşaat və Memarlıq Həftəsində fəal iştirak edən "Avesta Konsern"in nümayəndə heyəti ABŞ sərmayəsinin Azərbaycana cəlb edilməsi ilə bağlı da önəmli danışıqlar aparıblar. Amerikalı sərmayəçilər Azərbaycana sərmayə qoymaqda maraqlı olduqlarını, "Khazar İslands" layihəsi çərçivəsində əməkdaşlığın bu yolda uğurlu addım ola biləcəyini qeyd ediblər. Bundan başqa, amerikalı iş adamları azərbaycanlı iş adamları ilə birgə ABŞ-da əməkdaşlıq edə biləcəklərini qeyd ediblər.

Mayami İnşaat və Memarlıq Həftəsində "Avesta Konsern"in "Khazar İslands" layihəsinin böyük marağa səbəb olması şəhər rəhbərliyinin də diqqətini çəkib və "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli Mayami şəhərinin Komissarı Joze "Pepe" Diaz tərəfindən görüşə dəvət edilib. "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmlini çox hörmətlə qarşılayan Joze "Pepe" Diaza "Avesta Konsern"in həyata keçirdiyi "Khazar İslands" layihəsi haqqında geniş məlumat verilib. Joze "Pepe" Diaz "Khazar İslands" layihəsinin onun diqqətini çox çəkdiyini, Xəzər dənizində salınan bu şəhəri görmək üçün hökmən Azərbaycana səfər edəcəyini bildirib. "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli də ABŞ-ın dövlət xadimlərinin və iş adamlarının Azərbaycana daha çox səfər etmələrinin ölkələrimiz və xalqlarımız arasında münasibətləri daha da inkişaf etdirəcəyinə inamını vurğulayıb, Joze "Pepe" Diazı tezliklə "Khazar İslands"ı görəcəyinə ümid etdiyini bildirib. Joze "Pepe" Diaz Hacı İbrahim Nehrəmlini Floridada da "Khazar İslands" kimi bir layihə həyata keçirə biləciyini vurğulayıb və bunu arzu etdiyini qeyd edib.

Mayami İnşaat və Memarlıq Həftəsində iştirak edən "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli Hallandeyl şəhərinin meri xanım Joy Cooper tərəfindən qəbul edilib. Hacı İbrahim Nehrəmli Hallandeyl şəhərinin meri xanım Joy Cooperə başçılıq etdiyi şirkət və "Avesta Konsern" Xəzər dənizində tikdiyi "Khazar İslands" haqqında məlumat verib. Hacı İbrahim Nehrəmli ilə görüşündən məmnunluğunu bildirən xanım Joy Cooper "Avesta Konsern"in prezidentinə Hallandeyl şəhərinin rəmzi açarını təqdim edib və Hallandeyl şəhəri ilə "Khazar İslands" şəhərini qardaşlaşmış şəhər kimi görməyi arzu etdiyini bildirib.

Hacı İbrahim Nehrəmlinin başçılığı ilə Mayami İnşaat və Memarlıq Həftəsi tədbirlərinə qatılan "Avesta Konsern"in nümayəndə heyətinin bu səfəri çox uğurla keçib və "Khazar İslands" layihəsi dünyanın ən böyük dövlətində böyük marağa səbəb olub. Beləliklə, ABŞ-ın biznes dairələrinin Azərbaycana diqqəti daha da artıb. Bu isə ölkələrimiz arasında münasibətlərə müsbət təsir göstərə bilər.

**"Avesta Konsern"in nümayəndə heyətinin Florida ştatında keçirdiyi görüşlərdə bu ştatdakı azərbaycanlı icmasının rəhbəri Tövhə Eminova da yaxından iştirak edib.**

❑ Xəbər xidməti

# "Atlant"dakı silahlı məmur oğlunun kimliyi bilindi



**Bir müddət öncə yayılmış videodan belə görünürdü ki, Azərbaycan məmurlarından birinin oğlu əlində silah tutaraq Nabrandakı "Atlant" istirahət mərkəzinin müştərilərini güllələməklə hədələyir.**

İnsident bu il avqustun 2-də baş verib. Həmin vaxt mətbuatda belə məlumatlar yayılmışdı ki, Quba Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Mübariz Ağayevin oğlu gecə "Atlant"da avtomatdan atəş açıb.

Doğrudur, Quba RİH başçısı o vaxt bu məlumatı təkzib edərək oğlunun həmin vaxt evdə olduğunu, Quba RİH-in sözçüsü isə gəncin xaricdə olduğunu demişdi.

Bu dolaşıq izahat da müəmmaları artırırdı. Üstəlik, həmin vaxt heç kəs məsuliyyətə cəlb olunmamışdı. Hüquq-mühafizə orqanları isə belə bir silahlı insidentin ümumiyyətlə baş vermədiyini iddia edərək xəbəri təkzib etməyə çalışmışdı.

Lakin dediyimiz kimi, ötən həftə bu davaya dair sensasion video əldə edib yaydıq. Həmin videogörüntülər silahlı insidentin icra başçısının oğlu tərəfindən törədilməsi versiyasını dərhal inkar etdi. Çünki kadrdakı silahlı şəxs başqası idi. Amma onun şəxsiyyətini o vaxt müəyyən edə bilməmişdik.

Lakin virtualaz.org saytının apardığı araşdırmalar nəticəsində həmin silahlı məmur oğlunun kimliyinə aydınlıq gəlib.

Hüquq-mühafizə orqanlarındakı mənbələrdən virtualaz.org saytına verilən məlumata görə, bu hadisə ciddi ictimai rezonans doğurduğundan Quba Rayon Prokurorluğunda fakt üzrə cinayət işi qaldırılıb. Müstəntiqlər silahlı şəxsin Ziya Əliyev adlı gənc olduğunu müəyyənləşdiriblər.

Ziya Əliyev Quba Rayon Bələdiyyəsinin sabiq sədri Elxan Əliyevin oğludur. Maraqlıdır ki, Elxan Əliyevin özü hazırda həbsdədir. O, 2012-ci ilin martında baş vermiş Quba iğtişaşlarına görə cəza çəkir.

Ziya Əliyev Binə aeroportunun polis rəisinin yaxın qohumudur.

Mənbə deyib ki, Quba Rayon Məhkəməsində bu insidentlə bağlı qaldırılmış cinayət işi üzrə məhkəmə baxışı olacaq. Ziya Əliyev barəsində həbs-qətimkan tədbirinin seçiləcəyi istisna deyil.

# YAP rəsmisi niyə təhsil tənqidçisi oldu?

# Siyavuş Novruzov təhsil naziri olmaq istəyir

## YAP rəhbərliyindən hökumətə növbəti transfer gözlənilir; deputat Siyavuş Novruzov nazir olmaq iddiasında; gələn il Mikayıl Cabbarovun vəzifəsi ilə vidalaşacağı deyilir

**İddialara görə, Yeni Azərbaycan Partiyası icra katibinin müavini, deputat Siyavuş Novruzov təhsil naziri olmaq istəyir. Onun bu iddiasını YAP rəhbərliyindəki həmkarları da dəstəkləyir. Məlumatda deyilir ki, son zamanlar təhsil naziri Mikayıl Cabbarovun YAP funksionerləri, xüsusilə də S. Novruzov tərəfindən müntəzəm tənqid olunması da bu səbəbdən baş verir.**

Ən son modern.az saytına müsahibəsində təhsil islahatlarından danışan S.Novruzov cənab nazirə bir növ əlcək atmışdı. Ötən ay Milli Məclisdə çıxışı zamanı da S.Novruzov Təhsil Nazirliyinin fəaliyyətini tənqid etmişdi. Deputat təhsildə islahatların sözdə olduğunu və reallıqda heç bir islahatın olmadığını demişdi. Sitat: **"23 ildir eşidirik ki, islahat gedir. Biri Bolonya sistemi, digəri isə kurikulum gətirir, ballar isə getdikcə aşağı düşür".**

Deputat Azərbaycanın təhsil sistemini ciddi tənqid edib: **"Bu gün Azərbaycanda müəllimin sayı Amerikadakından üç dəfə artıqdır. Onların sayına baxmaq lazımdır ki, normal maaş verilsin".**

Hətta tənqidlər o qədər sərt oldu ki, Təhsil Nazirliyi açıqlama ilə çıxış edərək deputata cavab verdi. Əlbəttə, təhsildə ciddi nöqsanlar var və bunlar media, ekspertlər, təhsil sahəsinin adamları da etiraf edirlər. Ancaq bir qayda olaraq parlamentdə hakimiyyətin müdafiəçisi kimi çıxış edən və hansısa nazirlik tənqid olunarkən özünü qabağa verib, hökuməti müdafiə edən S.Novruzovun birdən-birə sərt təhsil tənqidçisinə çevrilməsi diqqətləri cəlb etdi. Mediada bu mövzu uzun zaman müzakirə olundu. Ancaq bugünlərdə redaksiyamıza Siyavuş Novruzovu təhsil tənqidçisinə çevirən səbəb barədə məlumat daxil olub. Bizə verilən məlumata görə, son zamanlar təhsil naziri Mikayıl Cabbarovun ayrı-ayrı dairələrdən, o cümlədən YAP xəttindən "vurulmasının" xüsusi səbəbi var. Bildirilir ki, hakimiyyətdə ölkədə əsas strateji postlardan biri olan təhsil naziri postuna yeni iddiaçılar var. Məsələ burasındadır ki, iki il əvvəl bu vəzifəyə təyin olunan və sahə üzrə xeyli dərəcədə az təcrübəsi olan Mikayıl Cabbarov, gözlənildiyi kimi, nazirliyin işində, ümumilikdə təhsil sahəsində hansısa ciddi dəyişikliyə nail ola bilməyib.



Siyavuş Novruzov



Mikayıl Cabbarov

Bu səbəbdən də rəqib qruplar M.Cabbarovu son dövrlərdə hər fürsətdə "vurmağa" çalışırlar. O da bildirilir ki, gələn il təhsil naziri işdən çıxarıla bilər. Bundan əvvəlki "təcrübəyə" əsasən M.Cabbarov da hakimiyyətdaxili intriqalar və qruplararası savaşların qurbanı ola bilər. Hazırda təhsilin vəziyyəti isə naziri istənilən an işdən çıxarmaq üçün əsas verir. Sadəcə, bunun üçün münasib şəraiti yaratmaq lazımdır. Bunun üçünsə artıq mediada və siyasi təbirlərdə lazımi çıxışlar edilir.

Ancaq gələn ən maraqlı məlumat təhsil naziri postuna iddiaçıların kimliyi ilə bağlıdır. Bu iddiaçılardan biri və ən birincisi Siyavuş Novruzovun özüdür. Bizə verilən bilgiyə görə, son 2 ildə YAP rəhbərliyində təmsil olunan Əli Əhmədov, Mübariz Qurbanlıdan sonra S.Novruzov da hökumətdə mühüm post tutmağa iddiasını ortaya qoyub. Bildirilir ki, Siyavuş müəllimin iddia etdiyi post məhz təhsil naziri vəzifəsidir. Hələlik onun bu iddiasına ən yuxarı səviyyədə razılıq verilib-verilmədiyi bəlli deyil. Ancaq siyasi hakimiyyətdə ciddi dayaqları olan S.Novruzovun partiyada və mediada da çoxlu sayda dəstəkçiləri var və onlar bu işdə S.Novruzovun yanındadırlar. Gələn məlumatda o da bildirilir ki, qarşıdakı dövrdə M.Cabbarovun qaralanması istiqamətində hakimiyyətə yaxın mənbələrdə "ifşa" yazıları yer alacaq.

❑ Hüseyn DƏMİRÇİ

YENİ MÜSAVAT
N 308 (6017) 18 dekabr 2014

# Rauf Arifoğlu "Azadlıq" qəzetinə qarşı iddiasından istifadə edilməsinə yol verməyəcək

"Görsəm ki, mənim iddiamdan hətta mənə qarşı təhqirlər yazan bu qəzetin bağlanması üçün istifadə edəcəklər, iddiamı geri götürüb, qəzeti müdafiə edəcəyəm"

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu dünən parlamentdə "KİV haqqında" Qanuna edilmiş dəyişikliklərlə bağlı sosial şəbəkədə status paylaşıb. Həmin status belədir:**



"İqtidar müstəqil media nümunələrini sıradan çıxartmaq üçün daha bir addım atdı - Milli Məclisin "KİV haqqında" Qanuna etdiyi dəyişikliklərə görə barəsində iki dəfə məhkəmə qərarı olan qəzetlər, xaricdən maliyyələşən media orqanları bağlanacaq. Bütün pəncərələr bağlanır. "Feysbuk"dakı azsaylı cəbhəçi arkadaşlarımdan biri - Teymur Kərim buna cavab yazıb. Öz səhifəsində məni təhqir edən, barəmdə hər cür söyüşləri işlədən Teymur Kərim burada adam kimi status yazaraq qeyd edir: "Birini də siz məhkəməyə verirdiniz. Tamamilə İlhamla birlikdə boğmağa davam".

Zombiləşmiş bu "feysbuk" arkadaşıma bir cavab yazdım. Onu paylaşmaq istərdim: "Teymur Kərim, sən adlı birisini tanımıram və məhkəməyə də verməmişəm. Son vaxtlar məhkəməyə ancaq "Azadlıq" qəzetini vermişəm. Onu nəzərdə tutursansa, panikaya düşməyin. İddiada cəmi 1 manat cərimə məbləği var. Mən, sadəcə, üstümə atılan böhtanların təkzibini və üzrxahlığını istəyəcəyəm. "Azadlıq" qəzeti Ziya Məmmədovun oğlundan üzr istədi, indi qorxusundan ondan bir sətir də yaza bilmir. Məndənsə qorxmurlar. Çünki bilirlər: görsəm ki, mənim iddiamdan hətta mənə qarşı təhqirlər yazan bu qəzetin bağlanması üçün istifadə edəcəklər, iddiamı geri götürüb, qəzeti müdafiə edəcəyəm. Bunu dəqiq bildikləri üçün rahatdırlar. Və həm də neçənci dəfə... "

**R.Arifoğlu yazıb ki, məhkəməyə müraciəti bu dəyişikliyin qəbulundan əvvəl olub:** "İki dəfə statistikasına düşməsə, məhkəmə davam edəcək. Düzdür, hazırda bu qəzet həşir salıb, özünə "vəkillər ordusu" toplayır. Sanki üstünə tank gəlir. Heç nazirlər, məmur oğulları onları məhkəməyə verəndə bu qədər həşir salmır, vəkil toplamırdılar. Bu, qəzetin faktiki baş redaktoru Ə. Kərimlinin mənə xüsusi münasibəti ilə bağlıdır. Adam məni özünün bir saylı düşməni bəlirləyib".

**Baş redaktor yazıb ki, əgər bu cığal və həyasız adamlar kampaniya başlatsalar ki, qorxdu, çəkildi, edə bilmədi:** "O zaman 1 manatlıq isk məbləğinin arxasına 5 ədəd sıfır əlavə olunacaq, sonuna qədər də gediləcək. Onları əlimdən 30 vəkil də ala bilməz... "

❑ Musavat.com

# Mitinq Müsavatdaxili vəziyyətə necə təsir edib?

## Başqan müavini aksiyanın əsl məqsədini açıqladı

**Müsavat Partiyasının dekabrın 14-də "Siyasi məhbuslara azadlıq!" şüarı ilə keçirdiyi mitinq siyasi çevrələrdə hələ də müzakirə mövzusu olaraq qalır. Bütün istiqamətlərdə təftiş və təhlillər aparılır. Bəzi siyasətçilər və media orqanları isə hesab edir ki, Müsavatın 14 dekabr mitinqi əslində partiyanın daxilindəki ziddiyyətləri aradan qaldırmaq, partiyanı qurultaysonrası vəziyyətdən çıxarmaq məqsədi ilə keçirilib.**



Bu fikirdə olanlar onu da qeyd edirlər ki, Müsavat rəhbərliyi mitinq gedişi ilə əslində bu məqsədə xeyli dərəcədə nail ola bilib. Artıq Müsavatdaxili məsələlər xeyli dərəcədə arxa plana keçib, gündəm dəyişib. Qurultaydan sonra narazılıq edən bir sıra tanınmış müsavatçıların partiyanın maraqlarını nəzərə alıb mitinqə qatılması da Müsavatın aktivinə yazılan xal kimi qiymətləndirilir. Qeyd edilir ki, bu fakt cəmiyyətə müsavatçıların ümumi maraqlar ortada olanda şəxsi umu-küsüləri kənara qoya bildiyinin göstəricisi kimi də dəyərləndirilir. Beləliklə, iddialar irəli sürülür ki, bu mitinq təkcə siyasi məhbuslar problemi ilə bağlı deyildi. Mitinqin indiki vaxtda keçirilməsini zəruri edən amillərdən biri Müsavat Partiyasında qurultaydan sonra müşahidə olunan gərginliyi aradan qaldırmaq, gündəmi dəyişmək olub. Bəs bu mitinq müsavatdaxili proseslərə təsiri etdimi, gündəmi dəyişmək mümkün oldumu?

**Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı** bildirdi ki, Müsavat 10 dekabr Beynəlxalq İnsan Haqları Günü münasibətilə ilk dəfə deyil aksiya keçirir. Bu il həmin gün münasibətilə "Siyasi məhbuslara azadlıq!" şüarı ilə mitinq keçirilməsində başqa məqsəd olmayıb. Məqsəd ancaq Beynəlxalq İnsan Haqları Gününün Azərbaycanda da gündəmdə olması, siyasi məhbusların məsələsinin gündəmə gətirilməsi olub: "Kimsə burada Müsavat Partiyasının xeyrinə hansısa məsələlərin güdüldüyünü güman edirsə, bu, həmin şəxsin gümanıdır və reallığa əsaslanmır. Təbii olaraq hansısa proses Müsavatdaxili məsələlərə müsbət təsirini göstərə bilər, lakin bu, o demək deyil ki, mitinqin keçirilməsində məqsəd bu olub. Bu mitinq göstərdi ki, siyasi məhbuslar məsələsində Müsavat Partiyasında hər hansı fikir ayrılığı yoxdur. Müsavat bu mitinq vasitəsilə öz qarşısına qoyduğu məqsədə nail oldu. Müsavat Partiyasının mitinq keçirməsindən narahat olanlar narahatlığı kənara qoysunlar".

**Başqan müavini Müsavatdaxili gərginlik, qurultaysonrası vəziyyət mövzusunda çox danışmağa ehtiyac olmadığını da vurğuladı:** "Ümumiyyətlə, bu mövzuda çox danışmağa ehtiyac yoxdur. Çünki artıq bu məsələlər həll olunmaq üzrədir. Təşkilat yaratmaq istəyən təşkilat yaradır, Müsavatın möhkəmlənməsi, inkişafı üçün hərəkət edənlər öz işlərini görürlər. Hər hansı mitinqin nəticəsində də bu istiqamətə müsbət təsirlər olursa, buna ancaq sevinmək lazımdır".

❑ E.SEYİDAĞA

# Bir yazılıq can



Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Mən şir ürəyindən yazmışdım. Sən demə, bunların heç bir yazılıq da canı yoxmuş. Bircə tənqidi yazıya belə dözümləri çatmadı, operativ şəkildə özü də partiyanın birinci şəxsi tərəfindən cavab verdilər. Əslində bu, müxalifət, demokratik düşərgə adına iddia edənin fəlakəti, faciəsidir, ölkəni yönətmək iddiasında olan partiya sədrinin psevdonimlə cavab yazısı yazmaq məcburiyyətində qalması...**

Çünki ətrafda kimsə qalmayıb. Müavinləri, Məclis və Rəyasət Heyətinin üzvləri vardı, adlarını sadalamaqla bitən deyil, hamısı gedib. Fədakar cəbhəçilər, ömrünü bu yola fəda deyənlər vardı, tərk edib onu. Son bir neçə ilə qədər arxasında olan sadə insanlar da artıq nə baş verdiyinin fərqindədir, indi kimsə "uca xalq" nağıllarına inanmır. Artıq yazmağa, lideri müdafiə etməyə yazar da tapa bilmirlər. İllərini əvəzolunmaz liderin müdafiəsinə həsr edən həmkarlarımız da artıq bezikib fərqli ünvanlarda başlarını aşağı salıb işləri ilə məşğuldurlar. Odur ki, özü qələmə sarılıb, psevdonimlə "cavab atəşləri" açır. Elçibəyin yoxluğundan sonra İsa Qəmbərin kölgəsində sıxılırdı, başqan dəyişikliyindən sonra artıq "vahid lider" olduğuna özünü inandırmağa çalışır. Qalır bir problem: Rauf Arifoğlunu, "Yeni Müsavat"ı da "zərərsizləşdirsin", ən azı hakimiyyətə bağlasın...Prezidentlik iddiasında olanın məram-məqsədinə baxın siz Allah...

Unutmayıb gərək ki. Müxalifətə ən sarsıdıcı zərbə məhz 2005-ci ilin 26 noyabrındakı "Qələbə"də dəydi. Bu zərbəni məhz o vurdu, "gecəni burda qalacağıq, uca xalqım" deyib on minlərlə fədakar insanın əli silahlıların ayaqları altında əzilməsinə şərait yaratdığına görə. İndi günahı "Yeni Müsavat"da arayıb-axtarır, bu sətirlərin müəllifinə "niyə filankəslərdən yaza bilmirsiniz" sualını ünvanlayır.

Əvvəla, kimdən nə yazıb-yazmamaq hər bir media orqanının, yaxud jurnalistin səlahiyyətidir, bu, bir partiya tapşırığı, ya öhdəliyi deyil. İkinci də elə meydanlarda hətta müxalifətin digər kəsimlərinin iradəsini nəzərə almadan fasiləsiz aksiya qərarı verilməsinin məntiqi nəticəsidir bizim hamıdan yaza bilməməyimiz. Yüzlərlə insanın sarsılmasına, ağır xəsarət almasına, həbsə düşməsinə, ölkədən didərgin salınmasına həm də bədahətən fasiləsiz aksiya qərarı verən keçmiş lider, indiki "köşə yazarı" baiskar oldu. Həmin gün bəlkə də hakimiyyətə razılaşdırılmamış aksiyaya gedilməsi lazım idi, onun sayəsində buna nail oldu. Müxalifət indiyədək özünə gələ bilmir, mitinqə bir neçə yüz adam çıxarır. Onun sayəsində...

***

Ətrafında qalanlardan biri vaxtilə yazırdı ki, tıxacda qaldığı üçün mənim köşəmi məcburən oxuyub. Amma demə, həmkarımız nəinki köşələrimi, hətta feysbuk statuslarımı da oxuyurmuş. Öz aləmində məni aşağılamağa çalışıb. Yazıb ki, ay haray, baxın, azərbaycanlı jurnalist Elşad Paşasoy türkiyəli deputat Atilla Kayadan Kəlbəcər girovlarının azadlığı naminə hökumətin hərəkətə keçməsi üçün gərəkəni etməyi xahiş edib. Bəli, belə bir xahişi etmişəm, "Atilla bəy, mən sizdən jurnalist kimi yox, Azərbaycan vətəndaşı kimi xahiş edirəm" deyərək. Dəyərli Atilla bəy də deyib ki, indiyədək bu barədə müraciət almayıb, ancaq qarşıdakı iclaslarda Kəlbəcər girovlarının azad olunmasına dəstək vermək üçün parlament tribunasından hökumətə səslənəcək. Bunun nəyi pisdir?! Bir vətəndaş olaraq üzərimə düşəni etməyə çalışmışam. Mənimçün öncə Vətən var, sonra jurnalistika. Əgər siz Dilqəmlə Şahbazın erməni girovluğunda qalmasını da Əliyev iqtidarının suçu sayır, bundan zövq alırsınızsa, öz işinizdir. Kəlbəcər girovları ilə bağlı mənim yazdığım köşə, xəbər, rəy yazılarına, statuslarıma da baxın, özünüz də yazdığınızı ortaya qoyun, əgər varsa...

Və sonda bir xatırlatmamı da edim. Nəinki Əli Kərimlini tənqid etməyə, hətta onun "Yeni Müsavat"a qarşı qoyduğu tabunu götürməyə də şir ürəyi lazımdır. Bunu AXCP-nin çox dəyər verdiyim funksioneri ilə söhbətdən sonra bir daha dəqiqləşdirdim. Həmin funksionerdən müsahibə istəyəndə ""Yeni Müsavat"a danışsam, mənim AXCP-də qalıb-qalmamaq məsələmi partiyada müzakirəyə çıxaracaqlar" dedi.

Bax, fəlakət budur! Sonra da deyirlər niyə Əli bəyin prezidentliyini istəmirsiniz. Hələ Əli Kərimli prezident deyil, onun qadağasını cəbhədaşları, illərini bu partiyaya vermiş insanlar belə aşa bilmir. Demokratiyanız budurmu, ay şir ürəklilər?! Budursa, ürəyinizə quzu kəsək. Kəsəsi, bir yazılıq canı olanlar bir jurnalist yazısını da sinirə bilmədi...

YENİ MÜSAVAT
N 308 (6017) 18 dekabr 2014



# Vəfa Quluzadə deməmişdimi?

Xalid KAZIMLI

**Sovet dövründə hökumətlə bağlı bir ifadə vardı, tez-tez işlənirdi, deyirdilər, bu hökumət dovşanı arabayla tutur. Burada "araba" hökumətin öz məqsədinə çatmaq üçün müəyyən mexanizmlərdən bacarıqla istifadə etdiyini səciyyələndirirdi.**

Eyni fikrin bənzəri sovet təbliğatında Qərb dövlətlərinin siyasətinə aid edilirdi. Hesab olunurdu ki, Qərb dövlətləri də öz məqsədlərinə çatmaq üçün mürəkkəb fəndlərdən istifadə edirlər.

"Soyuq müharibə" dövrü idi, dünya iki qütbə - sosializm düşərgəsinə və kapitalist dünyasına bölünmüşdü.

Dünyanın harasında bir pərxaşlıq, inqilab, çevriliş, vətəndaş müharibəsi baş verirdisə, altından mütləq ya ABŞ-ın, ya da SSRİ-nin barmağı çıxırdı.

Dünyada belə qaynar nöqtələr çox idi: Vyetnam, Kamboca, Əfqanıstan, Laos, Nikaraqua, Efiopiya, Konqo və s.

Kasıb, ətalət içərisində boğulan, əsl tərəqqidən məhrum, tənəzzülə uğramış SSRİ öz boş mağazaları ilə gündən-günə çiçəklənən qüdrətli Qərb dövlətləri ilə amansız bir çəkişmədə idi. Bunun sonunun nəylə bitəcəyi böyük politoloqlara, ziyalılarla əvvəlcədən bəlli idi.

Qərbdə həmin ziyalılar, politoloqlar dövlət strukturlarında, ya da dövlətin himayə etdiyi institutlarda, analitik mərkəzlərdə çalışırdılarsa, SSRİ-dəki irəlini görən, aydın proqnozlar verməyi bacaran şəxslər ya türmədə, sürgündəydilər, ya da ölkədən qovulmuşdular.

SSRİ-nin dağılmasına görə hələ də Mixail Qorbaçovu günahlandırırlar: agentmiş, qəsdən dağıdıb, mülayim adam imiş, sərt tədbirlər görməyib, qətiyyətsiz imiş, ona görə SSRİ dağılıb və s.

Ancaq fakt budur ki, qırmızı imperiyanı işbilməzlik, səriştəsizlik, ən yaxşı idarəetmə üsulunun rəsmi və puç ideologiyaya qurban verilməsi, sürətlə silahlanmaya, hərbi avantüraya meyl edilməsi, Qərbin isə bu aqressiv dövlətə layiq olduğu üzü göstərməsi dağıtdı.

SSRİ-nin əsaslı çöküşünün özülü bu dövlətin 1979-cu ildə Əfqanıstanı işğal etməsi zamanı qoyulmuşdu. 1981-ci ildə Cənubi Koreyanın sərnişin təyyarəsinin vurulması isə Qərbi inandırmışdı ki, bu şər dövləti zəifləməsə, bəşər əhli dinclik tapmayacaq.

1979-cu ildən 10 il keçəndən sonra SSRİ çökməyə başladı, əvvəlcə sosialist düşərgəsi dağıldı, Macarıstan, Rumıniya, ADR, Bolqarıstan, Polşa, Çexoslavakiya gerçək müstəqilliklərini əldə etdilər, sonra SSRİ-yə daxil olan respublikalar Moskvanın birbaşa patronajlığından çıxdılar. SSRİ çökdü, Rusiya zəiflədi.

İndi dünyada başqa durumdur. Rusiya neft-qaz pullarından gələn milyardların hesabına yenidən dirçəlib və yenidən həm öz əvvəlki qüdrətini, əlində tutduğu ərazini, eləcə də qırmızı imperiyanın sərhədlərini bərpa etmək istəyir, həm də Qərb dövlətləri ilə ağac-ağaca durub.

Bu dövlət əvvəlcə Gürcüstana hücum etdi, sonra Krımı götürdü, Ukraynanı parçaladı, Malayziyanın sərnişin təyyarəsini vurdu və müəyyən mənada 1979-cu il situasiyası yaratdı. Rusiya yenə qüdrətli dövlətlərin sanksiyasına məruz qaldı.

Hazırda Rusiya Krımın bədəlini ödəyir. Moskvanın Krımdan qazandığı 5 rubl ortada yoxkən bu dövlət həmin avantüraya görə 100 milyard civarında vəsait itirib. Üstəlik, milli valyutası - rublu kağız parçasına çevrilmək, maliyyə sektoru iflas etmək təhdidi altındadır.

2014-cü ilin əvvəlində Rusiya xalqının böyük əksəriyyəti eyforiyada idi, Krım qurbansız ilhaq edilmişdi, "rusları sevməyən Qərb dünyası" tutarlı cavab almışdı. Bu "tarixi zəfər"ə görə prezident Putinin reytinqi göylərdə idi. "Bu yol Rusiyanı uçurma aparır" deyən ağıllı politoloqlar, ziyalılar, siyasilər pisikdirilir, təqib olunur, sutkalıq həbs cəzasına məruz qalırdılar.

İndi Rusiyanın başbilənləri düşdükləri vəziyyətə görə başlarını itirmək üzrədirlər. Ukrayna və Krım avantürasının yenidən dünya hegemonu olan dövlətə nə qədər baha başa gəldiyini anlayırlar, amma geri durmaq fikrində də deyillər.

O vaxt SSRİ rəhbərliyi də Əfqanıstan avantürasının ziyanlarını hələ 1982-83-cü illərdən hiss edirdi, amma dirəşdi, dirəşdi, Əfqanıstandakı qoşun kontingentini 1989-cu ildə çıxardı. Artıq çox gec idi.

İndi Putin də elə edəcək, qoşunlarını Krımdan və Ukraynanın şərqindən son anda çıxaracaq və çox gec olacaq.

Bir kiçik qeydin də yeridir: Bu il ölkəmizdə politoloq Vəfa Quluzadənin "Rusiya dağılacaq" proqnozuna dodaq büzənlər, lağ edənlər həddindən artıq çox idi. Onların o kişidən üzr istəməsinin zamanıdır. Artıq o deyən olub və olur.

# Müsavatın Məclis sədri bu şəxslərdən biri olacaq

## Arzu Səmədbəylinin namizədliyi olmayacağı halda, gərgin seçki mübarizəsi gözlənilir

**Dekabrın 27-də Müsavat Partiyası Məclisinin iclası keçiriləcək. Toplantıda Məclis sədri postuna və digər strukturlara seçkilər olacaq. Hazırda Müsavat Məclisində 32 yer, Divanda 4 yer (1 yeri avtomatik olaraq Məclis sədri tutacaq), Mərkəzi Nəzarət Təftiş Komissiyasında 3 yer boş qalır. Keçiriləcək seçkilər sırasında ən çox maraq kəsb edən Məclis sədri seçkisidir.**

Müsavatın Nizamnaməsinə görə, Məclis sədri partiyada vəzifəcə ikinci postdur. Başqandan sonra Məclis sədri Müsavatda ikincidir və hətta başqanın səlahiyyətlərini icra etmək hüququna da malikdir. Ona görə də Müsavatda Məclis sədri postu uğrunda həmişə ciddi mübarizə gedib. Sonuncu qurultaya qədər Məclisin sədri sabiq deputat Arzu Səmədbəyli idi. Onun qurultay öncəsi və qurultaydan sonrakı dönəmdə aktivliyi müşahidə edilmir. Belə təəssürat yaranır ki, Arzu Səmədbəyli sakit guşəyə çəkilib və Məclis sədri olmaq niyyətində deyil. Ancaq bəzi təhlilçilər hesab edir ki, Arzu bəy əslində Müsavat rəhbərliyinin ondan Məclis sədrliyinə namizədliyini verməsini təklif edəcəyini gözləyir. Partiyanın rəhbərliyi, o cümlədən İsa Qəmbərdən ciddi təklif olacağı halda A.Səmədbəylinin namizədliyini irəli sürəcəyi istisna deyil. A.Səmədbəyli namizədliyini verəcəksə, bu birmənalı şəkildə o dəməkdir ki, Məclis sədri o olacaq.



Müsavat kluarlarında isə Məclis sədri kimi digər mümkün adlar çəkilir. Başqan müavini Gülağa Aslanlının, başqanlığa sabiq namizəd Tural Abbaslının, Divan üzvü İkram İsrafilin, Divan üzvü Vəfa Cümşüdlü və başqan müavini Osman Kazımovun adı Məclis sədri olmağa şanslılar sırasında çəkilir. Onların bəzilərinin namizədliyini yaxın günlərdə irəli sürəcəyinin də gözlənildiyi bildirilir.

Qeyd edək ki, Tural Abbaslı istisna olmaqla, bu müsavatçıların hamısının başqan Arif Hacılı ilə çox isti münasibətləri var. Odur ki, başqanın onlardan hansını Məclis sədri görmək istədiyini dəqiq söyləmək çətindir. Bəzi təhlilçilər isə hesab edir ki, Arif Hacılının partiyadaxili vəziyyəti nəzərə alaraq situasiyanı sürətlə müsbətə doğru dəyişmək məqsədilə Tural Abbaslıya dəstək verməsini də gözardı etməmək gərəkdir.

**Müsavat dəhlizlərində adı Məclis sədrliyinə mümkün şəxslər sırasında çəkilənlərdən Vəfa Cümşüdlü "Yeni Müsavat"a bildirib ki, onun Məclis sədrliyinə namizədliyini vermək fikri yoxdur. Hansısa müsavatçılar bunu arzu edirlərsə, onlara təşəkkür eləyir:** "Mən ilk dəfə sizdən eşidirəm ki, adım Məclis sədrliyinə iddialı şəxs kimi çəkilir. Belə bir niyyətim yoxdur. Məni o postda görmək istəyənlərə təşəkkür edirəm. Mən namizəd olmayacağam. Divan üzvü və Məclis üzvü kimi partiyada fəaliyyətimi davam etdirəcəyəm. Məclis sədrliyinə kimlərin namizəd olacağını isə indidən dəqiq söyləmək çətindir. Bu, hər bir Məclis üzvünün öz hüququdur. Kimin seçilməsini isə partiyanın rəhbərliyi yox, Məclis üzvlərinin səsverməsi müəyyənləşdirəcək. Şəxsən mənim kimi Məclis sədri görmək istəməyimə gəldikdə, bu məsələdə mənim özümün meyarlarım var. Həmin meyarlara cavab verən şəxsə səs verəcəyəm. Hələ Məclisin günü yenicə təyin olunub və namizədliyini verən yoxdur".

**Gülağa Aslanlı isə Müsavatın Məclis sədrliyinə namizəd olub-olmamaq barədə hələ ki qərar verməkdiyini deyib:** "Namizədliyimi irəli sürəcəyimi nə inkar edirəm, nə də təsdiq".

❑ Etibar SEYİDAĞA

# Bələdiyyə seçkilərində exit-poll keçirəcək təşkilata etimad yoxdur

## Müxalifət "ELS"i hakimiyyətin təşkilatı sayır; Elman Fəttah: "Bu qurum cəmiyyətdə və siyasi qüvvələr arasında hətta MSK-dan da etimadsız təşkilat kimi qəbul olunur"

**23 dekabr bələdiyyə seçkilərində "ELS" Müstəqil Araşdırmalar Mərkəzi exit-poll keçirəcək. Bu barədə Mərkəzi Seçki Komissiyası qərar verib. MSK sədrinin müavini Natiq Məmmədov bildirib ki, "ELS" Müstəqil Araşdırmalar Mərkəzi 8 seçki və referendumda exit-poll keçirib və müvafiq təcrübəli kadrlara, texniki avadanlıqlara malikdir. O deyib ki, mərkəz bələdiyyə seçkilərində 400 seçki məntəqəsində exit-poll keçirmək istəyir. "ELS" Müstəqil Araşdırmalar Mərkəzi gün ərzində 4 dəfə sorğunun nəticələrini açıqlayacaq, ən son nəticə isə saat 20:00-da açıqlanacaq.**

**MSK üzvü Akif Qurbanov** qeyd edib ki, "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin maddi-texniki bazasının nəyə əsaslandığı, exit-poll keçirmək üçün nə qədər vəsait ayırdığı məlum deyil. N. Məmmədov isə ilk növbədə insan resurslarına baxmağın lazım olduğunu söyləyib: "Bu baxımdan "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin problemi yoxdur. Vəsait ayrılması ilə bağlı MSK-nın təlimatında tələb əksini tapmayıb. Sorğunun keçirilməsi üçün normativ baza olmalıdır. "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin belə bazası var".




Qeyd edək ki, sözügedən təşkilatın indiyə qədərki seçkilərdə keçirdiyi sorğuların nəticələri seçki komissiyalarının elan etdiyi nəticələrlə eyni olub. Bu da seçkidə iştirak edən bütün tərəfləri qane etməyib. Bəs bələdiyyə seçkilərində də exit-pollu "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin keçirəcəyinə müxalifət partiyalarının münasibəti necədir? Bu təşkilatın keçirdiyi exit-polla etimad varmı?

**Müsavat Partiyasının bələdiyyə seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasındakı səlahiyyətli nümayəndəsi, başqan müavini Elman Fəttah bildirdi ki, "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin obyektiv exit-poll keçirəcəyinə zərrə qədər də olsun inam yoxdur:** "Çünki bu təşkilat neçə illərdir seçki komissiyalarının saxtakarlıqlarını ört-basdır etməklə məşğul olub. Açıq-aşkar seçki pozuntuları olan seçki məntəqələrində belə, seçkilərin nəticələrinin düzgün olduğunu elan edən bir təşkilata etimadın olması mümkün deyil. "ELS" təşkilatı hakimiyyətin tapşırıqlarını icra eləyən təşkilatdır. MSK bələdiyyə seçkilərini beynəlxalq müşahidə sistemindən kənarda saxlamağa nail olub. "ELS" isə əslində hakimiyyətin özünün təşkilatıdır. Bu təşkilatın məqsədinin seçkilərin nəticələrinin ədalətli olduğunu elan etmək olduğunu bilməyən yoxdur. Ölkədə heç bir seçki aktivliyinin olmadığını, əhalinin seçkiyə gəlməyəcəyini dolayısı ilə MSK sədrinin də dilə gətirdiyi halda heç bir etimad olmayan bir təşkilatın əli ilə guya exit-poll keçirib hansısa böyük nəticələrin olduğunu elan edəcəklər. Bu isə absurddur. "ELS" cəmiyyətdə və siyasi qüvvələr arasında hətta MSK-dan da etimadsız təşkilat kimi qəbul olunur. Ona görə də belə bir təşkilatın keçirdiyi exit-polla bizim etimad göstərməyimiz mümkünsüzdür".

**AMIP katibi Elşən Mustafayev təmsil olunduğu partiyanın bələdiyyə seçkilərində namizədləri ilə iştirak etdiyini və seçki prosesini yaxından izləyəcəklərini bildirdi:** "Sadəcə, 2010 parlament seçkilərindən fərqli olaraq bu dəfə namizədlərimiz seçkiyə partiya siyahısı ilə deyil, fərdi qaydada, amma partiyalılıqlarını göstərməklə gediblər. Bunun da səbəbi onda idi ki, vaxt azlığına və namizədlərin sayına görə sənədlərin hazırlanmasında çətinlik ola bilərdi.

Biz hesab edirik ki, bütün səviyyəli seçkilərdə iştirak siyasi partiyaların işi və borcudur. Seçkidə iştirak etməklə onun nəticələrinə qiymət vermək olar. Əks halda, qiymət verərkən qarşı tərəf haqlı olaraq bildirə bilər ki, qatılmadığın bir prosesə qiymət vermək obyektiv deyil. Exit-polla gəlincə, mən bilənı bu, bələdiyyə seçkiləri tarixində yeganə haldır. Mənim bu prosesi aparacaq "ELS"lə bağlı o qədər məlumatım yoxdur. Eyni zamanda hələ dəqiq bilinmir ki, sorğu hansı kritreyalarla olacaq və nəticə necə müəyyən olunacaq. Amma onu bildirə bilərəm ki bələdiyyə seçkilərində exit-poll aparmaq fiziki cəhətdən çox çətin prosesdir. Bunun da müxtəlif səbəbləri var. Birincisi, ölkə üzrə namizədlərin sayı çoxdur, 1 yerə 3 nəfər namizəddirsə, bu, təxminən 50 minə yaxın edir. İkincisi, sorğu soruşulan seçici bir nəfərə yox, 19 nəfərə qədər namizədə səs verə bilər ki, onların da çoxu bitərəf və ya fərdi qaydada namizədliyini verən namizədlər olacaq ki, partiyalıqları bilinməyəcək . Buna baxmayaraq, exit-pollun sorğusuna qiyməti seçkidən sonra verməyi daha məqbul hesab edirəm. Çünki mənim özüm üçün də çox maraqlıdır ki, bu prosesi hansı şəkildə və hansı üsullarla aparacaqlar".

❑ E.SEYİDAĞA

**"Ayna - Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlının, eləcə də rəhbəri olduğu nəşrlərin taleyi onlar bağlanan vaxtdan böyük sual işarəsinə çevrildi. Verdiyi müsahibələrə, açıqlamalara baxmayaraq, hələ də "niyə", "nə üçün" suallarının cavabı tapılmayıb.**

**"Yeni Müsavat" bu dəfə də E.Şıxlını söhbətə çəkdi. De fakto fəaliyyəti olmayan, amma adı hələ də oxucuların yaddaşında olan "Ayna - Zerkalo"nun redaksiyasında... Yenə qəzetdən, mətbuatdan və olub-keçənlərin səbəblərindən danışdıq...**



# "Qəzetin fəaliyyətini davam etdirsəydim daha bir neçə müxbir tutulacaqdı"

## **Elçin Şıxlı:** "Heç kimin yedəyində getmək də istəməmişəm"; "Raufun həbs olunması son damla rolunu oynadı"

*- Elçin bəy, bu gün sizin iş gününüzdür?*

- İş günüm deyil. Sadəcə olaraq, özüm özümə iş tapıram.

*- Bu necə mümkün olur?*

- Qəzet dayanıbsa belə, müəyyən texniki işlər var. Vergi ödənməsi, hesabatlar və sair kimi işlər var ki, onları nəzarətdə saxlamaq lazımdır.

*- Hər gün gəlirsiz?*

- Lazım olanda gəlirəm. İki-üç otaq saxlamışam. Bəlkə buranı da bağladım. Çünki saxlamağa maliyyə ehtiyatı yoxdur. İşıq pulu, məişət xərcləri var. Mənbə olmayanda bunu saxlamaq olmur.

*- Neçə vaxtdır ki, oxucular özlərini "Ayna"da görə bilmirlər? Ya da bir az poetik desək, aynasız qalıblar?*

- Qəzet kimi iyun ayının, sayt kimi sentyabrın əvvəlindən.

*- Bir qəzet üçün yetərincə böyük bir fasilədir. 2015 üçün də belə davam edəcək, fikrinizcə?*

- Yəqin ki, davam edəcək. Çünki qəzetin və saytın fəaliyyətinin dayanmasının mövcud səbəbləri və şərtləri dəyişməyib.

*- Qəzetlərin bağlanmasından sonra verdiyiniz müsahibələrdə bu sonucla bağlı heç vaxt dəqiq bir söz deməmisiz. Hər zaman səbəblərlə bağlı dolayı açıqlamalarınız olub. Niyə bağlandı qəzetlər?*

- Əsl səbəb müstəqil şəkildə işləməyin qeyri-mümkünlüyüdür. Bunu da dəfələrlə demişəm ki, bu işə biznes kimi baxmışam. Biznes kimi də gəlir gətirməyən, heç olmasa özü özünü saxlaya bilməyən bir biznes qala bilməzdi.

*- Amma maraqlıdır ki, Azərbaycan mətbuatında gəlir, biznes, reklam sözləri deyiləndə yada düşən nəşrlərin siyahısına "Ayna", "Zerkalo" liderlik edib. Amma indi məlum olur ki, bu qəzetlər də elə dediyimiz səbəblərdən bağlanıb. Mənzərə paradoksal görünmürmü?*

- Paradoksal görünmür. Sadəcə olaraq, qəzetə və sayta baxmaq kifayət edir ki, o söylədiyiniz reklam bolluğunun olmadığının şahidi olasız. Reklam var idi, artıq yoxdur. Onun səbəbləri isə bir az başqa şeydir.

*- Bura Azərbaycandır və hamımız bilirik ki, hansısa media orqanına gələn reklam axınının qabağı adətən dayandırılır. Sizdə proses necə cərəyan etdi?*

- Həm subyektiv cəhətlər var, həm obyektiv. Qəzetlərin dolanmasının iki mənbəyi var. Biri satışdır ki, onun da ölkədə olmamasını hamımız bilirik. İkinci mənbə isə reklamdır. Satış olmayan yerdə heç bir ağıllı adam reklam verməyəcək. Bunu ən elementar şəkildə belə izah etmək olar.

*- Yaxşı, hər iki mənbəyin eyni zamanda sıfırlanmasının iyunun əvvəlində baş verməsini təsadüf hesab etmək olarmı?*

- Təsadüf məsələsindən irəli gəlmir. Bu vəziyyət mənim keçən ilin bu vaxtlarından aydın idi. Sadəcə olaraq, müəyyən zamanlarda nəyəsə ümid edir, nəyisə nəzərdə tuturdum. Amma ümid etdiyim, nəzərdə tutduğum məqamlar alınmadı, bu öz yerində. Həm də bilirsiz ki, Rauf Mirqədirovun həbsi ilə bağlı xeyli mürəkkəb məqamlar da yarandı. Hamısı bir-birinə qarışdı, toparlandı. Təsəvvür edin ki, dağdan dığırlana-dığırlana qar topası gəlirdi və aşağı gəldikcə o qar topası böyüdü. Böyüdü və nəhayət çiynimdə daşıya bilməyəcəyim bir həddə gəlib çatdı. Bununla da hər şey bitdi. Bunun iyunda baş verməsinə gəlincə, düşünürdüm ki, 24 il ömrümü bu işə həsr eləmişəm. Ağırdır, çətindir, kollektivlə birgə neçə illərdir çalışırıq. Bir az yenə nəsə düşünürdüm. Amma bir şey çıxmadı. Son iki-üç ayı da həftəliyə keçdik. Onun da xeyri olmadı. Çünki şərtlər dəyişməmişdi...

*- Qəzetlərin bağlanma şərtlərini çox poetik şəkildə ifadə etdiz: qar topasının dağın başından yuvarlanaraq, böyüyərək düşməsi... Maraqlıdır, sizin ifadənizlə desək, ən kiçik qar topası nə vaxt yarandı? Rauf Mirqədirov həbs olunanda, siz Ziyalılar Forumunda təmsil olunmağa başlayanda, ya...?*

- Ziyalılar Forumunda bir elə fəal təmsilçiliyim də yox idi. Ümumiyyətlə, birinci və sonuncu dəfə 1985-ci ildə Kommunist Partiyasının üzvü olmuşam. Düzdü, onda bəxtim gətirdi ki, partiyaya üzv olan kimi partiya da, hökumət də dağıldı, ölkə də. (gülür) Ona görə mən bir az zarafatla deyirəm ki, hər hansı partiyaya girməyə çəkinirəm. Çünki o partiya dağılacaq. Düzdü, bu, bir zarafatdı, amma hər zarafatda bir həqiqət payı da var. Mən istənilən halda bir az fərdiyyətçiliyi xoşlayan adamam. Öz fikrim, dünyagörüşüm var. Təbii ki, hamının fikri üst-üstə düşə bilməz. Düşsə, deməli, nəsə düz işləmir. O nöqteyi-nəzərdən heç bir qrupda liderliyə can atmamışam. Amma eyni zamanda heç kimin yedəyində getmək də istəməmişəm. Ola bilər, nəsə üz-üzdən utanar. Bir dəfə, iki dəfə... amma üçüncü dəfə artıq öz istəyimə qarşı gedə bilmirəm. O Ziyalılar Forumunda da müəyyən şeylər var idi... Mənim çox hörmət etdiyim, istədiyim dostlar var ki, onlarla hər zaman dərdləşirik, danışırıq ki, bu da elə forum kimi bir şeydir. Rauf Mirqədirova qədər isə o dediyimiz topa böyümüşdü. Raufun həbs olunması son damla rolunu oynadı. Çox məqamlar var...

*- Belə başa düşürəm ki, çox şeyi açıqlamaq da istəmirsiz... Ən azı reaksiyalarınızdan belə anlamaq olur.*

- Bilirsiz, mən əsassız danışmaq istəmirəm.

*- Həm də bəlkə şanslar da var... Gələcəkdə qəzetlərin öz fəaliyyətini bərpa edəcəyi ilə bağlı. O şansları qapatmamaq adına ehtiyatlı davranmaq olar, düzdür?*

- Ehtiyatlı davranmaq normal şeydir. İnsan özünü qorumaq instinktini itirirsə, deməli, orqanizmdə nəsə problemlər var. Bu, tək fərdlərə yox, ümumən qurumlara, partiyalara, dövlətlərə də aiddir. Orada hisslərə qapılmamaq məqamı da olmalıdır. Düzdür, o hislər olmayanda həyat bir az maraqsız - ağ, qara, boz olur. Amma müəyyən məqam gəlir ki, o hisləri arxa plana qoymalısan, hesablamalar getməlidir. O hesablamalar heç də o demək deyil ki, sən alçaqlıq edəsən, kiminsə başını əzə-əzə gedəsən. Mənimçün bu, qəbul olunası bir şey deyil. Düşündüm ki, bir az ayaq saxlayıb, olub keçənləri, gördüyüm işləri sanballamaq lazımdır. Sanballayıram, hələ ki ortalıqda bir şey yoxdur. Bayaqdan deyirəm ki, media və jurnalistika biznesdir. Amma spesifik xüsusiyyətləri olan biznesdir. Onun ideoloji tutarı və tutumu çox güclüdür. Elə bir məqam yaranır ki, siyasi tutum iqtisadi tutumu və peşə tutumunu üstələməyə başlayır. Siyasət tutumu peşə tutumundan ön plana keçməyə başlayanda öz peşənlə, öz işinlə normal məşğul ola bilmirsən. Bir çox hallarda səndən asılı olmayan səbəblərdir. Siyasiləşməyi sən istəmirsən, siyasi konyunktura elə bir şəkil alır ki, vəziyyət çıxılmaz olur. Götürək ümumən medianı. Söhbət Azərbaycanın sıx təmasda, ünsiyyətdə, təsiri altında olduğu dövlətlərdən gedir: Rusiya və Türkiyə. Baxın görün orda media nə vəziyyətdədir. Rusiyada media yoxdur, Türkiyədə də Ərdoğan məhv edir. Son iki-üç günün hadisələrini də bilirik. Özü də həbsə atılan adamlar 3-4 il əvvəl min faiz Ərdoğana işləyirdi.



**"Hiss edirəm ki, sağ əlim yazmaq üçün gicişir. Amma sol əlimlə onu vururam ki, etmə..."**

*- "Siyasi konyunktura elə bir vəziyyət alır ki, vəziyyət çıxılmaz olur" dediz. Amma Azərbaycanda ortada olmaq da çox çətindir. Bu, media adına da belədir. Bəs sizdən nə tələb olunurdu siyasi konyunktura adına? Hansı tərəfdə dayanmaq, nə yazmaq, nə yazmamaq?*

- Söhbət tələb etməkdən getmirdi. Siyasi konyunktura seçilməməyi, ümumi sıradan çıxmamağı tələb edir. Özünüz də söylədiz ki, ya o tərəfdən, ya bu tərəfdən olmalısan. Mən də bayaq dedim ki, hansısa tərəfdə olmağa qorxuram, çünki o tərəf yüz faiz dağılacaq. Zarafatdı, qeyri-zarafatdı, amma mən buna inanıram. (gülür)

*- (zarafatla) Hökumət tərəfə keçin də, nolar...*

- Yazıq deyillərmi? (gülür). O vaxt partiyaya keçəndə deyirdim ki, mən Qorbaçovun yenidənqurmasının qurbanına çevrildim, amma əslində, deyəsən, onlar mənim qurbanıma çevrildilər. Səbəblərini söylədim, istəyirəm, dünyaya öz baxışlarım qalsın...

*- Qəzetiniz bağlanandan sonra verdiyiniz müsahibələrdən birində demişdiz ki, "hardasa səhv eləmişəm, ona görə bunlar baş verib". Kontekstdən çıxarmıram dediklərinizi?*

- Yox, təxminən belə idi ki, "özümü düz aparmamışam".

*- Aha, kimin gözündə?*

- Bu, bir az başqa məsələdir. Hər halda, müxalifətin gözündə deyil. Çünki Azərbaycanda müxalifət yoxdur, müxalifətin gücü yoxdur. Bizdə də söhbət siyasətdən, hökumətin gözündə özünü düz aparıb aparmamaqdan getmir. Sadəcə olaraq, fərdi baxışlar, tendensiyalar, bir qrupun fərdi görüşləri var. Ola bilər ki, bu gün həmin qrupun fərdi görüşləri, sözü keçir, sabah başqasınınkı keçsin. Amma ümumi tendensiya və imic məsələsi də var. Bir çoxları hətta zarafatla deyirlər ki, Elçinə nə qədər deyirsən de, yenə öz bildiyini edəcək. Mən qəsdən etmirəm, bu, belə alınır. Amma bir şeyi dəqiq deyə bilərəm ki, nəyəsə söz verirəmsə, onu edirəm.

*- Maraqlıdır, indi özünüzü media sektorundan tamamən getmiş, kobud səsləndiyim üçün üzr istəyirəm, amma silinmiş hiss edirsiz, yoxsa hələ də burdasız?*

- Silinmiş yox, amma bir çox şeylər artıq məni maraqlandırmır. Sözün düzü, indi heç düşünmək belə istəmirəm. Çünki özümə söz vermişəm, heç nə yazmayım. Hər hansı bədii ədəbiyyat oxuyanda, nəsə bir şey haqda düşünəndə hiss edirəm ki, sağ əlim yazmaq üçün gicişir. Amma sol əlimlə onu vururam ki, etmə... Yəni gedəndə getmək lazımdır.

*- Qısa müddət bundan öncə dərs deyirdiz...*

- Bir aylıq jurnalistika kursu idi, bir həftə öncə bitirdim. Gürcüstanda, Tiflisdə neçə illərdir GİPA deyilən Amerika Jurnalistika Məktəbi var. Hər il hər üç Cənubi Qafqaz ölkəsindən orda oxumağa uşaqlar seçilir. Bizdən gedən uşaqlara ingilis dilində bir aylıq hazırlıq mərhələsi keçilirdi. Media etikası və media qanunu haqda dərsi mən keçdim.

*- Sizin dərs keçdiyinizi eşidəndə ilk ağlıma gələn o oldu ki, yəqin Elçin Şıxlı bu dərsi bir il əvvəl versəydi, tələbələrinə başqa şey öyrədərdi. İndi isə onlara media "qanunlar"ı haqda tamam başqa dərslər vermək istəyər. Düz düşündüm?*

- Söhbət konkret mövzudan gedir. Tələbələr soruşublar, mən də təcrübəmdən çıxış edib nələrsə danışmışam. Özü də ordakı tələbələrin əksəriyyəti jurnalistlərdir, səviyyələrini artırmağa çalışırlar. Media mühitimizin ən zəif yerlərindən biri dil bilməməkdir. İngilis dilini bilənlərin sayı kifayət qədər deyil, əvvəl rus dilini bilənlər çox idi, indi azalıb.

*- 2015-ci il üçün qəzet adına ümidiniz var?*

- Sözün düzü, yoxdur. Amma bir ümidim və arzum odur ki, Rauf Mirqədirov azadlığa buraxılsın. Bir şeyi də söyləyim. Bayaq dediyim özünü qorumaq instinkti. Nədənsə mənə elə gəlir ki, qəzetin fəaliyyətini davam etdirsəydim və o qırımla da - biz tərəfdə elə deyirlər - getsəydim, daha bir neçə müxbir tutulacaqdı. Belə qənaətə gəldim ki, camaatı təhlükəyə atmayım və..

*- .. Siz də ola bilərdiz o tutulanların siyahısında?*

- Bilmirəm. Demək istəmirəm. Amma hər halda, bu qırımla, bu hadisələr haqda yazılanda, şərhlər veriləndə təbii ki, problemlər olacaqdı. Ona görə dayandım. Çünki artıq hadisələrin gedişatında siyasi tutum çoxalırdı. Hələ heç bir jurnalisti "vətənə xəyanət" maddəsi ilə tutmamışdılar. Özü də ermənilərə casusluq etdiyinə görə. Hətta bəzi hörmət etdiyim adamlar deyirlər ki, deyə bilmərəm ki, Rauf haqda ittihamlar doğrudur, ya yox... Doğrusu, ağır gəlir. Raufu mən gözəl tanıyıram. Səhv etmək olar. Düşünürəm ki, heç səhv də eləməyib. Sadəcə olaraq, siyasi konyunkturanın qurbanı oldu. Gün-gündən də daha dəqiq anlayırıq ki, ətrafa Rusiyanın təsiri güclüdür. Dünyada nəhənglərin savaşı gedir. Və bu savaşın qəlpələri altında qalan müəyyən qurbanlar var. Jurnalistlərin, ictimai fəalların həbsi də o mübarizənin təzahürüdür.

❑ **Sevinc TELMANQIZI**
**Fotolar Məhəmməd TÜRKMƏNindir**



# Balıqçı və balıq nağılı

Zamin HACI
zaminhaci@gmail.com

**Açığı, mənim indiki məktəbli uşaqlara yazığım gəlir. Örnək üçün, biz ekskursiya üçün Azıx mağarasına, muzeyə-filana gedirdik, indiki məktəblilər isə "Park Bulvar"a gedirlər. Ciddi sözümdür. Bu yaxında bir məktəbin yanında pul yığılıb marşrutdan çıxarılan avtobus gördüm. Avtobusun içərisi balaca-balaca uşaqlarla dolu idi. Uşağın birindən soruşdum ki, səfər haradır. Balaca oğlan sevinə-sevinə, bir az da ədа ilə "Bulvara gedirik" söylədi. Məktəblinin bulvarda nə öyrənəcəyini, hansı həyat dərsi alacağını düşündüm. Bəlkə belə yaxşıdır?**

Söz düşmüşkən, həmin məktəbin yolunun üstündə qəssab dükanı da var. Hər gün ordan yüzlərlə uşaq keçir, qəssab isə dana, qoyun, hinduşka kəsir. Çox vaxt kəsilən heyvanların başı, ayaqları səkiyə - məktəblilərin gözü qabağına düzülür. Bir ara istədim etirazımı mədəni şəkildə qəssaba çatdırım, sonra mətbuatımızın vəziyyəti, türmədəki jurnalistlər yadıma düşdü, vaz keçdim. Qəssab istəsə mənim də başımı kəsib səkiyə qoya bilər, hökumət jurnalistlərə qarşı belə mühit yaradıb, nə etiraz edəsiyəm?

Həm də fikirləşdim uşaqlar elə qəssab dükanının kəlləpaça eksponatlarını, əyani dərs vəsaitlərini görsələr yaxşıdır. Təkcə zoologiya, biologiya dərslərinə hazırlaşmaq üçün yox. Bəlkə o dərslər lazım da deyil. Səkiyə düzülən dana kəllələri bizim uşaqlara ictimai münasibətləri, hansı ölkədə yaşayacaqlarını öyrətmək üçün lazımdır.

Onlara çox mənasız dərslər keçirlər. Biz uşaq olanda da elə fərli dərsliklər yox idi, ancaq hər halda həyat, reallıq baxımından indikindən çox yaxşı idi. Örnək üçün, uşaqlığımda dostluğun necə önəmli olduğunu Lev Tolstoyun "İki yoldaş" təmsilindən öyrənmişdim. Yəqin yadınızda olar, iki dost meşədə ayı ilə qarşılaşırdı, biri qaçıb ağaca çıxırdı, dostunu darda qoyurdu. Əməyin, zəhmətin önəmini başqa bir əhvalatdan - deyəsən nağıl idi - öyrənmişdik. O əhvalatda kişi oğlunun zəhmətlə qazandığı pulları alova atırdı.

Sözü bu qədər uzaqdan gətirməyimin mənası var, əslində dərsliklər, uşaqlara necə tərbiyə vermək mövzusunda ağsaqqallıq eləməyə qəti həvəsim yoxdur. Hətta bu təlim-tərbiyə məsələsində uşaqları bir qədər özbaşına buraxmaq tərəfdarıyam *(Bu ayrı mövzudur, başqa vaxt yazaram)*. Sadəcə, son vaxtlar Rusiyaya qoyulan embarqolar, neftin ucuzlaşması mənə uşaq vaxtı məktəbdə öyrəndiyim bir gözəl əsəri xatırlatdı. Bu, əslində tək Rusiyaya aid deyil, elə Azərbaycana da aiddir. Yapistlər nə qədər "neftin qiyməti düşsə də hiss etməyəcəyik" desələr inanmayın. Əvvəla, hiss edirlər - ÜDM artımı bu il cəmi 2 faiz olub. Hardadır o ikirəqəmli artım faizləri? Ey gidi dünya... ÜDM reklamları də beləcə çezdi getdi. Gələn ilki büdcədə neftin qiyməti 90 dollardan hesablanıb, indiki neft qiyməti isə bundan 30 dollar azdır. Düşə-düşə də gedir. İstidir deyə büdcə zəhmətkeşləri yaranı hiss eləmir. Çox yox, 6 ay qiymət belə qalsın, TV-də Mətanət Əliverdiyevaya qoşulub şpaqat açan xeyli zəhmətkeş olacaq.

Hə, nəhayət əsər... Bu, Puşkinin bir rus nağılı əsasında yazdığı "Balıqçı və balıq nağılı" şeiridir. Qısa süjeti belədir ki, balıqçı qarısı ilə daxmada yaşayır, bunların sınıq bir təknəsi də var. Bir gün qoca qızıl balıq tutur, balıq danışır, deyir məndən nə istəsən verərəm, amma qocanın balığa yazığı gəlir, suya buraxır. Gəlib bunu qarısına danışır. Qarı acgöz olur, deyir başın xarabdır, heç olmazsa təzə təknə istəyərdin. Qoca gedib balığı təzədən tutur, təknə istəyir. Bu minvalla, qızıl balıq qarının çoxlu arzularını yerinə yetirir, hətta qarı axırda çariçə - bir növ, birinci ledi olur. Amma göz doymur. Gəlin ardını Mirmehdi Seyidzadənin gözəl tərcüməsində oxuyaq:

***"Qoca baş endirib söylədi ki: "Sən,***
***Ey balıqlar şahı, mənə rəhm elə,***
***Neyləyim, qudurub qarı, qəzəblə***
***Deyir, istəmirəm padşahlıq etmək,***
***Dənizlər sultanı olum mən gərək.***
***Dəryalar içində qəsrim qurulsun,***
***Qızıl balıq gərək nökərim olsun".***
***Səs-səmir çıxmadı qızıl balıqdan,***
***Çırpıb quyruğunu yox oldu haman.***
***Sahildə dayanıb qoca bir müddət***
***Gözlədi, gözlədi, getdi nəhayət.***
***Gördü köhnə qazma önündə yenə***
***Oturmuş qarısı, yanında təknə".***

Bax, neft dənizdən çıxan həmin qızıl balıq idi. Ola bilər "çərxi-fələk tərsinə dövran edəndə" heç o sınıq təknə də tapılmasın.



# "Putinin heç bir çıxış yolu yoxdur"

## Vəfa Quluzadə: "Rusiyanın çökməsi Qarabağ məsələsinin həlli ilə nəticələnəcək"

**"Mən Rusiyanın çökəcəyini hələ 1995-ci ildə Vaşinqtonda Yaxın Şərq İnstitutunda çıxış edərkən demişdim. O zaman mən dövlət müşaviri kimi bu çıxışı eləmişdim və Rusiyada geniş rezonans doğurmuşdu. Sonradan "Pravda", "Komsomolskaya pravda" qəzetləri həmin çıxışdan bəhs edib haqqımda yazılar yazdılar".**

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** bu fikirləri Rusiyada yaşanan böhranlı vəziyyəti və bu böhranın Azərbaycana mənfi-müsbət təsirlərinin olub-olmayacağını şərh edərkən bildirdi. Tanınmış analitik hesab edir ki, Putin rejimi bu vəziyyətdən çıxmayacaq: "Avropa artıq hakimiyyətə gələndə Hitler kimi bir diktatora güzəşt etməyin nəticəsinin nə olduğunu bilir. O səbəbə görə sözsüz ki, Putin Rusiyasına güzəşt olmayacaq. Bir çox rusperəstlər düşünür ki, bəlkə Putin nüvə müharibəsi edəcək. Çünki Rusiya prezidenti çox əzələ oynadır, gah rus təyyarələri NATO sərhədlərində, Baltik dənizinin üzərində uçuşlar keçirir, gah Kaliningrada qoşun yığır. Müharibəni o vaxt edərlər ki, heç olmasa qələbəyə bir faiz ümid olar. Ancaq bu gün Rusiyanın qələbəyə ümidi sıfıra bərabərdir. İkincisi də Putin tək deyil, ətrafındakılar onun vəziyyətində deyillər. Ona görə ki, Ukraynada baş verənlərə və bir çox başqa məsələlərə cavabdeh Putindir. Bu mənada Putinin heç bir çıxış yolu yoxdur, amma onun ətrafındakıların çıxış yolu var. Onlar çıxış yolu üzərində işləyə bilərlər. Amma bu böhranda artıq yenə də sübut olunub ki, imperiya vəziyyətində Rusiya inkişaf edə bilməz. Çünki inkişaf üçün azadlıq, qanunun aliliyi lazımdır. Bütün bunlar isə imperiya ilə bir araya sığmır. Ona görə də elə bil ki, Rusiya sehrli bir halqadadır. Azadlığa doğru gedəndə imperiya uçur, imperiyanı möhkəmləndirəndə azadlıq olmur, inkişaf uçuruma gedir".

**V.Quluzadə deyir ki, dünya nəhənglərindən olan Rusiyanın çökməsinə yalnız Azərbaycanla əlaqəli məsələ kimi baxmaq olmaz:** "Rusiyanın çökməsi rus imperiyasının bütün bizim regiondakı siyasətinin çökməsi kimi baxmaq lazımdır. Rusiya çökəndə MDB çökəcək, Putinin can atdığı Gömrük İttifaqı, Avrasiya Birliyi çökəcək. Bunların heç biri ittifaq deyil. Heç Rusiyanın özü də federativ dövlət deyil. Federasiya könüllü birləşmədir, amma Rusiyanın tərkibindəki xalqlar ilhaqa məruz qalıb, dünya da buna göz yumur. Putin Rusiyanın ərazi bütövlüyü haqqında danışıb. İmperiyanın ərazi bütövlüyü ola bilməz, Rusiya unitar dövlət deyil".

**Bəs Rusiyanın çökməsi Azərbaycanı şimaldan daim təhdid edən təhlükədən xilas edə bilərmi, yoxsa qonşuluğumuzda baş verənlər ölkəmiz üçün daha ciddi kataklizmlər vəd edir? V.Quluzadə heç də narahat deyil. Hesab edir ki, Rusiyanın çökməsindən ətraf ölkələrin zərər görəcəyi barədə danışmaq yersizdir:** "Zülmkarın çökməsinin Azərbaycana heç bir mənfi təsiri ola bilməz. Rusiyanın çökməsi Qarabağ məsələsinin həlli və Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələnəcək. İkincisi, Rusiya müharibə nəticəsində çökdürülmür, yaxud nüvə silahı ilə vurub Rusiyanı yandırmayacaqlar ki. Rusiyadakı mütərəqqi qüvvələr görəndə ki, artıq bu rejim rus xalqına bədbəxtçilikdən başqa heç nə vermir, o halda rejim dəyişə bilər. Əgər liberal rejim dəyişsə, onda sözsüz ki, həm rus xalqına, həm də region xalqlarına böyük xeyri dəyə bilər. Gəlin etiraf edək ki, bu dəqiqə hamımız Rusiyadan qorxuruq. Gürcüstan qorxur, Rusiya onun içərisində baza yaradıb. Azərbaycan da əsir, 20 faiz torpağımız işğal altındadır, hər gün də müharibə təhlükəsi və bu müharibədə Rusiyanın iştirakı məsələsi var. Qazaxıstan əsir, çünki Gömrük İttifaqının üzvüdür. Putinin doktrinası budur ki, harada rus var, gərək Rusiya onu müdafiə etsin. Deməli, Putin Qazaxıstanı da işğal edə bilər".

**Bəs Qərb Yeltsinin zamanında olduğu kimi, son anda Rusiyanı çökməkdən xilas edə bilərmi? V.Quluzadə:** "Yox, bu, mümkün deyil. O ölkə ki, daim Qərbi nüvə müharibəsi ilə hədələyir, Qərb niyə ona güzəşt etsin? Əgər Putin siyasətini dəyişmək istəsə, Krımla birgə Ukraynadan çıxmaq istəsə, onda gərək Putin Qərbin bütün istəklərini yerinə yetirsin. Ancaq o zaman Putin rejimi olmayacaq, gərək buna başqaları imza atsın".



Vəfa Quluzadə

Qeyd edək ki, ötən gün rus rublunun ucuzlaşmasında rekord həddi müşahidə olunub. Rusiya fond birjalarında 1 avro 101 rubla, dollar isə 80 rubla çatıb. Rublun məzənnəsinin kəskin düşməsi, Azərbaycanla iqtisadi-siyasi əlaqələri olan bir dövlətdə baş verənlərin ölkəmizə, eləcə də manatın məzənnəsinə təsiri hansı səviyyədə ola bilər? Belə vəziyyətdə Rusiyadakı soydaşlarımızın Azərbaycana axını realdırmı?

**İqtisadçı-ekspert Oqtay Haqverdiyev bu barədə modern.az-a deyib ki, Rusiyada yaşanan proses Azərbaycan manatının məzənnəsinin aşağı düşməsi üçün zəmin yarada bilməz. O, Azərbaycanın özünəməxsus pul-kredit siyasəti olduğunu və bunun Mərkəzi Bank tərəfindən çox sərt şəkildə tənzimləndiyini diqqətə çatdırıb:** "Mərkəzi Bank manatın məzənnəsini stabil saxlamaq üçün ildə təxminən 1- 1,5 milyard intervensiya edir. Artıq 5-6 ildir ki, manatın dollara nisbətdə məzənnəsi 78 qəpikdə qalır. Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov öz çıxışında 2015-ci ildə manatın bu məzənnədə qalacağını açıqlayıb. Hesab edirəm ki, rus rublunun düşməsində bizim üçün narahatlıq doğuracaq məqam yoxdur". **O.Haqverdiyev əminliklə Rusiyadan Azərbaycana kütləvi qayıdışın olmayacağını bildirib:** "Bəziləri əlbəttə qayıda bilər. Amma orada özünə lövbər salan insanlar vəziyyətə uyğunlaşacaqlar. Əvvəl necə işləyirdilərsə, elə də davam edəcəklər. Çünki bilirlər ki, qayıtdıqları zaman onsuz da burda iş yeri tapmayacaqlar. Ən yaxşı halda Moskvadan ətraf yerlərə köçəcəklərini düşünürəm. Bəzən yazılır ki, Rusiyada 2 milyon azərbaycanlı var. Bu dəqiq rəqəm deyil. Rusiyanın rəsmi məlumatlarında Azərbaycan vətəndaşlığı olan şəxslərin sayı cəmi 650 mindir. Onlar ölkəyə gəlib-qayıdırlar və bu rəqəm dəyişməz qalır. 1,5 milyondan çox isə Rusiya vətəndaşı olan azərbaycanlılar var. Bunu qarışdırmaq olmaz. Çünki onların içərisində məmuru var, əksəriyyəti iş adamlarıdır, ailəsi ilə birlikdə orda yaşayır və Azərbaycana pul göndərir".

**İqtisadçı rublun məzənnəsinin düşməsi ilə Rusiyadan Azərbaycana daxil olan gəlirlərin azalacağını da istisna etməyib:** "Rusiya dövlətinin rəsmi məlumatına görə, Azərbaycan vətəndaşları ölkəmizə il ərzində təxminən 1 milyard 500 milyon dollar göndərir. Çox güman ki, bu rəqəm kəskin azalacaq. Yəni vəziyyət bunu diktə edir. Amma bir məsələ də var. Onsuz da Rusiyadan göndərilən vəsait rublla deyil, dollara çevrilərək göndərilirdi. Orada ticarətlə məşğul olan insan dollarla rubl arasındakı fərqi onsuz da bilir və onu tənzimləyəcək. Yəni əvvəl 100 dollar göndərirdisə, yenə həmin məbləği göndərəcək. İnsanlar prosesə uyğun olaraq hər şeyi tənzimləyirlər ki, itirməsinlər".

❑ **Cavid TURAN**

## Rusiya “aclar inqilabı”na sürüklənir...

# Azərbaycan qorxulu rus qışı ilə üz-üzə

### Soydaşlarımız təkcə iqtisadi böhranın deyil, bütün bəlalarını “qaralar”da görən radikal rus toplumunun qurbanına çevrilə bilər; Rusiyadan vətənə dönənlərin sayı günbəgün artır; işsizlər ordusunun sayının kəskin artması gözlənilir; neftin qiyməti daha da ucuzlaşarsa...



**Ukrayna torpaqlarını işğal edən Rusiyaya Qərbin tətbiq etdiyi sanksiyalar ölkə iqtisadiyyatına öz öldürücü təsirini göstərməkdədir. Belə görünür ki, Qərb Rusiyanın yaxasından əl çəkmək fikrində deyil və yeni sanksiyalar da gündəmdir. Qonşumuz olan şimal ölkədə baş verənlərin Azərbaycana siyasi-iqtisadi təsiri əlbəttə ki, nəzərəçarpacaq dərəcədə hiss olunacaq.**

Artıq Kreml rəsmiləri Qərbin Putini devirmək planı barədə açıq bəyanatlar səsləndirməkdədirlər. Rusiyanın “aclar inqilabı”na sürüklənməsi isə bu ölkədə məskunlaşmış miqrantlara iki qat zərbədir.

Çünki mümkün xaosda bu ölkədə məskunlaşan miqrantların qəzəbli kütlənin hədəfinə çevriləcəyi ehtimalı böyükdür. Radikal rus cəmiyyəti illərdir ki, bütün bəlalarını təkcə gəlib-keçmiş hakimiyyətlərində deyil, həm də “qaralar” adlandırdıqları gəlmələrdə görür. Bu isə o deməkdir ki, həmin statusda olan adamlar təkcə iqtisadi böhranın deyil, həm də qəzəbli kütlənin qurbanına çevrilə bilərlər. Putinin əl-ayağını yığdığı “dazbaşlar” miqrantlara divan tutmaq üçün çoxdan münasib məqam gözləyirlər və bu təhlükə riski getdikcə artır.

Rusiya iqtisadiyyatını bürüməkdə olan böhranla əlaqədar azərbaycanlıların da kütləvi şəkildə bu ölkədən Vətənə qayıdacağı barədə məlumatlar son günlər daha da artıb. Hökumət neçə vaxtdır yayılan bu məlumatları təəccüblü susqunluqla qarşılayır.

**Parlamentin son iclasında deputat Fərəc Quliyev Rusiyada yaşayan azərbaycanlıların ölkəyə qayıtma prosesinin başladığını bildirib. Deputat xeyli işsiz kütlənin Azərbaycanda çətinlik yaratmaması üçün təcili tədbirlər görməyə çağırıb:** “Rusiyadakı vəziyyətlə bağlı soydaşlarımızın xeyli hissəsi Azərbaycana qayıdır. Rusiyadan qayıdan azərbaycanlıların az-çox pulu var. Onlara dövlətin dəstək çıxması və faydalı çalışdırılması üçün qənaət olunmuş vəsait hesabına bir fond yaratmaq mümkündür”.

**Ölkəyə qayıdan soydaşlarımızın qeydiyyata alınması və digər sənəd işlərinin müvafiq strukturlara həvalə ediləcəyini deyən deputat onlara dövlət dəstəyinin vacib olduğunu bildirib:** “Soydaşlarımız əyalətlərdə iş qurmaqla bağlı layihələrini təklif olunan fonda təqdim edərək həm öz vəsaitlərini qoymaqla və bu fonddan da müəyyən dəstək almaqla iş qursunlar”.

Qərbin Rusiyaya tətbiq etdiyi iqtisadi sanksiyalar gücləndikcə, rubl sürətlə dəyərini itirdikcə, əmək miqrantı kimi Rusiyada məskunlaşan və kiçik bizneslə məşğul olan azərbaycanlıların ölkəyə dönüşü güclənib. Məlumatlara görə, xüsusilə Rusiya ilə daha sıx əlaqələri olan şimal bölgəsindən ölkəyə qayıdanların sayı daha çoxdur. Bu qayıdış Azərbaycanın narahat bölgələrindən olan şimal rayonlarında əlavə gərginliyə səbəb ola bilər. Cənub bölgəsindən də Rusiyaya gedənlərin sayında kəskin azalma müşahidə olunduğu halda, şimaldan vətənə dönənlərin sayı çoxalıb. Cənub bölgəmizdəki əməkdaşımızın dediyinə görə, bu cür hal sonuncu dəfə ötən il Orxan Zeynalovun Rusiya vətəndaşı İqor Şerbakovu qətlə yetirəndən sonra skinhedlərin qeyri-ruslara qarşı hücumları zamanı müşahidə edilib.

**Son həftələr Rusiyaya gedən üç qatar marşrutu ləğv olunub, eyni proses təyyarə ilə uçuşlarda da başlayıb. Bakı Hava Limanındakı mənbə “Yeni Müsavat”a təsdiq edib ki, Rusiyaya uçuşlar artıq rentabelli sayılmır:** “Getmək istəyənlər əhəmiyyətli dərəcədə azalıb. Əvəzində isə Rusiyadan Bakıya uçmaq istəyənlərin sayı günbəgün artır. Tələbatın artdığını görən AZAL rəhbərliyi qiymətləri bahalaşdırmağa qərar verib” deyə, mənbə bildirib.

Bu xəbəri rəsmi mənbələr də təsdiqləyir. Dövlət Statistika Komitəsinin məlumatına görə, son aylar hava nəqliyyatında sərnişindaşıma tariflərində MDB ölkələri üzrə 12,5 faiz, bütövlükdə nəqliyyat sektorunda sərnişindaşıma tarifləri isə 3,2 faiz bahalaşıb.

Söhbət Rusiya iqtisadiyyatının çökməsi ucbatından Azərbaycana dönməyə məcbur olacaq ən azı 1 milyondan çox olan vətəndaşımızdan gedir. Bu gün ən azı 1 milyon Azərbaycan vətəndaşı Rusiyada işləməklə, özlərini və burada qalan ailələrini dolandırır. Ailə üzvlərinin sayını da buraya əlavə etsək, ən azı 3,5 milyon nəfər Rusiyadan gələn gəlir hesabına dolanır. Rusiyada iqtisadi çöküş bu cür sürətlə davam edəcəksə, ölkəni işsizlik bürüyəcək və iş yerini itirən miqrantlar ölkəni tərk etməyə məcbur olacaqlar. Özü də ilk növbədə iş yerlərini miqrantlar itirəcək. Onların ən azı 60-70 faizi vətənə dönməyə məcbur olacaq və Azərbaycana böyük köç başlanacaq. Qısa müddətdə qazancını itirmiş bu qədər şəxsin ölkəyə qayıtması təkcə miqrantların deyil, onların ailələrinin də ciddi problemlərlə üzləşməsi deməkdir.

“Azərbaycan hökuməti bu köçü qəbul etməyə hazırdırmı”, sualına isə müsbət cavab vermək çətindir. Çünki hökumətin bəyanatlarına baxmayaraq, azərbaycanlıların kütləvi şəkildə geri qayıdacağı təqdirdə vəziyyətin necə olacağı aydındır.

Heç kimə sirr deyil ki, rəsmi statistikada gizlədilsə də, ölkədə iş yerləri məhdud, biznes mühiti isə monopoliyadadır. Azərbaycanda biznes mühiti o qədər monopoliyalaşıb ki, vətənə qayıdıb burada iş qurmaq istəyənləri nə gözlədiyi məlumdur.

Onu da nəzərə almaq lazımdır ki, Rusiyada işləyən azərbaycanlı miqrantların böyük bir qismi ali savadlı deyil və hər hansı peşə ixtisası yoxdur. Bu səbəbdən də Azərbaycana qayıtdıqdan sonra onların işlə təmin olunmasında müəyyən çətinliklər yarana bilər. Azərbaycanda işsizlər ordusunun sayının birdən-birə kəskin artması isə ölkədə sosial gərginliyi partlayış həddinə gətirə bilər. Üstəlik, Rusiyadan Azərbaycan vətəndaşlarının geri qayıtması şübhəsiz ki, ölkədə onsuz da ağır olan kriminal duruma da təsir edəcək.

Azərbaycanlılarla bağlı vəziyyəti qəlizləşdirən daha bir mühüm amil də var ki, bu da Ukraynadakı vəziyyətdir.

Məlumdur ki, Ukrayna Rusiyadan sonra azərbaycanlıların ən çox məskunlaşdığı keçmiş SSRİ respublikalarından biridir. Ukraynada yaşayan azərbaycanlılar Rusiya ilə müqayisədə bu ölkəyə daha tez uyğunlaşa bilirlər. Amma bu ölkədəki müharibə vəziyyəti Rusiyadan çıxmaq istəyənlərə alternativ kimi Ukraynanı seçməsinə imkan vermir. Hazırda Ukrayna iqtisadiyyatı çox çətin günlərini yaşayır, orada da qrivin (pul vahidi) kəskin şəkildə alıcılıq qabiliyyətini itirib. Bu da bilavasitə orada əmək fəaliyyəti ilə məşğul olan miqrantların gəlirlərinin azalmasına səbəb olur. Əgər Ukrayna hökuməti də tez bir zamanda sabitliyə nail ola bilməzsə, bu da bilavasitə azərbaycanlıların müəyyən qisminin Azərbaycana qayıdışına səbəb olacaq.

Dünya bazarında neftin qiymətinin düşməsi azərbaycanlıların mümkün böyük köçünün yarada biləcəyi problemləri daha da artıra bilər. Dekabrın 17-də London birjasında Azərbaycan nefti 0,48 dollar ucuzlaşaraq 61,91 dollar təşkil edib.

**Görünən budur ki, təkcə Rusiyanı deyil, Azərbaycanı da çətin qış imtahanı gözləyir...**

❑ **Xəbər xidməti**

---

# Söz haqqında elegiya...



**Hüseynbala SƏLİMOV**

**İcra strukturlarının təzyiqləri sanki azmış kimi ilin sonunda Milli Məclis də KİV-ləri “unutmadı”. Qanuna edilən düzəlişlərə görə bir ildə məhkəmənin qərarı ilə iki dəfə məsuliyyətə cəlb olunan və bir də xarici hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilən KİV-lərin fəaliyyətinə xitam veriləcək.**

Bu minvalla Azərbaycanda KİV-lər, xüsusən də yazılı mətbuat özünün son baharını yaşayır. Elə bu yazıda da məhz yazılı mətbuatın problemləri üzərində dayanmaq niyyətindəyik.

Ona görə ki, yerli elektron informasiya vasitələrinin üzərində dayanmağa dəyməz-onlar müstəqilliyin və sərbəstliyin dadını dada bilmədilər. Bəlkə də bu, belə bir detaldan çox aydın görünür ki, özünün rabitə peyki olan ölkənin öz telekanallarının sayı heç 10-a çatmır...

Məsələ bundadır ki, yazılı mətbuatda azacıq da olsa azadlığın qalması da onun nəticəsidir ki, onun formalaşma dövrü əsasən 1993-cü ildən əvvələ təsadüf edir. Düzdür, 93-cü ildən sonra yaranan və formalaşan yazılı mətbuat orqanları da olub. Amma indi alnımızı nə qədər qırışdırsaq da onları xatırlaya və burada qeyd edə bilmirik.

Əslində bu daha çox ümumi tendensiyadır: çox şey 1993-cü ilə qədər yaranmışdı və bu ildən sonra cəmiyyət ən yaxşı halda o vaxta qədər mövcud olanları qoruyub saxlamağa çalışmaqla məşğul olub.

İndi də yazılı mətbuatın son qalıqlarını qorumaq üçün bütün güclər səfərbər olub-hamı çalışır ki, bu ölkədə heç olmasa, qəzetlər yaşasın...

Çox maraqlıdır. Xarici süjetlərdə arabir qəzet köşkləri gözümüzə dəyir. Bir də görürsən ki, yerli telekanallar xarici ölkələrin necə bir ağır durum yaşadığı haqda süjet verir. Bu süjetlərə yalnız görmədiyimiz yerləri heç olmasa, televiziyadan görmək üçün baxır və vizual olaraq oradakı vəziyyəti hiss etmək istəyirik.

Siyasət də elə şeydir ki, etiraz edən insanları göstərəndə çaşıb qəzet köşklərini də göstərirlər. Baxıb görürsən ki, “çürüməkdə olan” böyük Avropa ölkələrində əməlli-başlı mətbuat var...

Yox, demirik ki, qanuna edilən düzəliş mətbuat üçün böyük təhlükədir. Ən azı ona görə ki, ölkədə mətbuat demək olar ki, yoxdur. Yayım texnologiyalarının başına min bir oyun açılandan sonra köşklər qəzetləri elə yerlərə soxurlar ki, adam çaş-baş qalır: əcəba, bu ölkədə heç mətbuat qalıbmı?

Amma rusların belə bir misalı var ki, xoşbəxtlik olmazdı, di gəl, bədbəxtlik kömək etdi. İndi qəzetlərin daha çox internet versiyası oxunur. Hətta xüsusilə qeyd etmək yerinə düşər ki, internet versiyaları qəzetlərin özündən qat-qat çox oxunur. Deməli, yazılı mətbuata hələ maraq qalıb...

İnternet versiyalarının uğurlarını qəsdən qabartmaq istəmirik, çünki bu, hakimiyyətin diqqətini cəlb edə bilər. Azərbaycanda isə ən böyük təhlükə bu hakimiyyətin nəzər-diqqətinə düşməkdir. Dərhal hansısa bir qadağa fikirləşəcəklər. Qadağalar, yasaqlar sarıdan fantaziyalarına söz ola bilməz və bu sarıdan onlarla bağlı irad yoxdur: əsl hakimiyyətdir...

Metrodan ticarət köşkləri yığışmalı idi. Amma qəzet və kitab köşkləri bu ölkənin onsuz da bəsitləşmiş həyatına bir yaraşıq verirdi. Onları niyə yığışdırdılar? Bu gün elə bil bizə də nəsə olub: elə sadəlövh suallar veririk ki...

Qəzetlərin kağız variantının da üstünlükləri olur. Məsələn, metroda olanda və yaxud da kimisə, nəyisə gözləyəndə qəzetlərə baxırsan ki, vaxt keçsin. İndi bu, xeyli məhdudlaşdırılıb. Metro stansiyalarının bəzisinin yanında qəzet satılan köşklər var, bəzisinin isə yoxdur. Ən başlıcası isə bu köşklərdən qəzet alanda adama elə baxırlar ki, sanki sən təyyarə istəyirsən...

Ən əsası isə bilirsiniz nədir? Yazılı mətbuatı özünü oxutdurmaq üçün əl atdığı əksər imkanlardan məhrum ediblər. Qəzet də az qala gözə girməlidir ki, adam onu oxumağa məcbur olsun. Burada pis heç nə yoxdur. Digər istehlak malları kimi qəzetlər də son nəticədə satılmaq üçündür...

Amma indiki köşklərin işi qəzet satmaq deyil. Onlar öz siqaretlərini, kolalarını satır və bununla da işlərini bitmiş hesab edirlər...

Türkiyə telekanallarında qəzetlərin icmalı verilir. Bu da oxucuda maraq yaradır. Azərbaycanda hər səhər bir neçə saat davam edən səhər proqramları var. Orada aparıcılar saatlarla əsnəyə-əsnəyə mənasız şeylər danışırlar. Amma bu vaxtın kiçik bir hissəsini mətbuata həsr etmək olardı. Olardı, di gəl, olmur, çünki “yuxarı”ların səhərini təlx etməkdən qorxurlar. Özü də yaman qorxurlar...

YENİ MÜSAVAT
N 308 (6017) 18 dekabr 2014









# Nəqliyyat nazirinin adı hallanan işdə şok korrupsiya faktları

## Göyçaylı sahibkar Ziya Məmmədovun qohumu olan icra başçısına, bələdiyyə sədrinə və digər qurumlara ödədiyi xəracın məbləğini açıqladı

**Göyçayda sahibkarlara qan uddurulması ilə bağlı yeni faktlar üzə çıxıb. Bu özbaşınalıqlarda isə yenə də rayona kuratorluq edən nəqliyyat naziri Ziya Məmmədov, onun yaxın qohumu olan icra başçısı Mənsur Məmmədov və nazirin adamlarının adı hallanır.**

Belə ki, nəqliyyat şefinə yaxın şəxslərlə əlaqəsi olan "Modern-Servis" və "Ruslan-Montaj-Demontaj" adlı firmaların rəhbəri Çingiz Səlimov Göyçayda tikdirdiyi, milyonlarla dəyəri olan istirahət mərkəzinə görə dövlət orqanlarına külli miqdarda rüşvət ödəyib.

Rayonun Potu-Hüngütlü bələdiyyəsi ərazisində köhnə restoranı alaraq özəlləşdirən Ç.Səlimov nazirə yaxın adamlara "hörmət" etməklə "Göygöl" istirahət mərkəzi salıb. Ç.Səlimov layihəni həyata keçirmək üçün Göyçay Rayon İcra Hakimiyyətinə, Potu-Hüngütlü bələdiyyəsinə, Dövlət Reyestr Xidmətinin regional şöbəsinə, Göyçay İşıq İdarəsinə, ekologiya idarəsinə, vergilər idarəsinə böyük məbləğdə xərac verib.

### "Ziya Məmmədov prezidentimizdir"

Hətta Potu bələdiyyəsinə verilən "haqq"dan icra başçısına çatmadığı üçün istirahət mərkəzinin inşası bir müddət dayandırılıb. Sonra icra başçısı "haqqı"nı alıb və tikintiyə icazə verilib. Sahibkar Göyçay Vergilər İdarəsinə də rüşvət ödəyib. İdarənin rəisi Polad müəllim nazirin qardaşının qudasıdır. "Göygöl" restoranının tikintisini həyata keçirən, bu işlərə öz hesabından vəsait ayıran Ç.Səlimovun keçmiş şəriki, yaxın qohumu Ağalar Səlimovun sözlərinə görə, obyektin tikintisi üçün aidiyyəti qurumlara pulu o özü verib.

**Onun sözlərinə görə, Ç.Səlimovun göstərişi ilə dövlət orqanlarına tələb olunan "hesab"ı çatdırıb, yalnız bundan sonra tikintiyə sərəncam verilib. A.Səlimov "Yeni Müsavat"a bildirdi ki, "Göygöl"ü Ç.Səlimova təhvil verənə qədər o, əraziyə gəlməyib:** "Çingiz mənə zəng edib tapşırıqlar verirdi və iş gedirdi. Göyçayın Potu - Hüngütlü bələdiyyə ərazisində köhnə restoran var idi. Mən həmin yerin sahibi olan Teyyub adlı şəxsə 65 min dollar ödəyib, yeri özəlləşdirmişəm. Tikinti düz yolun kənarında aparılıb. Buna bütün orqanlar göz yumdu. Halbuki onlar həmin yoldan gündə azı bir dəfə keçirlər. Sonra bu ərazini Çingiz Səlimovun adına rəsmiləşdirmişəm. Bu gün də bütün sənədlər onun adınadır, amma mənim imzamla rəsmiləşdirilib. Mən tikinti aparmaq üçün









10 min manat Hüngütlü bələdiyyəsinə vermişəm. Ondan sonra 20 min manat Göyçay Rayon İcra Hakimiyyətinə vermişəm.

Əvvəlcə, rayonun baş arxitektoru İntiqam Süleymanov 50 min manat istəyirdi. Onun dəfələrlə qəbulunda olmuşdum. Ancaq deyirdi ki, bu işin xərci 50 min manatdır. Mən də ona söylədim ki, prezidentə müraciət edəcəm. İntiqam Süleymanov mənə dedi ki, bir halda, bu iş pulsuz həll oluna bilər; gərək nazir Ziya Məmmədov tapşırsın. Deyirdi ki, buranın sahibi, "bizim prezidentimiz" Ziya Məmmədovdur, ondan başqa kim nə tapşırıq versə, bizi maraqlandırmır. Bildirirdi ki, biz ancaq ona tabeyik, hara yazsan xeyri yoxdur. Ancaq bir gün icra hakimiyyətindən hüquq şöbəsinin müdiri Ruslan Əlizadə mənə zəng etdi ki, gətir pulu ver, bu işə mən baxıram, həll edəcəm. Biz görüşüb danışdıq, 50 min yox, 20 min manata razılaşdıq. Ruslana bu pulun 10 min manatını restoranın həyətində verdim. Sonra daha 5 min manatını yenə restoranın həyətində ödədim, 5 min da başqa vaxt rayonda verdim. Ruslan Əlizadə də deyirdi ki, bizim rəhbərimiz Ziya Məmmədovdur. Bu pulu verəndən sonra bizə işləməyə imkan verdilər. Mən deyilən məbləği ödəyəndə bilməmişəm ki, bu, rəsmi ya qeyri-rəsmi ödənişdir. Mənə Çingiz Səlimov tapşırırdı ki, pulu bu yerə çatdır, vəssalam".

**A.Səlimovun sözlərinə görə, dövlət qurumlarına "haqq" çatandan sonra ərazidə min kvadratlıq şadlıq evinin bünövrəsi qoyulub, 250 kvadratlıq banket zalı tikilib, istirahət mərkəzi və göl yaradılıb:** "Gölün ərazisinin sənədini həll etmək üçün də ayrıca Potu bələdiyyəsinin üzvü Nizami Vəliyevlə 1500 manata danışdıq. İşin yekununda dedi ki, bu işi təzə tarixə yaza bilməyəcəm. Mənə 1500 manatı qaytarıb, sonra 3 min istədilər. Mən də deyilən pulu verdim, gölün sənədini köhnə tarixə yazdılar, yəni 2007-ci ilin sənədini verdilər".

**Müsahibimiz bu məqamda onu da qeyd edir ki, ərazidə içməli su arxı da var. Bu arxdan Göyçayın 7 kəndi içməli və suvarma suyu kimi istifadə edir:** "Bu dəqiqə restoranın həyətindəki arx rayonun Mallı-Şıxlı, Xəlitli, Yeni Arx, Müsgürlü, Qəbələ-Müsgürlü kəndlərinin suvarma və içməli su mənbəyidir. Həmin arxda qaz, ördək saxlanır, restoranın kanalizasiyası arxa axıdılır, kənd sakinlərinin də bütün bunlardan xəbəri yoxdur"...

**A.Səlimov bildirir ki, restoran bir il fəaliyyət göstərdikdən sonra onu aldadıblar. Ç.Səlimov ona qarşı dələduzluq edərək 50 min manatını mənimsəyib. Obyekt sahibinin şəriki qeyd edir ki, restoranın tikilməsi üçün öz cibindən 50 min manat xərc çəkib:** "Mən hələ cibimdən xərclədiyim pulu deyirəm. Bizim aramızda centlmen sazişi olmuşdu, şifahi şəkildə razılaşmışdıq. Çünki yaxın qohum idi, yaxşı tanıyırdım, ona inanırdım. Dedi ki, gəl işləyək, bir yerdə iş quraq. Çingiz Səlimov özü Bakıda olurdu, firmaların işi ilə məşğul olurdu. Ona görə də Göyçayda bu restoranın həm sənəd işlərinin həllini, həm tikintisini mənə tapşırmışdı. Mən də ona inanırdım, bu gün də sənədlər onun adınadı, imza isə mənimdir. Və bu işlərə görə 50 min manat xərcim çıxıb. Mənə tikinti materiallarının pulunu göndərirdi. Ancaq elə olurdu, tapşırırdı ki, burdan özüm pul verim, sonra göndərəcək. Məsələn, 25 min manat lazımdır, 15 min manat göndərirdi, qalan 10 min özüm düzəldirdim, deyirdi ki, sonra həll edərik. Bax, belə-belə Çingizin mənə 50 min manat borcu yaranıb".

### "50 min manatlıq dələduzluq edilib"

**A.Səlimov bildirir ki, ona olan borc qaytarılmayıb:** "Restoranın tikintisi 2010-cu ildə başlanıb. 2012-ci ildə restoranın bir hissəsini açmışıq, gölü hazırlamışıq. Tikinti işlərinə restoranın gəlirindən pul da qoyulub. 2013-cü ilin sentyabrında isə Çingizlə yollarımız ayrıldı. Mənə deyirdi ki, obyektə bax, nəzarət elə, pulunu verəcəm, 50 min manatını da ödəyəcəm. Bizim ayrılmağımıza səbəb bu oldu ki, işlərimizdə mənə pay çatmadı. Ona görə Çingizə dedim ki, 4 il işləmişəm, restoran hazırdır, halal xoşun olsun, amma tikintiyə qoyduğum pulu geri qaytar. Lakin 50 min manatı qaytarmaq bir ay uzandı, 2013-cü il dekabrın 20-nə kimi məsələ çəkdi və axırda dedi ki, borcunu verməyəcəm.

Konkret belə dedi ki, pulu qaytarmıram, hara istəyirsən şikayət elə. Amma mən bu günə kimi yaxın adam olduğu üçün nə məhkəməyə, nə polisə müraciət etmişəm. Sənədlər hamısı bu gün də məndədir. Çünki bütün sənədlərin həllində özüm iştirak etmişəm. Çingiz Səlimov 50 min manatımı mənimsəyib və mənə qarşı dələduzluq edib".

Şikayətçi korrupsiya faktları ilə bağlı prezidentə, milli təhlükəsizlik nazirinə, daxili işlər nazirinə, baş prokurora müraciət edəcəyini deyir. Bütün bu qanunsuzluqlarla bağlı A.Səlimov hüquq müdafiəçisi Vidadi İsgəndərliyə müraciət edib. Hüquq müdafiəçisi məsələ ilə bağlı qəzetimizə geniş məlumat verəcəyini açıqladı.

Göyçay Rayon İcra Hakimiyyətindən isə ittihamları cavablandırmaq istəmədilər.

**Qeyd:** *Yazıda adları keçən şəxslərin də mövqeyini dərc etməyə hazırıq.*

**❑ "Yeni Müsavat"ın Reportyor Qrupu**
**Göyçay**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 308 (6017) 18 dekabr 2014



# Həmsədrlərin intensivləşən dialoq çağırışları: nəticə olacaqmı?

## Fransa Azərbaycan və Ermənistan arasında danışıqları bərpa etməyə çalışır; beynəlxalq qurumlar dialoqun baş tutmamasına səbəb olan tərəfin Ermənistan olduğunu bəyan etməyə tələsmir, bu isə müharibəni qaçılmaz edir...

**Oktyabrın sonunda Azərbaycan, Fransa və Ermənistan prezidentlərinin Qarabağ məsələsinə dair görüşü ərəfəsində və ondan sonrakı ilk günlərdə danışıqlar prosesinin nəticə verə bilən istiqamətə yön alacağı ehtimal edilirdi. Ekspertlər bildirirdilər ki, avqust ayında cəbhədə baş verən insidentdən sonra həmsədr ölkələr münaqişənin həlli üçün danışıqlar prosesinin yeni mərhələsinin uğurlu bir sonluğa çatmasına çalışırlar. Bu cəhdlərin hansısa bir effekti olacağı proqnozlaşdırılırdı.**

Lakin noyabr, dekabr aylarında Ermənistan tərəfinin tutduğu mürtəce mövqe prosesin nəticə verəcəyinə dair ümidləri heçə endirir. Beləliklə də Azərbaycanın müharibə yolu ilə torpaqlarını işğaldan azad etməsi variantı daha da aktuallaşır. Bu isə beynəlxalq qurumları narahat etməyə bilməz, çünki bölgədə müharibə başlaması onların maraqlarına uyğun deyil.

"Fransa ATƏT-in Minsk Qrupunun həmsədri olaraq hazırda Azərbaycan və Ermənistan arasındakı dialoqu bərpa etməyə çalışır".

APA-nın xəbərinə görə, bunu **Fransanın Azərbaycandakı səfiri Paskal Mönye** deyib. "Təəssüf ki, bir müddət əvvəl Azərbaycan və Ermənistan arasında yenidən gərginlik başladı və bu gərginlik hələ də davam edir. Biz sülhün tərəfdarıyıq. Çünki sülh çiçəklənməyə səbəb olur. Neftin sürətlə ucuzlaşması, rublun kursunun düşməsi də göstərir ki, gərginlik iqtisadiyyatın sabit inkişafına xidmət etmir. Bu bölgədə də sülh və sabitliyin bərqərar olmasının tərəfdarıyıq", - deyə səfir bildirib.

Diplomat qeyd edib ki, Azərbaycan və Ermənistan arasında dialoqun bərpa olunması sülh prosesini daha da sürətləndirəcək.

"ATƏT-in Minsk Qrupu həmsədrlərinin mətbuatla çox şeyi bölüşməməsi onların işləmədiyi anlamına gəlmir". Səfir Paskal Mönye həmsədrlərin bölgəyə səfərləri və bir sıra məsələlərlə bağlı məlumatların mətbuatdan gizli saxlanmasının səbəbləri barədə suala cavab verərkən belə deyib.

**O qeyd edib ki, həmsədrlər çox ciddi şəkildə işləyir, münaqişə tərəfləri arasında dialoqun bərpası, danışıqların sürətlənməsi üçün əllərindən gələni əsirgəmirlər:** "Mən danışıqlar prosesini izləyirəm və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün yeniliklərdən xəbərim olur. Lakin mən sülh danışıqları ilə bağlı vəzifə daşımıram. Həmsədrlərin planlarından, niyə bu qədər ehtiyatlı davranmalarından məlumatsızam. Bölgəyə növbəti səfərin də nə vaxt təşkil olunacağını bilmirəm. Sadəcə deyə bilərəm ki, həmsədrlər arasında əlaqə çox yaxşı səviyyədədir, Azərbaycan və Ermənistan hökumətləri ilə davamlı təmasdadırlar. Münaqişənin həllində ünsiyyətin qorunması böyük əhəmiyyət daşıyır. Əgər bu ünsiyyəti pozsaq, onda indiyə qədər nail olduğumuz bütün irəliləyişləri itirərik. Lakin mən əminəm ki, həmsədrlərin və tərəflərin səyləri nəticəsində Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında dialoqun və davamlı təmasın bərpasında nail olacağıq".

**Fransalı həmsədr Pyer Andryunun mətbuatda az-az görünməsi barədə sualı da şərh edən səfir qeyd edib ki, P. Andryu danışıqlarda yetərincə fəaldır, lakin o, adətən birgə bəyanatların qəbulunda iştirak edir:** "Mən onu həvəsləndirərəm ki, mətbuatla daha sıx işləsin".

Bu arada Avropa İttifaqı yaranmış durumda dialoq üçün faydalı ola biləcək bir bəyanatla çıxış edib. Aİ azərbaycanlı girovlarla bağlı çağırış edib.

Avropa İttifaqının Xarici Fəaliyyət Xidməti erməni silahlı qüvvələrinin girov götürdüyü azərbaycanlılar Dilqəm Əsgərov və Şahbaz Quliyevin qanunsuz mühakiməsi ilə bağlı mövqeyini açıqlayıb.

"AzərTAc" "Eunews.az" portalına istinadla xəbər verir ki, Avropa İttifaqı Ermənistanı beynəlxalq humanitar normalardan irəli gələn öhdəliklərə əməl etməyə və Beynəlxalq Qızıl Xaç Cəmiyyəti ilə əməkdaşlığa çağırıb. Xarici Fəaliyyət Xidməti bunun Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin 2010-cu il Həştərxan bəyanatına, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin 2014-cü ilin dekabrında Bazeldə etdiyi çağırışa uyğun olacağını xatırladıb.

Şahbaz Quliyev və Dilqəm Əsgərov bu ilin iyul ayında Kəlbəcərdə girov götürülüb. Onlarla birgə Kəlbəcərə gedən Həsən Həsənov isə öldürülüb. Onun meyiti qarşı tərəfdən oktyabrın 2-də alınıb, oktyabrın 4-ü Bakıda dəfn edilib.

İşğalçı Dağlıq Qarabağ rejimi hər üç şəxsin Kəlbəcərə diversiya məqsədi ilə keçdiyini, 2 ermənini öldürdüyünü, 1-ni yaraladığını və başqa cinayətlər törətdiyini iddia edir.

Azərbaycanlı girovlar Dağlıq Qarabağda, Xankəndində qurulmuş qondarma məhkəmədə mühakimə olunur.

***

Azərbaycan isə haqlı olaraq indiki situasiyada öz hərbi qüdrətini artırmağa üstünlük verir.

Azərbaycan Müdafiə Sənayesi Nazirliyi (MSN) gələn il "ağıllı" aviasiya bombalarının



seriyalı istehsalına başlayacaq. APA TV-nin məlumatına görə, bunu müdafiə sənayesi naziri Yavər Camalov deyib. Nazir bildirib ki, hazırda həmin bombalar test mərhələsindədir. 2014-cü ildə xarici ölkələrə 100 milyon ABŞ dolları dəyərində ixracat həyata keçirildiyini deyən nazir qeyd edib ki, hazırda Özbəkistan, Misir, Malayziya ilə ixracat istiqamətində danışıqlar aparılır.

**Müdafiə Sənayesi Nazirliyi işçilərinin peşə bayramı ilə əlaqədar keçirilən tədbirdə çıxış edən nazir Yavər Camalov 2014-cü il ərzində görülən işlərdən və gələcək paritetlərdən danışıb. Nazir bildirib ki, bu il sifarişçilərə təhvil verilmiş müdafiə sənayesi məhsulların həcminin 2010-cu illə müqayisədə 2 dəfə çox olacağı gözlənilir:** "Müdafiə sənayesi məhsullarından 60 və 82 mm çaplı minaatanlar, PKT pulemyotu, 9.9mmlik qısa lüləli tapança, BRDM-2, optik nişangahlar, əleyhqazlar, təkmilləşdirilmiş zirehli texnikaların ehtiyat hissələri istehsal olunaraq sifarişçilərə çatdırılıb".

Nazir deyib ki, 2015-ci ildə yeni istehsal sahələrinin yaradılması və istehsal texnologiyalarının alınması üçün planlar hökumətə təqdim olunub. Yavər Camalov prezident İlham Əliyevin sərəncamı ilə orden, medallar, fəxri adlar almış əməkdaşları təltif edib. Sonda prezident İlham Əliyevə müraciət qəbul olunub.

***

Ermənistan isə öz amplusına sadiq qalaraq cəbhə xəttində atəşkəs rejimini pozmaqla və digər təxribatlarla məşğuldur. Son bir sutka ərzində ermənilər atəşkəsi 57 dəfə pozublar.

Erməni mətbuatı Uruqvay Şərq Respublikasının vitse-prezidenti və Senatının sədrinin sözlərini təhrif edib. Bu məsələyə dair Xarici İşlər Nazirliyinin (XİN) təlimatı əsasında Azərbaycanın Uruqvaydakı diplomatik nümayəndəliyi Uruqvayın Xarici İşlər Nazirliyinə müraciət edib. APA-nın məlumatına görə, Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Hikmət Hacıyev bildirib ki, Ermənistan kütləvi informasiya vasitələrində, xüsusilə "azbarez.com" saytında Ermənistanda səfərdə olan Uruqvay Şərq Respublikasının vitse-prezidenti və Senatının sədri Danilo Astorinin dekabrın 8-də Ermənistan Milli Assambleyasının sədri Qalust Saakyanla keçirdiyi birgə mətbuat konfransında "Uruqvay erməni soyqırımını tanıyan bir ölkə kimi Dağlıq Qarabağ Respublikasının da müstəqilliyini tanıyacaq ilk ölkə olacaqmı" sualına cavab olaraq Danilo Astori tərəfindən "Mənim ölkəm bu istiqamətdə işləyir", demәsi kimi məlumatlar yayılıb.

"Məsələnin araşdırılması üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təlimatı əsasında Azərbaycan Respublikasının Uruqvaydakı diplomatik nümayəndəliyi Uruqvayın Xarici İşlər Nazirliyinə müraciət edib. Bu müraciətə cavab olaraq, Uruqvay Xarici İşlər Nazirliyindən bildirilib ki, məsələ vitse-prezident və Senatın sədri Danilo Astori ilə aydınlaşdırılıb. Danilo Astori bu məlumatın həqiqətə uyğun olmadığını, belə fikirlər səsləndirmədiyini və Uruqvayın rəsmi mövqeyinin münaqişə tərəflərinin maraqlarını nəzərə alaraq, münaqişənin dialoq, danışıqlar və sülh yolu ilə həllini dəstəkləməkdən ibarət olduğunu bildirdiyini qeyd edib", - deyə H. Hacıyev bildirib.

***

Amma erməni mətbuatında Ermənistanın rəzil duruma düşdüyünə dair də faktlar yer almaqdadır. Erməni jurnalistlərin araşdırması şok faktlar ortaya çıxarıb. "Google Earth" xidməti ilə araşdırma göstərir ki, son 23 ildə Ermənistanda yüzlərlə kənd ləğv olub.

ANS PRESS-in məlumatına görə, respublikanın şimalında - keçmiş İcevan rayonunda yerləşən Barekamavan kəndi də artıq yox olmağın astanasındadır. Beləliklə, Ermənistanda qalmış 953 kənddən biri də azalacaq. Halbuki 1980-ci illərdə Ermənistanda kənd sayı 2 minə yaxın idi və bu kəndlərdən 800-ündə azərbaycanlılar yaşayırdı.

1978-ci ilə qədər adı Azərbaycan dilində Dostlu olan Barekamavana baş çəkmiş erməni jurnalistlər yazıblar ki, kənddə cəmi 80 evdə yaşayış qalıb. Halbuki 1990-cı illərin əvvəlinə kənddə yaşayan ailə sayı 1000-i keçirdi. Kənddəki evlərdə əsasən yaşlı adamlar qalıb və yalnız 20 evdə uşaqlar var. Bu dərs ilinin başlanğıcında məktəbdə cəmi 30 şagird dərsə başlamışdı, amma bugünlərdə daha 10 şagird məktəbi tərk edib. Onların ailələri birdəfəlik kəndi tərk edərək Rusiyaya köçüblər.

Kəndin icma başçısı Qaqik Abazyan həmin ailələrin dolanışıq üzündən kəndi tərk etdiyini bildirib. Onun sözlərinə görə, kənd sakinlərinə məxsus 340 hektar ərazidən hətta 1 hektar belə əkilmir...

Bütün bu xəbərlərin və faktların sonunda cəmi iki cümlə ilə durumu ümumi şəkildə belə qiymətləndirmək olar: Ermənistan hətta öz məhvinə səbəb olsa belə işğalçılıq siyasətindən çəkilmək istəmir, torpaqlarımızı azad etmək və bunun nəticəsində sülh prosesinin baş verməsində maraqlı deyil. Bu aydın görünsə də, dünya birliyi də birmənalı mövqe sərgiləmir, dialoqun baş tutmamasına səbəb olan tərəfin Ermənistan olduğunu bəyan etmir. Nəticədə isə müharibə qaçılmaz olur...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

# Saxta Yeni il endirimləri başladı

**Hər il olduğu kimi, bu il də Yeni il qabağı mağazaların vitrinlərinə cazibəli formada "Geyimlərə 30-50-80 faiz endirim", "Hər nə alsan, 10 manat", "2 al+bir hədiyyə", "Nə alırsan al, yarısını ödə" yazılmış sözlər bəzəyir. Yeni il qabağı belə elanları yalnız geyim mağazalarında deyil, "İdeal", "Sabina" kimi kosmetika və parfümeriya mağazalarının vitrinlərində də görə bilərik.**

## Eyyub Hüseynov: "Ölkədə satılan malların təxminən 70 faizinin qiymət sənədi yoxdur..."


Eyyub Hüseynov

Qeyd edək ki, çox zaman bu endirimlər real olmur. Ya da əhalinin təbiri ilə desək, qiymətləri 100 faiz bahalaşdırıb 50 faiz endirirlər. Nəticə etibarı ilə satılan geyim və ya əşya elə əvvəlki qiymətində, hətta daha baha olur. Apardığımız müşahidələrdən də məlum oldu ki, malların üzərində göstərilmiş endirim faizləri əslində aldadıcıdır. Endirim edilən geyimlərlə daha yaxından tanış olmaq üçün bir neçə mağazaya baş çəkdik.

İlk olaraq vitrininə cəzb edici formada "70-80 faiz endirim" yazılan "Lady Sharm" mağazasına daxil olub qiymətlərlə maraqlandıq. Bir müddət əvvəl mağazada 60 manata gördüyümüz donun üzərinə 120 manat yazılıb üzərindən xətt çəkilərək endirimlə 49 manat qeyd edilmişdi. Ümumiyyətlə, əgər bir mağaza mallarının satış qiymətində birdən-birə 70 faiz endirim edirsə, deməli, endirimdən öncə o, bu malları çox baha qiymətə satmaqla, həm sözün həqiqi mənasında soyğunçuluq edirmiş, həm də vergidən yayınma hallarına şərait yaradırmış.

Saxta endirim problemi son illərin ən çox diqqət çəkən məsələlərindəndir. Zaman-zaman aparılan monitorinqlər göstərir ki, Bakının bir çox ticarət obyektlərində endirimlər, sadəcə, alıcıları cəlb etmək məqsədilə həyata keçirilir.

Baş çəkdiyimiz "New Yorker" mağazasında isə satıcı xanım endirimlərin yeni kolleksiyaların hamısına şamil edilmədiyini dedi. O, həmçinin, endirim kampaniyası zamanı müştərilərin digər günlərdən daha çox olduğunu və alıcıların mağazadan əli boş çıxmadığını bildirdi. Baş çəkdiyimiz "Ustop" mağazasında isə 20-50 faiz endirim vardı. Burda da eyni vəziyyət idi. Əlimizi hansı paltara atdıqsa, onda ya endirim olmadığını dedilər, ya da ki, elə bir endirim edilmişdi ki, yenə qiymət əl yandırırdı.

Parfümeriya mağazalarına da baş çəkib qiymətlərlə maraqlandıq. "İdeal" parfümeriya mağazasında 20-50 faiz endirim vardı. Ancaq keyfiyyətinə görə seçilən brend malların heç birində endirimə rast gəlmədik. Ümumiyyətlə, bütün dünyada Yeni il öncəsi müxtəlif endirim kampaniyaları keçirilir. Qərbdə Milad endirimləri noyabrın 22-dən, yeni qərblilərin səbirsizliklə gözlədikləri "Qara cümə"dən başlayır. "Qara cümə"ni, yəni Milad endirimləri təkcə alıcılar tərəfindən deyil, satıcılar tərəfindən səbirsizliklə gözlənir, çünki alver artır, iş adamları il ərzində yığılıb qalmış mal artıqlığından yaxa qurtarır, nağd pul əldə edirlər. Həmin günün adı da buradan götürülüb - qara rəng Qərb mühasibatlığında artımı, qırmızı rəng isə azalmanı bildirir. Bu məsələ əhalinin aztəminatlı hissəsinin işinə xüsusilə yarayır, Qərbdə elə ailələr var ki, hətta illik ərzaq ehtiyatını da "Qara cümə"də yığır. Çünki endirimlər təxminən 75 faiz ətrafında dəyişir. Məsələn, adi günlərdə 5 dollara satılan konserv bankasını endirim zamanı 1 dollara, 40 dollara satılan köynəyi isə 10 dollara almaq mümkündür. Bu, satışları on dəfələrlə artırır. Bu yolla ABŞ-da endirimə gedən dükanlar bir gün ərzində illik satışlarının 25 faiz qədər nağd pul əldə edə bilirlər.

**Bəs Azərbaycanda saxta endirim kampaniyalarının qarşısını almaq üçün hansısa nəzarət mexanizmi varmı? Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qiymət məsələlərində anarxiyanın olduğunu dedi:** "Music Galleri" böyük ticarət şəbəkəsidir. Hər kəsin telefonuna SMS-lər göndərib endirim olması haqda xəbər verirlər. Əhali də həmin mağazaya gedib görür ki, onlara lazım olan əşyalara endirim yoxdur. Digər mağazalarda da eyni vəziyyətdir. Bizə bununla bağlı şikayətlər gəlib. Dövlət orqanlarına bu barədə dəfələrlə məlumat verilsə də, qarşısı alınmır. Əhali endirim olan mağazaya gedib malı seçir. Deyirlər ki, buna endirim yoxdur. Malı alıb sonradan dəyişmək istəyəndə də deyirlər ki, bu mal endirimdə olduğu üçün dəyişdirilmir, qaytarılmır. Nazirlər kabinetinin 94 saylı qərarının 31-ci maddəsində göstərilir ki, malların üzərində məsul şəxsin imzası və ya möhürü olan qiymət sənədi olmalıdır. Təəssüflər olsun ki, ölkədə satılan malların təxminən 70 faizinin qiymət sənədi yoxdur. İstehlakçı hüquqlarının qorunmaması, qiymət sənədlərinin olmaması, Nazirlər Kabinetinin qərarının yerinə yetirilməməsi qiymət məsələlərində anarxiyaya səbəb olur".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Qiymətlər bahalaşır, bayram tədarükünə tələsin!

## Satıcılar alverin zəif getməsindən şikayətçidirlər

**Hər il bayram ərəfəsində əhalinin ərzaq məhsullarına tələbatının artması ilə əlaqədar qiymətlər yüksəlir. İşbazlar məhsulları mümkün qədər baha satmaqla daha çox gəlir qazanmaq, bir neçə gündə "qaz vurub, qazan doldurmaq" niyyətinə düşürlər. Artıq Yeni il bayramına sayılı günlər qalıb.**







İndilikdə ilk baxışdan qiymətlərdə elə bir bahalaşma müşahidə olunmur.

### Bayram yaxınlaşır, meyvələr bahalaşır

Satıcıların səssizliyi, alıcıların seyrəkliyi bazarda əvvəlki ab-havanın olmadığından xəbər verir. Yaxınlaşıb meyvə-tərəvəzin qiymətləri ilə maraqlanırıq. Əvvəlcə satıcılar heç bir bahalaşmanın olmadığını desələr də, ayrı-ayrı məhsulların qiymətinə gələndə əsl mənzərə üzə çıxır. Əksər məhsullarda qiymətlər 10 gün əvvəlkindən bahadır.

Belə ki, kiloqramı 1,50 manat olan narın qiyməti indi 2-3 manat arasında dəyişir. Almanın 1 kiloqramının qiyməti 1,50 - 2,50 manat, armud 2 - 2,50, naringi 1,50 -2 manatdır. Qeyd edək ki, bu məhsullar təxminən bir həftə öncə, hazırda olduğundan 50-60 qəpik ucuz təklif olunurdu.

Ən çox qiymət artımı "Qızıl Əhmədi" sortlu almada müşahidə olunur. Əvvəllər kiloqramı 2-3 manata satılan bu məhsul indi 4 manatadır. 1,50-2 manata satılan feyxoanın kiloqramı isə 3 manatdır. Ananasın qiymətində 1 manat artım müşahidə olunur. Əvvəllər 3-4 manata təklif olunan bir ədəd ananas indi 5 manatdır.

### Rusiya yolu bağlandı, tərəvəzlər ucuzlaşır

Bazarda ən çox ucuzlaşma tərəvəzlərin qiymətində müşahidə olunur. Pomidorun bir kiloqramının dekabr ayında 1,50 -2 manata satılması Bakı üçün nadir haldır. Satıcılar pomidorun ucuzlaşmasını Rusiyada iqtisadi böhranın başlaması ilə əlaqələndirirlər. Satıcı Seyran Xuduyev deyir ki, əvvəllər Azərbaycandan pomidor-xiyar ən çox Rusiyaya ixrac olunurdu. Yerli bazarda məhsul az olduğu üçün burada baha satılırdı. İndi Rusiya bazarında demək olar ki, mal satmaq mümkün deyil. Ona görə fermerlər məhsullarını yerli bazarda satmağa çalışırlar. Bu səbəbdən həm pomidorun, həm də xiyarın qiyməti fəslə görə ucuzdur.

Qeyd edək ki, xiyarın 1 kq-ı 1-1,40 manat arasındadır, pomidorun qiyməti isə 1-1,50 manata təklif olunur.

### Quru meyvələri indidən tədarük edin, bahalaşır!

Bayram süfrəsinin əvəzolunmaz yeməyi aş, aşın bəzəyi isə quru meyvələrdir. Bu səbəbdən Yeni ilin gəlişi quru meyvələrin satışına da təsirsiz ötüşmür. Hər məhsul ən azı 1 manat bahalaşıb. Daha öncə, ərik qurusunun kiloqramı 5 manata idisə, indi 6 manatdır. Gavalı qurusu, şabalıd, kişmişin qiymətində də 1 manat artım olub. Kişmişin kiloqramı 4-7 manata, şabalıd 4-6 manata, düyü 1,80- 2 manata təklif olunur. Satıcılar deyir ki, hələ ciddi bahalaşma olmasa da, bayrama 2-3 gün qalmış quru meyvələrdə qiymət artımı qaçılmazdır.

Qeyd edək ki, balıq ətinin qiymətində nəzərə çarpacaq artım olmasa da, satıcılar kütümün Yeni ilə 2-3 gün qalmış 2 dəfə bahalaşdığını deyirlər. Səbəb isə odur ki, cənub bölgəsinin insanları bayram süfrəsinə mütləq kütüm balığından hazırlanmış ləvəngi qoyurlar. Tələbatın artması qiymətlərə də təsir edir.

Ağartı məhsullarının qiymətində isə elə bir dəyişiklik yoxdur. 3 litr qatıq 2,50 manat, 1 kiloqram pendir 4 manat, 1 litr süd 1 manat, 1 kq nehrə yağı 7 manat, şorun kiloqramı isə 2 manatdır. Kənd yumurtasının qiyməti isə hansı rayondan gəlməsindən asılı olaraq 15-20 qəpik arasında dəyişir. Göyərti məhsullarının topdan satışında 7 dəstəsi 1 manata, pərakəndə satışında isə bir dəstəsi 20 qəpikdir.

### "Alıcılıq zəifdir, sanki insanlar qidalanmır"

Söhbətləşdiyimiz satıcıların demək olar ki, hamısı əhalinin alıcılıq qabiliyyətinin aşağı olmasından narazıdır. Satıcı **Səbuhi Əliyevin** sözlərinə görə, son bir ayda alıcılıq o qədər zəifləyib ki, artıq insanların qidalanmadığını düşünməyə başlayıblar: **"İnsanlarda pul yoxdur, pensiyaları vaxtında vermirlər, Rusiyadan gələn vəsait də azalıb, bir tərəfdən də əhali bayram bazarlığı üçün pul yığır. Gərək alıcılıq yüksək ola ki, biz də qiymətləri qaldıraq. İndi əksinə, ucuzlaşma da var".**

**Digər satıcı Qalib Hüseynov** isə deyir ki, yarmarkalar onlara alver etməyə imkan vermir: **"Hər həftə yarmarkalar təşkil olunur və insanlar həftəlik tələbatlarını oradan alırlar. Bu da bizim alverimizi zəiflədir. İnsanlarda elə təəssürat var ki, yarmarkada satılan məhsulların hamısını rayonlardan, kəndlərdən gətirirlər. Ancaq Bakıdakı bütün yarmarkaları axtarsan, bəlkə 50 nəfər rayondan gələn satıcı tapmazsan. Hamısı "8-ci kilometr" bazarından gedənlərdir. Həftə içində burada alver edirlər, şənbə-bazar günlərində yığışıb yarmarkalara gedirlər. Rayondan gəlmələri barədə saxta bir kağız da düzəldirlər. Bura Azərbaycandır, burada hər şey mümkündür".**

Qalib kişinin sözlərini təsdiqləyən Şahnaz adlı satıcı xanım da deyir ki, bəziləri burada sata bilmədikləri məhsulu yarmarkalarda rayondan gələn məhsul adı ilə daha baha qiymətə satırlar.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 308 (6017) 18 dekabr 2014




# "Hakimiyyətin ABŞ-la münasibətləri düzəltmək cəhdləri görünmür"

## Ərəstun Oruclu: "Bu gün lobbiçilik bəlkə bir o qədər önəmli deyil, əsas etimad yaratma prosesidir"

**Azərbaycan hakimiyyətinin Amerikada lobbi fəaliyyəti nəticəsiz qaldı. Hökumətin böyük büdcə ayırmasına rəğmən Vaşinqtondan Bakıya ünvanlı tənqidlər getdikcə sərtləşir. Doğrudur, son zamanlar Bakıdan da Vaşinqtona ünvanlı tənqidlər çoxalıb. Ancaq məlumdur ki, strateji olaraq Azərbaycan dövləti ABŞ-la əməkdaşlıqda maraqlıdır. Sadəcə, Bakı Vaşinqtonun Azərbaycanın "daxili məsələlərinə" qarışmasına etiraz edir. Bu isə o qədər də mümkün olmur.**

Bütün bunların fonunda rəsmi Bakının milyonlarla dollar vəsait xərclədiyi lobbi siyasəti iflas həddinə çatıb. Əcəba, bunun səbəbləri nədən ibarətdir? **Politoloq Ərəstun Oruclu** deyir ki, səbəblər kompleksdir. Ekspertə görə, münasibətlərin indiki vəziyyətə gəlməsi lobbi fəaliyyətinin keyfiyyətsiz qurulması ilə yanaşı, münasibətlərin düzgün qurulmaması ilə bağlıdır: "Əvvəla, lobbi siyasəti kökündən yanlış qurulmuşdu. Faktiki olaraq Obamanın opponentləri, yəni respublikaçılarla - bütövlükdə partiya deyil, ayrı-ayrı şəxslərlə - işləyərək sanki Ağ Evə təzyiq göstərməyə çalışırdılar. Yəni bu, təxminən ona bənzəyir ki, Nikaraqua Azərbaycanda lobbiçiliklə məşğul olmaq istəyir və bu məqsədlə gəlib Azərbaycanda Müsavat və ya AXCP ilə iş qurur. Təxminən eyni effektdir. Baxmayaraq ki, Amerika siyasi mühiti Azərbaycan siyasi mühitindən, yumşaq desək, bir qədər fərqlidir. İkinci məqam o idi ki, bu işi qurmaq üçün göndərilən insanların standartlara cavab verməməsi idi. Bundan başqa, işin görülmə üsulları da kifayət qədər keyfiyyətsiz idi. Yəni məsələn, "Nyu York Tayms" qəzeti lobbi şirkətləri ilə Azərbaycan tərəfinin imzaladığı sənədləri dərc eləmişdi və orda səfirin imzası vardı. Aydın məsələdir ki, belə işlərlə səfir məşğul olmur. Bu praktika göstərdi ki, iş son dərəcə qeyri-peşəkar qurulub. Rəsmi Bakının Amerika institutlarına olan münasibəti dəyişib. ABŞ ən yüksək azərbaycanlı rəsmilər səviyyəsində Azərbaycanda çevriliş hazırlamaqda, ölkəni dağıtmaqda ittiham olunur. ABŞ təşkilatlarına qarşı cinayət işi açılır, ölkədən qovulur və onlarla əməkdaşlıq edən yerli vətəndaş cəmiyyəti təmsilçiləri təqib olunurlar. Belə bir fonda lobbi fəaliyyətinin qurulması hansı effekti verə bilərdi? Doğrudanmı, bu insanlar düşünürdülər ki, Qərbə təzyiq edəcəklər və onlar da mütləq geri çəkiləcək. Və nəhayət Azərbaycan hakimiyyətinin ölkə daxilində apardığı siyasət. Faktiki olaraq son illərdə ölkədə ifrat avtoritarlaşma gedir. Siyasi müxalifət, media, vətəndaş cəmiyyəti sıradan çıxarılır. Ayrı-arı müstəqil fikirli insanlar təqib olunub, gənclər təşkilatları dağıdılıb. Belə bir dövlətlə əməkdaşlıq eləmək, belə bir hakimiyyəti dəstəkləməyə dəyərmi?"

**Politoloq deyir ki, hakimiyyətin son addımları Amerika ilə münasibətlərin düzəldilməsinə xidmət etmir, əksinə, daha da soyuqluq yaradır:** "Məsələ burasındadır ki, Azərbaycan hakimiyyətinin münasibətləri düzəltmək istiqamətində cəhdləri görünmür. Son 1 ayda olanlara baxsaq, ABŞ-dan insan haqları ilə bağlı, hətta sıradan tənqidlərə aqressiv reaksiyalar görürük. Münasibət saxlamaq istəyən bu cür etmir. ABŞ-la münasibətləri qoruyub saxlamaq istəyən dövlətin de-fakto ikinci şəxsi Amerika əleyhinə 60 səhifəlik ittihamnamə yazaraq dünyanın bütün bəlalarında bu dövləti ittiham eləmir. Orda bu yazıları oxuyurlar. Mən bu barədə məlumatlıyam, diplomatlarla da söhbətim olub. Bu məqalə Vaşinqtonda son dərəcə neqativ qarşılanıb. Axır bir aya qədər bu xətti hakimiyyətin daxilində bir qrup aparırdı. Ancaq son 15 gündə haradansa dövlət başçısının mətbuat xidmətinin rəhbəri peyda olaraq ABŞ-ı söyməklə məşğul olur. Deməyim odur ki, sağlam münasibət qoruyub saxlamaq istəyən, münasibətlərə əhəmiyyət verən bu cür mövqedən çıxış eləmir. Özü də ABŞ-la Azərbaycan heç müqayisəyə gəlmir".

**Qeyd edək ki, gələn məlumatlara görə, rəsmi Bakı Amerikada lobbi fəaliyyətini yenidən qurmağa hazırlaşır. Bu dəfə isə Amerikada əlaqələri olan, nüfuzlu ictimai xadimlərin bu prosesə cəlb olunması planlaşdırılır. Təklif olarsa, Ə.Oruclu bu layihəyə qoşulub lobbi fəaliyyətində iştirak edə bilərmi? Həmsöhbətimiz prinsip etibarı ilə bunu mümkün saysa da, indiki halda konkret siyasi qərarlar olmadan heç bir lobbi fəaliyyətinin münasibətləri düzəltməyə qadir olmadığını düşünür:** "Yeni şəxslərin bu işə cəlb olunması mümkündür. Ehtimal edirəm ki, bu istiqamətdə işlər də gedir. Belə hallarda elə şəxslərə etimad oluna bilər ki, onlara Vaşinqtonda etimad var. Ancaq elə şəxslər də bu cür, strategiyası olmayan hakimiyyətə vasitəçilik edərmi? Əsas sual budur. Mənə təklif olsa, dövlətimiz naminə gedərəm. Amma bunun arxasında çox ciddi təminatlar olmalıdır. Məsələn, elə olar ki, sənin əlaqələrin var və sən bu işdə uğur qazanmaq üçün bir sıra təşkilatlarla danışıb anlaşma əldə etmək üçün Vaşinqtona gedirsən və təyyarə Amerikaya çatmamış Bakıdan Amerika hakimiyyətinin ünvanına rəsmi şəxslər tərəfindən 5 dənə söyüş səslənir. Bu o deməkdir ki, biz istəmirik. Azərbaycan hakimiyyəti öz xarici siyasət konturlarını müəyyən etməlidir. Əvvəllər mən də deyirdim ki, prioritet seçimi olmalıdır. Ölkənin xarici siyasət prioritetləri müəyyən olunmalıdır. Bu gün elə bir geosiyasi reallıq yaranıb ki, onu kənara qoymaq lazımdır. Bu gün konkret olaraq kiminsə tərəfini tutmaq təhlükəlidir. Ancaq eyni zamanda kimisə söymək də təhlükəlidir. Yəni balanslı siyasətin əsl zamanı indidir. Ancaq bu balanslı siyasəti aparacaq konkret siyasi qərarlar lazımdır. Bu çox ciddi işdir. Belə bir işi görməyə qol qoyan insanların çox ciddi yekun qərarları və təminatları olmalıdır. Mən güman eləmirəm ki, bu gün Azərbaycan hakimiyyətinə kimsə qarant dura bilər. Çünki dediyim kimi, bu gün belə olan yanaşmanın sabah necə olacağı bilinmir. Adi bir misal qeyd edim. Əvvəllər bu baş verib. Bu tərəfdən rəsmi nümayəndə heyəti Vaşinqtona səfər edir və burda görüşlərdə Rusiyanın əleyhinə danışır. Eyni zamanda Bakıda və ya Moskvaya gedərək ABŞ-ın əleyhinə danışırlar. Bu balans deyil. Yenə də o fikrə qayıdıram ki, lobbiçilik işi həqiqətən də iflasa uğrayıb. Amma bu gün lobbiçilik bəlkə də bir o qədər önəmli deyil, bu gün önəmli olan etimad yaratma prosesidir. Qarşılıqlı etimad yaranmalıdır. Bu isə artıq lobbiçilərin işi deyil, bunun üçün siyasi qərar olmalıdır".

❑ KƏNAN

# Türkiyə aprelin 24-nə güclü bomba hazırlayır



## Qardaş ölkənin nüfuzlu tarixçiləri 100 illiyi yaxınlaşan erməni uydurmasını yeni və sanballı dəlil-sübutlarla faş etməyə başlayıb; **türkiyəli ekspert:** "Bu işdə bizə Rusiya arxivləri çox kömək oldu..."

**"Əzabkeş xalq"ın yubiley ağlaşmasına cəmi bir neçə ay qaldı. Heç kimə sirr deyil ki, ermənilər saxta soyqırımın budəfəki ildönümünü xüsusi canfəşanlıqla qeyd eləməyə hazırlaşırlar. Hazırlıq isə əsasən bu məsələni maksimum dərəcədə beynəlxalq birliyin gündəliyinə gətirmək, daha çox ölkənin mifik "genosid"i tanımasına və Türkiyənin təklənməsinə nail olmaq, sonuc etibarilə də qardaş ölkəyə qarşı təzminat və torpaq davasına dəstək qazanmaqdır.**

Bunu beynəlxalq erməniliyin qurduğu məkrli plan və qrafiklərdən, o cümlədən "genosid" strategiyasından aydınca görmək olar. Daşnak qurumları isə indidən bir az da qabağa gedərək, "soyqırımın nəticələrinin aradan qaldırılması" üçün ağlasığmaz kompensasiya tələbləri irəli sürməkdədirlər. "Daşnaksütyun" liderlərindən olan Kiro Manoyan bu yöndə "ciddi məşğul olacaqlarını" xüsusi qabardıb.

Təbii ki, Türkiyə dövləti və onun siyasi-diplomatik dairələri, təbliğat və əks-təbliğat maşını da yuxuya getməyib. Heç şübhəsiz, ermənilərin siyasi-diplomatik fəallığı adekvat cavab alacaq, özü də peşəkar, elmi-tarixi, akademik səviyyələrdə. Artıq prosesə start verilib. Belə ki, vesti.az portalına daxil olan məlumata görə, Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzi (YTSAM) 8 ən nüfuzlu Türkiyə tarixçisini materiallar toplayıb araşdırma aparmaq üçün məsul edib. Başlıca məqsəd Osmanlı İmperiyasında "erməni genosidi" ilə bağlı gətirilən "arqumentləri" alt-üst eləməkdir.

Tarixçilərin işini ölkənin sabiq təhsil naziri Həsən Cəlal Güzel koordinasiya edəcək. Yekun olaraq iş 20 fəsildən ibarət həcmdə və 7 dildə nəşr olunacaq. Təhqiqatın nəticələrini Türkiyədəki diplomatik nümayəndəliklər vasitəsilə bütün dünyaya yaymaq planlaşdırılır ki, yalana və sənədlərin saxtalaşdırılmasına əsaslanan erməni təbliğatının qarşısı layiqli və inamlı şəkildə alınsın.

Qeyd edək ki, türkiyəli 8 tarixçidən biri tanınmış jurnalist və tarixçi, 2011-ci ildə çapdan çıxmış "Rusiya dövlət arxivlərindəki 120 sənəd əsasında erməni məsələsi" adlı kitabın müəllifi Mehmet Perinçekdir. Sayta açıqlamasında o, özünün üç sanballı təhqiqat əsərini artıq YTSAM-a göndərdiyini söyləyib. Perinçekin sözlərinə görə, həmin işlər Rusiya Dövlət Hərbi-Tarix Arxivi və Rusiya Federasiyası Dövlət Arxivinin sənədləri əsasında işlənərək ərsəyə gətirilib.

**"Bu işlər mənim "Rusiya dövlət arxivlərindəki 120 sənəd əsasında erməni məsələsi" kitabıma daxil deyil və ilk dəfə işıq üzü görür. Son üç təhqiqat əsəri "Çar hərbi kəşfiyyatının hesabatlarında 1-ci Dünya müharibəsi ərəfəsində ermənilər", "Daşnaklar iki intelligent-bolşevikin gözü ilə" və "ASALA və Tələtin uşaqları" adlanır. Onlar olduqca böyük dəyərə malikdir və Osmanlı İmperiyasında "erməni genosidi" mifini bütünlüklə, ən önəmlisi, sənədli-sübutlu şəkildə rədd edir. Bizə bu işdə Rusiya arxivləri çox kömək oldu"**, - deyə araşdırmaçı vurğulayıb.

*****

Beləcə, erməniləri məyusedici və sərt gerçəkliklər, güclü əks-təbliğat bombası gözləyir. Zatən, onları bikef edən tək türklər olmayacaq. Şübhə yox ki, bədxah millətin ümid bəslədiyi Qərb liderləri, o sırada ABŞ prezidenti Barak Obama da "100 illik" günündə fərqli, "əzabkeş xalq"ın ürəyindən tikan çıxaracaq açıqlama verməyəcəklər. Həm də o səbəbə ki, dünya ermənilərin dərdini çəkəsi halda deyil, qat-qat önəmli və vacib məsələlər var indi - İŞİD, Rusiya, Yaxın Şərq, Ukrayna məsələsi, beynəlxalq terror və s.

Elə ermənilər özləri də özlərini umsuq eləməyə başlayıblar. Misal üçün, Türkiyə baş naziri Əhməd Davudoğlunun erməni əslli müşaviri Etyen Maxçupayanı deyib ki, Türkiyə ilə Ermənistan arasında sərhədlərin aşılması yalnız paket nizamlanma halında mümkündür. Onun sözlərinə görə, paket həll dedikdə türk-erməni və Azərbaycan-erməni münasibətlərinin normallaşmasından gedir. Ardınca o, "soyqırımın" 100 illiyi ilə bağlı rəsmi Ankaranın erməni tərəfinin tələblərini qane edəcək hansısa addımlar atacağına da inanmadığını söyləyib. Sitat: **"Erməni tərəfinin belə yanaşması ilə Türkiyənin "soyqırım" və sərhədlərin açılması məsələsində hər hansı güzəşti mümkün deyil. Əgər Ankara bu yöndə hansısa addım atacaqsa belə, bu, bir ildən sonra - emosiyalar səngiyəndən sonra mümkün ola bilər"**. Erməni müşavir bu ilin əvvəlində, o zaman baş nazir olmuş Rəcəb Tayyib Ərdoğanın erməni xalqına başsağlığı jestini də xatırladaraq əlavə edib ki, **"bu, müəyyən plankadır və Türkiyə istənilən halda ondan aşağı enməyəcək..."**

*****

Odur ki, erməni-daşnaklara səslənmək istəyirsən: yerinizi, həddi, plankanızı bilin, boyunuzdan yuxarı tullanmağa mənasız cəhdlər eləməyin.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 308 (6017) 18 dekabr 2014

# Mingəçevir teatrında "teatr" çıxaran kimdir?




## **Aktyor İbrahim Salamov:** "Rəhbərlik burda kafe açıb, yoldan ötəni gətirib içəri salırlar"; **Nazirliyin sözçüsü Zöhrə Əliyeva:** "Mətbuata danışmaqdansa gəlib dərdini bizə deyərdi"

**Mingəçevir Dram Teatrı ilə bağlı qalmaqal səngimək bilmir. Teatrın ali dərəcəli aktyoru İbrahim Salamov "Yeni Müsavat"a bildirdi ki, direktorun qərəzli əməlləri nəticəsində kollektivin bir neçə aktyoru işdən uzaqlaşıb: "Səxavət Məmmədov teatra rəhbər təyin olunan gündən teatrı intriqa, alver məkanına çevirib. Sənət ocağından şəxsi mənafeyi üçün istifadə edir. Qarderobun birini bağlayıb özü üçün kafe də açıb. Yoldan keçən kim olsa bu kafeyə gəlir. Teatr səhnəsi kinozal kimi istifadə edilir, bu da məşqlərimizə mane olur. Bacısının rəhbərlik etdiyi məktəbdəki uşaqlara zorla biletlər satılır. Onu da deyim ki, çox zaman biletləri "kopyalayaraq" satışa buraxır. Olanlara qarşı narazılığımı bildirəndə mənə qarşı kampaniyaya başladı.**

Uzun illərdir ki, bu teatrda fəaliyyət göstərirəm. İşlədiyim müddətdə işimdən, nizam-intizamımdan heç bir şikayət olmayıb. Bu yaxınlarda "Nənəmin kələyi" tamaşasının quruluşçu rejissoru olaraq məşqləri hazırlayırdım. Bunun üçün səhnədəki bəzi problemlərin həll olunmasını xahiş etdim. Səhnə rəisi dediklərimlə razılaşmadı. Üstəlik, buna görə mənə töhmət verdilər. Sosial şəbəkələrdə bu haqda məlumat verdim. Bundan sonra teatr rəhbərliyi tərəfindən mənə qarşı intriqalar başladı. Üzürlü səbəbdən işdən icazə almışdım. Lakin işə qayıtdıqda məlum olub ki, məni işdən azad ediblər. Səbəbini soruşanda bildirdilər ki, həmkarlar ittifaqı nizam-intizamı pozduğuma görə bu qərarı verib. Axı bu ittifaq nədir, kimlərdən ibarətdir, xəbərimiz yoxdur . Kifayət qədər tanınan aktyoram və məni qərəzli şəkildə, heç bir əsası olmadan işdən uzaqlaşdırmağa direktorun haqqı çatmır. Əksinə, sənəti qiymətləndirməyi bacarmayan direktorun özü işdən azad olunmalıdır".

**İbrahim Salamov onu da bildirdi ki, onun işdən azad edilməsinə etiraz olaraq teatrın tanınan aktyor və aktrisaları ərizə yazaraq işdən çıxıblar:** "Onlar sənətdən bixəbər, şər-böhtançı, alverçi direktorla işləməkdənsə işdən çıxmağı üstün tutdular. Bu aktyorlar Əsmət Qurbanova, Asim Muxtarov, Rizvan Əzimzadə və Günel Əhmədovadır. Hazırda digər aktyorlara da təzyiq olunur. Teatrın ətrafına polis nəzarətçiləri qoyulub. Gizlin gözətçilər aktyorların hər bir hərəkətini izləyir. Sənət insanları belə bir intriqa şəraitində yaradıcılıqla məşğul ola bilməz. Hüquqlarımı bərpa etmək üçün məhkəməyə müraciət edəcəm. Teatrın direktoru S.Məmmədov olanlara cavab verməlidir".

## Direktor Səxavət Məmmədov: "Bəli, teatrda kafe də açmışam, hələ bir..."



### Məhkəmə aktyorların xeyrinə qərar çıxardıb

Aktyorla söhbətdən o da məlum oldu ki, belə bir olay iki il öncə də baş verib. Onun sözlərinə görə, adıçəkilən teatrın keçmiş direktoru Həsən Həsənov bu cür qərəzli mövqe işlədərək aktyorları işdən qovub. Bu azmış kimi, bəzi aktyorlar döyülüb də. Nəticədə aktyorlar məhkəməyə müraciət edib. Lakin məhkəmə aktyorların xeyrinə qərar verib, aktyorların işdən azad edilməsi qeyri-qanunidir və aktyorlar yenidən işə bərpa edilib.

"Kollektivi yenidən bərpa etmək üçün yeni rəhbərlik gətirildi. Bu, Səxavət Məmmədov oldu. Halbuki o, Texniki Universitetin nəqliyyatın idarəetməsi fakültəsinin məzunudur və sənət aləmindən qətiyyən xəbəri yoxdur"-deyə İ.Salamov bildirib.

### Nazir müavininin adı qalmaqalda

**Baş verən qalmaqalda mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyevin də adı çəkilir. Aktyor iddia edir ki, teatr direktoru etdiyi bütün özbaşınalıqları ona istinad edərək həyata keçirir. Onun verdiyi məlumata görə, S.Məmmədov tez-tez kollektiv arasında bildirir ki, etdiyi hərəkətləri nazir müavininin göstərişlərinə əsasən və onun himayəsi altında həyata keçirir:** "Etirazımı bildirəndə mənə deyirdi ki, güclü arxası var. Ümumiyyətlə isə Ədalət Vəliyev deyib səni məhv edim. Direktorun özbaşınalıqlarına aidiyyəti orqanlar göz yumur. Bu isə ondan irəli gəlir ki, onun yeznəsi Mingəçevir İcra Hakimiyyətində, digər qohumu Şəhər Mədəniyyət Şöbəsində inspektor, başqa ailə üzvü isə liseydə direktor işləyir. Kollektiv olaraq direktorun qanunazidd hərəkətləri haqda mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə müraciət ünvanlamışıq".

### Məntiq, ağıl deyilən bir şey var...

**Məsələ ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyi ilə əlaqə saxladıq. Nazirliyin əməkdaşı Zöhrə Əliyeva bildirdi ki, baş verən qalmaqal haqda məlumatları var:** "Aktyor İbrahim Salamov bu yaxınlarda bizə məlumat verib. Amma aktyorun da öz səhvləri var. İşə məsuliyyətsiz yanaşaraq nizam-intizamı pozub. Biz ona məsləhət gördük ki, mətbuata danışmaqdansa gəlib aidiyyəti orqana xəbər edərdi. Yəni məntiq, ağıl deyilən bir şey var. Qaldı ki, teatrda kafenin açılması məsələsinə, dünyanın bütün nüfuzlu teatrlarında kafe və bufetlər fəaliyyət göstərir. Fikrimcə, burda heç bir qəbahət yoxdur. İndi hazırda nazirlik məsələni həll etməyə çalışır. Nəticə barəsində mətbuata məlumat veriləcək".

### "Teatrda kafe də açmışıq, hələ üstəlik..."

**Nəhayət ki, teatrı rəhbəri Səxavət Məmmədov "Yeni Müsavat"ın əməkdaşına sadalanan ittihamlarla bağlı açıqlama verib: Direktor bildirib ki, hərəkətləri barəsində İbrahim Salamov qarşısında yox, nazirlik qarşısında cavab verməlidir:** "Bizim teatr dövlət proqramı əsasında yenicə təmir olunub. Bütün region teatrlarında olduğu kimi bizim teatrda da işçilərin əmək haqqı nazirlik tərəfindən ödənilir, digər kommunal xərclər isə əldə edilən gəlirin hesabından çıxılır. Teatrın yüksək səviyyədə fəaliyyəti üçün lüzum yaranır ki, məkanda bəzi iaşə obyektləri yaradılsın. Səhər saatlarından axşamacan binada istilik qurğuları işləyir və bir ay ərzində biz buna 1500 manat vəsait xərcləyirik. Bunlar hamısı nəyin hesabınadır? İndi izah edim. Mənim işə təyin olunmağımdan bir ay sonra teatrın ikinci mərtəbəsindəki kiçik zalda kinoteatr təşkil etmişik. Mingəçevir sakinləri, tələbə və gənclər bu gün bura təşrif buyurur və biz qazanc əldə etmiş oluruq. Bəli, teatrın foyesində kafe xidməti də açmışıq. Düzdür, bura gələn çox deyil, amma ümidvarıq ki, gələcəkdə bu sahədən də kifayət qədər gəlir əldə edə biləcəyik. Bu, eyni zamanda gələn tamaşaçının asudə vaxtının səmərəli keçirilməsi üçündür. Qaldı ki, polis məsələsinə, olimpiya oyunlarının keçirilməsi ilə bağlı şəhərdə tikinti işləri aparılır. Asfalt örtüyünün çəkilməsinə polis nəzarət edirdi və bu səbəbdən teatrın ətrafında xidməti polis maşınları olub. Aktyor isə fürsətdən istifadə edərək şəkillər çəkib.

Mən bütün mətbuat işçilərini, jurnalistləri teatrımıza dəvət edirəm. Gəlib hər şeyi öz gözlərinizlə görüb, şahidi ola bilərsiniz".

❑ **Xalidə GƏRAYEVA**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- *Əla tələffüz və güvənlə danışmaq*
- *Real ingiliscə söhbətlər*

BONUS English EXPLOSION *dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

# 2014-ün müəmmalı qalan olayları...

**2014-cü ilin müəmmalı qalan cinayətləri, səs-küylü hadisələrini sıraya düzüb incələməkdən uzağıq. Yola salmaqda olduğumuz ildə baş verən bir neçə olaya diqqət yetirək.**
**Bu ilin ən səs-küylü olayını heç bir mübaliğəsiz Gürcüstan Daxili İşlər Nazirliyinin (DİN) antiheroin əməliyyatını adlandırmaq olar. Həmin əməliyyat iyunun 11-də baş tutub.**

## Anar Məmmədovun işçisi müəmmalı şəkildə öldürüldü; ölkədən 3 tona yaxın heroin keçirildi; sabiq polis rəisinin öldürdüyü deyilən qadının işi üzərindən sirr pərdəsi götürülmədi



Əfqanıstanda hazırlanan 2 ton 790 kiloqram yüksək keyfiyyətli maye heroinin Azərbaycan ərazisinə necə daxil olması və ölkə sərhədlərini aşması faktı ortadadır. Lakin Azərbaycan hüquq-mühafizə orqanları sanki heç nə baş verməmiş kimi susurlar. Bu susqunluq 6 aydır ki, davam edir. Gürcüstan DİN-in yaydığı rəsmi məlumatda heroinin maye halında olan sabun adı altında 30 litrlik 93 çəlləkdə daşındığı bildirilirdi. Qeyd olunurdu ki, əməliyyat zamanı 2 Gürcüstan və 1 Türkiyə vətəndaşı saxlanıb. Sonrakı məlumatlarda yükün son çatdırılma nöqtəsi kimi Moldova göstərilirdi. Bu günə qədər yükün Azərbaycan ərazisinə necə daxil olması haqda rəsmi məlumat yoxdur. Qeyri-rəsmi məlumatlara görə, 3 tona yaxın heroin olan yük maşını Astara Gömrük-Keçid Məntəqəsindən ölkəyə daxil olub və 500 kilometrlik yolu qət etməklə Qazaxdakı gömrük-keçid məntəqəsindən çıxmaqla sərhədlərimizi aşıb. Məlum əməliyyatdan 5 ay ötür. Lakin rəsmi qurumlar ictimaiyyətə sərhədlərimizi asanlıqla aşan beynəlxalq narkomafiyanın bəd əməlinin hansı şəraitdə baş tutması haqda məlumat verməyə tələsmirlər.

Bu il səsi xaricdən gələn, lakin Azərbaycan hüquq- mühafizə orqanlarının susqunluğuna səbəb olan daha bir olay Türkiyədə baş verdi. Sabiq polis rəisi Rza Hacıyev 24 yaşlı Arzu Zeynalova ilə birgə Türkiyənin məşhur "Mardan Palace" hotelinə yollandı. Polis rəisi özü geri dönsə də, A.Zeynalova qayıtmadı. Onun hoteldən meyitini tapıb Bakıya göndərdilər. Bu günə qədər qadının hansı səbəbdən dünyasını dəyişməsi müəmmalı olaraq qalır. Spirtli içkilərdən, narkotikdən uzaq olan qadının öldürülməsi versiyası aylardır dolaşır. Bildirilir ki, onun dəfninə R.Hacıyev xeyli vəsait xərcləyib. Azərbaycan hüquq- mühafizə orqanları isə məsələni araşdırmaqda həvəsli görünmürlər. Bu günə qədər A.Zeynalovanın yaxınlarının "Rza Hacıyev kimdir ki, onu çağırıb bu cinayətin necə baş verməsini soruşmurlar? Niyə ondan soruşan yoxdur ki, Arzu Zeynalovanın yasına 8 min manatı hansı səbəbdən xərcləyib? Məgər o, dünyasını dəyişən hər kəsə pul xərcləyir?" tipli sualları açıq qalıb.

Gürcüstan DİN-in böyük antiheroin əməliyyatından 1 ay sonra, iyulun 11-də Bakıda nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədova məxsus "Qarant Holdinq"ə daxil olan "Qarant Sığorta" şirkətinin İdarə Heyətinin xanım üzvü mənzilində öldürüldü. Məlum oldu ki, Natəvan Əliyeva iyulun 11-də işə gəlməyib. Maraqlanıblar, bəlli olub ki, mənzilində qətlə yetirilib. N.Əliyevanın qətli Məmmədovların ətrafında olan şəxslərin müəmmalı şəkildə öldürülməsini yenidən gündəmə qaytardı. Məlum oldu ki, Ziya Məmmədovun mühafizəçisi olmuş Eldəniz Qurbanov yaşadığı binanın qarşısında güllələnərək qətlə yetirilib. Onun qətlinin üstü indiyədək açılmayıb.

❑ **E.HÜSEYNOV**




# MTN-dən daha bir əməliyyat; 4 nəfər həbs olundu

**Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində qanunsuz olaraq odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının əldə edilməsində, saxlanılması, daşınması və gəzdirilməsində, habelə İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə, yəni gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirilərək Azərbaycan Respublikasının ərazisinə narkotik vasitələrin daşınması hüquqazidd əməllərinin törədilməsində şübhəli bilinən bir qrup şəxs tutulub.**

MTN-dən "Qafqazinfo"ya daxil olan məlumata görə, həyata keçirilmiş kompleks əməliyyat tədbirləri nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Mehdiyev Aftandil Ağadadaş oğlu, Mehdiyev Zaur Ağadadaş oğlu, Mirzəyev Rauf Nicat oğlu və Həsənov Namiq Məmməd oğlu cinayət başında yaxalanıblar. Onların yaşadığı mənzillərə və üzərlərinə keçirilmiş baxış nəticəsində 2 ədəd «Makarov» tipli tapança, 33 ədəd patron, 2 ədəd tapança sandıqçası, 1 ədəd «Naqan» tipli revolver tapança və ona aid 5 ədəd patron, habelə 2 kiloqram 500 qramdan artıq qızıl məmulatları və 641 qramdan artıq gümüş və digər qiymətli metallardan hazırlanmış zinət əşyaları, külli miqdarda narkotik vasitələr - heroin, tiryək, qurudulmuş marixuana və psixotrop maddə olan diazepam aşkar edilərək götürülüb.

Bütün faktlarla bağlı Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitələrin qaçaqmalçılığı), 234.4.1-ci və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələri əldə etmə, daşıma, saxlama və ya satma), 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb. Mehdiyev Aftandil Ağadadaş oğlu, Mehdiyev Zaur Ağadadaş oğlu, Mirzəyev Rauf Nicat oğlu və Həsənov Namiq Məmməd oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə bütün halların araşdırılması, bu qanunazidd əməllərin digər iştirakçılarının müəyyən edilməsi üçün istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Cinayət işinin istintaqı prosesində yeni xüsusatlar üzə çıxdığından, eləcə də Aftandil Mehdiyev, Zaur Mehdiyev, Rauf Mirzəyev və Namiq Həsənovun qanunsuz hərəkətlərinin yuxarıda göstərilənlərlə məhdudlaşmadığını ehtimal etməyə imkan verən kifayət qədər əsaslar olduğundan, onların hüquqazidd əməllərindən zərər çəkmiş vətəndaşlardan Milli Təhlükəsizlik Nazirliyinin ərazi orqanlarına müraciət etmələri xahiş olunur: Əlaqə telefonu: 405-99-99.

# Yeni ildə yenə "partapart" gözlənilir

## Pirotexniki malların ölkəyə gətirilməsi qadağan olunsa da, bəzi yerlərdə gizli şəkildə satılır; polis əməliyyat keçirdi





**Hər Yeni il ərəfəsində insanlara ciddi narahatlıq gətirən partlayıcılar azyaşlıların əyləncəsinə, böyüklərin isə baş bəlasına çevrilir. Ənənəvi olaraq dekabrın 15-dən sonra küçələrdə, məktəblərin ətrafında bu cür səslərdən qulaq tutulur. Pirotexniki məhsullar kimyəvi baxımdan da insan səhhətinə zərərli hesab olunur. Bir neçə ildir ki, həmin malların ölkəyə gətirilməsi, satışı və istifadəsi qadağan edilib. Ancaq hələ də bu məhsulların qaçaqmal yolu ilə ölkəyə gətirilməsi hallarına rast gəlinir.**

Durumu öyrənmək üçün paytaxtın ən böyük ticarət mərkəzlərindən olan "səkkizinci kilometr" bazarına baş çəkdik. Yeni il aksessuarları satanlar pirotexniki malların qadağan olunduğunu və artıq satışa buraxılmadığını bildirdilər. Qeyd edək ki, bazarda pirotexniki malların satışı ilə bağlı ciddi nəzarət olunduğu hiss olunurdu.

Ancaq bəzi satıcılar "fişəng var" desələr də, bizim real alıcı olmadığımızı görüb onları göstərməkdən imtina etdilər. Qeyd edək ki, bu cür fişənglərin qiyməti 6 manatdan başlayır, 20-30 manata qədər yüksəlir. Alıcılarla etdiyimiz söhbətdən də bəlli oldu ki, onlar pirotexniki məhsullar almağa meylli deyillər. Valideynlər isə bunun uşaqların həyatı üçün təhlükəli olduğunu bildirərək qadağanı alqışladılar.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da "Yeni Müsavat"a bildirdi ki, pirotexniki məhsullar qadağan olunmasına baxmayaraq, bu gün də bazarlarda var:** "Necə mübarizə aparılırsa-aparılsın bunun qarşısını almaq mümkün deyil. Çünki Azərbaycanda buna tələbat var. Bu məhsulların azyaşlılar, yeniyetmələr tərəfindən istifadəsinin qarşısını almaq üçün əsas vəzifə məktəblərdə müəllimlərin üzərinə düşür ki, maarifləndirmə işləri aparsınlar, bu halları qınaq obyektinə çevirsinlər. Həmin məhsulların zərərindən bəhs etsinlər. Bu pirotexniki məhsulları istehsal edən ölkələrdə, ümumiyyətlə, bundan istifadə edilmir. Gərək insanlar bu hallara biganə qalmasınlar, standartlara uyğun olmayan fişəngləri almasınlar. Dövlət orqanlarının da üzərinə düşür ki, ciddi reydlər keçirsinlər, bu halların qarşısını alsınlar. Hər il Yeni il bayramında məhz bu partlayıcı maddələrdən zədələnənlər olur. İnsanlar qəfil partlayış səslərinə qorxur, xəstəlik tapırlar. Həmçinin ətraf mühit zəhərli qazlarla dolur".

**Bu pirotexniki məhsulların gömrükdən necə keçirilməsinə gəlincə, Eyyub Hüseynov bildirdi ki, bu mallar qaçaqmal yolu ilə gətirilir:** "Bu məhsullar gömrükdən qaçaqmal yolu ilə keçirilir. Qaçaqmalçılıq yolları da müxtəlifdir. Şəxsi insanların çamadanlarında gələ bilər, iri konteynerlərin görünməz yerlərində də. Gömrük orqanları bu kimi hallara tam nəzarət edə bilmir. Qaçaqmalçılıq problemi bütün dünyada mövcuddur. Azərbaycanda nəyə tələbat varsa, leqal və ya qeyri-leqal olmasından asılı olmayaraq qaçaqmal yolu ilə ölkəyə gətirilir".

**Mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verən Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov da qeyd etdi ki, sözügedən problem var və ona qarşı mübarizə aparılır:** "Hər Yeni il ərəfəsində bu problem yaşanır. Bizim ərazilərdəki polis orqanlarının əməkdaşları əhalini ən çox narahat edən yüksək səs yayımına malik olan pirotexniki oyuncaqların dövriyyədən yığılması məqsədilə reydlər keçirirlər. Reydlər zamanı aşkar olunan vasitələr dövriyyədən çıxarılır. Bugünlərdə Qaradağ Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən Lökbatan qəsəbəsindəki ticarət mərkəzində Bakı şəhər sakini Etimad Hüseynovdan 22280 ədəd pirotexniki məmulatlar müsadirə olunub. Hər il külli miqdarda pirotexniki vasitələr dövriyyədən çıxarılır. Bu il də reydlərimiz davam edəcək. Qadağan olunmuş məhsullar satan satıcılara cəza olaraq, məhsullar müsadirə olunur. Çalışacağıq ki, vətəndaşlarımız qarşıdakı bayramları daha təhlükəsiz şəkildə qeyd edə bilsinlər".

**Qeyd edək ki, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi əməkdaşları bazarlarda monitorinqləri davam etdirir. Son məlumata görə, bugünlərdə paytaxtın Binəqədi, Qaradağ və Sumqayıt şəhəri ərazisindəki ticarət obyektlərindən yüksək səsyayıcı qabiliyyətinə malik olan 53300 ədəd partlayıcı oyuncaq götürülüb.**

❑ **Nərgiz LİFTİYEVA**

Yeni MÜSAVAT

Son səhifə

N 308 (6016) 18 dekabr 2014




# Dünyanın ən bahalı yeni il dəsti satışdadır

**Böyük Britaniyada yeni ilə aid dünyanın ən bahalı delikateslərindən ibarət səbəti satışa çıxarılıb. Səbətin məbləği isə 134,5 min dollar olub. Bu barədə "The Daily Miror" qəzeti xəbər verib. Dəstin istehsalçısı VeryFirstTo kampaniyası olub. Sözügedən firma lüks hədiyyələr üzrə ixtisaslaşıb. Qəzetin jurnalistləri kampaniyanın bu təklifini dünyanın ən bahalı dəsti adlandırıblar.**

Komplektin tərkibinə 250 qram nadir kürü, 100 qram ağ trüfel, qurudulmuş balıq, konfetlər, tortlar və digər ərzaqlar daxildir. Bundan başqa, tərkibə 5 butulka alkoqol da daxildir. Onların arasında 200 yaşı olan Jules Robin konyakı var. Bu konyakın qiyməti isə 47 min dollardır. Bununla yanaşı, müştərilər şahzadə Çarlzla Diananın 1981-ci ildəki toyunda qonaqlara verilən şampanı da bu dəstin içindən əldə edə biləcək. Kampaniyanın saytında qeyd edilir ki, onlar hər sifarişdən gələn gəlirin 1000 funtunu xeyriyyə təşkilatının hesabına köçürəcəklər. Bu təşkilatın adı "The Prince's Trust"dur. Onlar aşağı gəlirli insanların ali təhsil xərclərini maliyyələşdirməyə kömək edir.

# Bu şəhərdə evlər su qiymətinədir

**1950-ci ildə 2 milyon sakini olan Detroyt ABŞ-da böyüklüyünə görə 5-ci şəhər, ölkənin sənaye mərkəzlərindən biri idi. Miçiqan ştatındakı bu şəhərdə çoxlu avtomobil zavodları olduğu üçün "Amerikanın avtomobil paytaxtı" adlanırdı. İndi isə şəhər tənəzzül etmiş məkana çevrilib.**

Milli.az ABC-yə istinadən bildirir ki, son 55 ildə şəhəri 1,3 milyon insan tərk edib. Səbəb sənaye müəssisələrinin bağlanması, iş yerlərinin azalmasıdır. Bir zamanlar gur küçələr, ticarət mərkəzləri, göydələnlər olan yerlərdə indi kol-kos bitir. Dəbdəbəli villalar boş qalıb, uçulub-dağılır. Bir çox yerlərdə isə qazon və parkların yerində yerli sakinlər bostan salıblar. Daşınmaz əmlakın, evlərin "su qiyməti"nə olduğu Detroytda indi azsaylı yeni villalar da var.



# Qısqanclıq qadının görmə qabiliyyətini zəiflədir

**"Kor qısqanclıq" ifadəsi, sən demə, sadəcə, obrazlı şəkildə söylənilmiş sözlər deyilmiş. "The Teleqraph"ın məlumatına görə, alimlər müəyyənləşdiriblər ki, qısqanc olmaq hissi qadınların birbaşa şəkildə görmə qabiliyyətlərinə mənfi təsir edir. ABŞ-ın Delaver İnstitutu tərəfindən aparılan araşdırmalar zamanı çox maraqlı nəticələr qeydə alınıb. Müəyyənləşdirilib ki, qısqanc qadınlar o dərəcədə mənfi emosiyalara qapılırlar ki, axtardıqları əşyaları belə tapmaq iqtidarında olmurlar.**

Belə ki, laboratoriya şəraitində aparılan təcrübədə yanaşı, lakin ayrı-ayrı kompüterlərin arxasında oturan cütlüklər iştirak ediblər. Qadınların vəzifəsi sürətlə bir-birini dəyişən təbiət təsvirlərinin fonunda ara-sıra yer alan emosiyalara mənfi təsir göstərən kadrları yox etməyə cəhd göstərmək olub. Kişilər isə ekranda cəlbedici təsvirləri seçməli idilər. Bu anda eksperimenti aparan əsas mütəxəssis qadınlara kişilərin fotolardakı qadınların xarici görkəmlərinə qiymət verdiklərini açıqlayıb.

Eksperimentin sonunda isə qadınlar öz sevgililərinin digər qızları qiymətləndirməsini eşitməyin nə dərəcədə ağır olduğunu söyləyiblər. Məlum olub ki, daha çox qısqanclıq nümayiş etdirən qadınlar onlara tapşırılan şəkilləri tapmaqda çətinlik çəkiblər. Qısqanclıq və "korluq" hissləri isə qadınların öz sevgililərinin digər qızlara qiymət verməsini fikirləşdikləri anla üst-üstə düşüb. Mütəxəssislər bildiriblər ki, məhz bu təcrübə sosial münasibətlərlə həqiqətdə qəbul olunanlar arasında sıx əlaqələrin mövcudluğunu sübut edir.





# Son 10 ildə bütün yaşadıqlarını xatırlayır

**İngilis Aurelien Hayman, hyperthymesia adlandırılan sindromdan əziyyət çəkir. Sözügedən sindrom bu günə qədər edilən hər şeyi xatırlamaq anlamına gəlir. 22 yaşlı ingilisin yaxalandığı sindrom dünyada 20 nəfərdə görülüb. Hayman bu sindrom ucbatından son on ildir heç nəyi unutmur, ən incə detalına qədər xatırlayır. Maraqlıdır ki, gənc hər hansı tarixdə təkcə nə etdiyini yox, həm də nə yediyini, nə geyindiyini, kiminlə nə söhbət etdiyini, hətta həmin gün televizorda hansı xəbərlərin nümayiş olunduğunu və hava proqnozunu da xatırlayır. 14 yaşına çatanda keçmişdəki hər şeyi rahatlıqla xatırlaya bildiyini fərq edən Hayman bunları deyib: "Keçmişlə bağlı hər şeyi xatırlamaq dopdolu bir şkafdan istədiyini bir anda tapmaq kimi bir şeydir. Özümdən asılı olmadan xatirələrim kodlanır".**

Haymanı bir çox testlərdən keçirən Hull Universiteti alimləri deyib ki, ona bəzi tarixlərdə nələr baş verdiyi ilə bağlı suallar veriblər. Alimlərin sözlərinə görə, aldıqları cavablarla gerçək məlumatları tutuşdurublar və Haymanın hər şeyi ən incə detalına qədər düz dediyi üzə çıxıb.




**QOÇ** - Saat 11-13 arası əsəblərinizi cilovlaya bilsəniz, günün qalan müddətində ovqatınız xoş olacaq. Boş dayanmayın. Mühüm adamlara baş çəkin ki, ulduzlar sizə sevinc bəxş etsin. Pul da gözlənilir.

**BUĞA** - Əbəs yerə risk etməyin. Çalışın ki, ünsiyyətdə olduğunuz insanlarla münasibətləri qoruyasınız. Təxminən saat 15-dən sonra işgüzarlığınızı artırın ki, uğurlarınız çoxalsın.

**ƏKİZLƏR** - Ulduzların düzümü maraqlı bir təqvim yaşayacağınızdan xəbər verir. Üzləşdiyiniz adamların əksəriyyəti ovqatınızı yüksəldəcək. Sövdələşmələr üçün də səmərəli vaxtdır. Bu fürsətdən yararlanın.

**XƏRÇƏNG** - Astroloji göstəricilər işlərinizin rəvan gedəcəyinə işarə edir. Hətta cəhd etdiyiniz təqdirdə maddi durumunuz da yaxşılaşa bilər. Nahardan sonra səfərə çıxmaq fikrinizi reallaşdırın.

**ŞİR** - Yeni işgüzar əlaqələrə start vermək üçün Göy qübbəsi tərəfinizdə duracaq. Odur ki, bütün səylərinizi birləşdirməlisiniz. Günün ikinci yarısında şanslı məqamlar yaşayacaqsınız.

**QIZ** - Böyük dəyişikliklər astanasındasınız. Qətiyyən tərəddüd etməyin. Nə qədər cəsarətli olsanız, işləriniz də bir o qədər uğurlu olacaq. Nahardan sonra qonaq getməyə dəyər.

**TƏRƏZİ** - Yalnız münasibətlər zəminində uğurlarınız olacaq. Fəaliyyət və ya şəxsi işlər üçünsə sərfəli vaxt deyil. İnsanlara qarşı unutqanlığınızı dəf edin. Daha çox istirahət edin.

**ƏQRƏB** - Gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutduğundan ilk növbədə səhhətinizi qorumalısınız. Qlobal işlərin həllini, eləcə də səfərlər planını isə mümkün qədər təxirə salın.

**OXATAN** - Qarşınızda duran vəzifələrin çoxluğu sizi yoracaq. Lakin nəticənin uğurlu olacağını nəzərə alıb passivləşməməlisiniz. Axşam məxfi görüşlər keçirmək sizə böyük səmərə verə bilər.

**OĞLAQ** - Səhər saatlarından başlayaraq qarşılıqlı münasibətlər zəminində, həmçinin işgüzar sövdələşmələrdə vəziyyət ürəyinizcə olacaq. Günün ikinci yarısında yeni təkliflər də gözlənilir.

**SUTÖKƏN** - Enerjinizin azaldığı bir vaxtda özünüzü ələ almağa çalışın. Fikirlərinizi başa düşən adamlar arayın. Nahar ərəfəsində şəxsi büdcənizi artırmaq ehtimalınız yaranacaq.

**BALIQLAR** - Olduqca əhəmiyyətli gündür. Hansısa böyük bir işinizi həyata keçirməkdə şans qazanacaqsınız. Bununla yanaşı perspektivli görüş və maddi gəliriniz də mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# D vitamini çatmırsa, ölüm riski 30 faiz artır



**Amerikanın Oregon Dövlət Universitetində həyata keçirilən araşdırma sübut edib ki, yaşlı insanlardakı D vitamini çatışmazlığı ölüm riskini 30 faiz artırır. Bu faizi azaltmaq üçün gündə 30 mq D vitamini qəbul edilməli və gəzintiyə çıxılmalıdır. Bundan başqa, sözügedən vitamin diabet, ürək xəstəlikləri riskini də lazımi səviyyədə azaldır. Amma gündə 25-30 mq-dan artıq D vitamininin qəbul edilməsi böyrək probleminə səbəb ola bilər.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300